www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20 noyabr 2014-cü il Cümə axşamı № 284 (5993) Qiymıəti 40 qəpik

**Xəbər**

## Ağcabədidə 54 nəfərə qarşı seksual zorakılıq edən manyak tutulub

yazısı səh.14-də

**Gündəm**

### Hüseyn Abdullayevin uçurulan obyektindən son xəbər



Ofisin kirayəçisi olan "Əmrahbank"ın yerləşdiyi binanın divarları zədələnib, elektriki kəsilib; bütün bunlar bankın gələcəyinin qaranlıq olduğunu deməyə əsas verir

yazısı səh.5-də

### Sahib Məmmədovun Qubad İbadoğlu haqda iddialarına cavab verildi

yazısı səh.4-də

### 2015-də kreditlərin faiz dərəcələri azaldıla bilər

yazısı səh.7-də

### Ermənistan pilotların cəsədlərini, Azərbaycan isə girovların qaytarılmasını istəyir

yazısı səh.8-də

### Nazirlik yoxlamalara başladı - özəl klinikalar hədəfdə

yazısı səh.7-də

### Türkiyə hökuməti 2015-ci il erməni iddialarına qarşı ciddi hazırlaşır

yazısı səh.12-də

### "Avtoş"lar barədə bilmədiyimiz gerçəklər

yazısı səh.13-də

### Helikopteri vuran əsgər danışdı

yazısı səh.2-də

### Azərbaycan ən viruslu ölkələr üçlüyündə...

yazısı səh.14-də

### Terror təşkilatına qoşulmaq istəyən 4 azərbaycanlı həbs edildi

yazısı səh.2-də

### İŞİD-ə qız verməyən ailə qətlə yetirilib

yazısı səh.13-də

### Parkinqlərdə yığılan pullar kimin cibinə gedir?

yazısı səh.15-də

# Bakının mərkəzində MADO mərəkəsi

# RESTORANINDA ERMƏNİ MAHNISI SƏSLƏNƏN AZƏRBAYCAN DEPUTATINI CƏZALANDIRIRLAR

Türkiyənin qida sektorunun ünlü brendinin Azərbaycan şəbəkəsi "nurçu" deputat Ceyhun Osmanlıdan alınır; onun Bakıdakı restoranında Sərkisyan oxuyurmuş; Ankara Bakıdan "camaat" biznesinə son verilməsini tələb edib...




yazısı səh.6-də

# Milli Məclisdə sensasion çıxışlar

Siyavuş Novruzov bank soyğunçuluğundan, məktəblilərin durumundan sərt danışdı; "Azərbaycanda krediti qaytarmaq üçün... silah alveri ilə məşğul olmaq lazımdır"...

yazısı səh.9-da



### İsa Qəmbərdən Müsavatdakı narazılara üstüörtülü mesaj

yazısı səh.3-də



*Həcər Pənahlı:*

### "Azadlıq hərəkatı deyəndə birinci Nemət yada düşür"

yazısı səh.10-da



### Hacı İbrahimə "İslam Dünyasının Cövhərləri" mükafatı verilib

yazısı səh.4-də

**20 noyabr 2014**

YENİ MÜSAVAT
N 284 (5993) 20 noyabr 2014

# Jurnalist dəm qazından zəhərləndi



**"Bakı-Xəbər"qəzetinin əməkdaşı Günel Cəlilova yaşadığı evdə dəm qazından zəhərlənib. Qəzetin əməkdaşı İradə Sarıyeva "Yeni Müsavat"a bildirib ki, hadisə zamanı xoşbəxtlikdən jurnalistin valideynləri evdə olub. Hadisə evin hamamında baş verib.Günelə köməyə gələn ilk anası olub. Onun zirək tərpənməsi qızını ölümdən qurtarıb. Jurnalist xəstəxanaya yerləşdirilərək müayinədən keçib. Bir qədər sonra vəziyyəti qənaətbəxş hesab edilərək evə buraxılıb.**

İradə Sarıyevanın sözlərinə görə, Günel Cəlilova uzun müddət huşsuz vəziyyətdə olub: "Biz onunla əlaqə saxlayanda bildirdi ki, həkimlərin müdaxiləsi zamanı belə ətrafında baş verənləri hiss etməyib. Çox şükür ki, hazırda vəziyyəti yaxşıdır".

Qeyd edək ki, havaların soyuması ilə dəm qazından boğulanların sayı artır. Elə bu yaxınlarda "Yeni Müsavat"ın əməkdaşı Cavanşir Abbaslı da bu cür hadisə ilə üzləşmişdi. Əməkdaşımızın sözlərinə görə, hər şey bir neçə saniyədə baş verir: "Əvvəl baş gicəllənməsi, sonra isə göz qaralmaları olur. Bir neçə saniyədən sonra isə tamamilə huşsuz vəziyyətə düşülür".

❑ XALİDƏ

# Zakir Qaralov beynəlxalq quruma sədr seçildi

**Beynəlxalq Antikorrupsiya Akademiyasının Bakıda keçirilən üçüncü Assambleyasında baş prokuror Zakir Qaralov Beynəlxalq Antikorrupsiya Akademiyasına üzv ölkələrin Assambleyasının növbəti il üçün sədri seçilib.**

APA-nın məlumatına görə, Tailand Krallığı nümayəndəsinin bir illik səlahiyyət müddətinin başa çatması ilə əlaqədar Beynəlxalq Antikorrupsiya Akademiyasına üzv ölkələrin Assambleyasının növbəti il üçün sədri seçilən Z. Qaralov rəhbərlik edəcəyi dövr üçün qarşıda duran vəzifələrə dair fikirlərini bölüşüb.

Baş prokuror təhsilin insan həyatında, onun şəxsiyyət kimi formalaşmasında əvəzedilməz rolunu qeyd edərək tədris müəssisəsi kimi akademiyanın ənənəvi yay kurslarının təşkili sahəsində fəaliyyətinin daha da inkişaf etdirilməli olduğunu, iqtisadiyyat, hüquqşünaslıq, politologiya, psixologiya kimi çoxsaylı sahələrin inteqrasiyasını və cəmiyyətin bütün təbəqələrini əhatə edən "Antikorrupsiya tədqiqatları üzrə master" kursları keyfiyyətcə yeni məzmun daşımalı olduğunu bildirib.

Akademiyaya üzv dövlətlərin sayının artırılması istiqamətində işin prioritet vəzifələrdən olduğunu bildirən Z. Qaralov qabaqcıl təcrübənin öyrənilməsi və bölüşdürülməsi məqsədilə keçirilən treninqlərin coğrafiyasının müxtəlif mövzular üzrə regional konfransların təşkili yolu ilə genişləndirilməsinin vacibliyini vurğulayıb. O, bu baxımdan Beynəlxalq Antikorrupsiya Akademiyası və Azərbaycan Vergilər Nazirliyi arasında 2012-ci ildə imzalanmış Anlaşma Memorandumunun icrası qaydasında 2015-ci ilin yay fəslində Vergilər Nazirliyinin Şamaxı rayonunda beynəlxalq tədbirlərə ev sahibliyi üçün hər cür şəraiti olan Tədris Mərkəzində korrupsiyaya qarşı mübarizə sahəsində aktual mövzuya həsr olunmuş regional konfransın keçirilməsini təklif edib.

Baş prokuror Nizamnaməsinə müvafiq olaraq üzərinə düşən vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün tədris ocağının ianə və maliyyə mənbələrinin artırılması istiqamətində Akademiyaya maddi dəstəyin gücləndiriləcəyini söyləyib.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

**Başsağlığı**

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı başqan müavini Nüşabə Sadıxlıya dayısı Məmməd Hüseynovun vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Milli Strateji Düşüncə Mərkəsinin rəhbəri İsa Qəmbər Nüşabə Sadıxlıya dayısı Hüseynovun vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

# Helikopteri vuran əsgər danışdı

## İlkin Muradov: "Onlar postlarımıza zərbə endirdilər"



İlkin Muradov

**Düşmən helikopterini vuran əsgər danışıb. ANS PRESS-in məlumatına görə, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, manqa komandiri İlkin Muradov "Azərbaycan Ordusu" qəzetinə müsahibəsində qeyd edib ki, məhv edilən helikopter əvvəlcə atəş açıbmış.**

"Mən start mövqeyində hazır dayanmışdım. Əvvəlcə uzaqdan düşmən helikopterlərinin səsini eşitdik. Sonra hədəflərin qaraltılarını nöqtə kimi binokldan müşahidə etdik. Gördük iki M-24 tipli helikopter düz üstümüzə gəlir. Göstəriş aldıq ki, əgər bizim hərbi hissənin müdafiə rayonuna daxil olsalar, hava məkanını pozsalar, hədəfi məhv edək", - deyə İlkin Muradov bildirib.

**Manqa komandirinin sözlərinə görə, helikopterlər səngərlərimizin üzərinə sürətlə yaxınlaşaraq mövqelərimizi atəşə tutublar:** "Onlar postlarımıza zərbə endirdilər. Ön xətdəki döyüşçülərimiz də avtomat və pulemyotlardan düşmənin texnikalarını atəşə tutdular və bu zaman onlar sola istiqamət götürdülər. Mən dərhal arxada uçan helikopteri nişan alıb, tətiyi sıxdım".

Xatırladaq ki, Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən keçirilən son təlimlər zamanı düşmən hərbi aviasiyası cəbhəyanı zonada 3 gün provokasiya xarakterli uçuşlar həyata keçirib.

Davamlı olaraq mövqelərimiz üzərində döyüş manevrləri yerinə yetirən düşmən hərbi aviasiyası noyabrın 12-də daha açıq şəkildə döyüş kursuna çıxaraq uçuşlar keçirməklə mövqelərimizə atəş açmağa cəhd edib.

Həmin gün saat 13:45 radələrində cəbhənin Ağdam rayonunun Kəngərli kəndindən 1700 metr şimal-şərq istiqamətində Ermənistan Respublikası Silahlı Qüvvələrinə məxsus Mi-24 tipli helikopteri döyüş kursuna enərək mövqelərimizə hücuma cəhd edib. Qoşunlarımız tərəfindən açılan atəş nəticəsində düşmən helikopteri məhv edilib.

Hazırda vurulan düşmən helikopterinin qalıqları müdafiənin ön xəttindən 500 metr qarşıdakı əraziyə düşüb.



Ben Cardin

# Helsinki Komitəsində korrupsiya dinləmələri keçirildi

**Noyabrın 19-da ABŞ Senatının Helsinki Komitəsi "ATƏT regionunda korrupsiya ilə mübarizə: Yaxşı idarəçilik və təhlükəsizlik arasında əlaqə» mövzusunda dinləmə keçirib.**

Dinləmələri açan senator Ben Cardin korrupsiya ilə siyasi sabitlik arasında birbaşa əlaqə olduğunu qeyd edərək, Tunis və Ukraynadakı hadisələri misal gətirib. (azadlıq.org) Onun sözlərinə görə, bu ölkələrdə hakimiyyətə qarşı kütləvi iğtişaşların əsas səbəblərindən biri də korrupsiya idi. Dinləmənin proqramını elan edən senator AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılovanın tədbirdə iştirak edə bilməyəcəyini təəssüflə bildirib, əlavə edib ki, Azərbaycan hakimiyyəti onun ölkədən çıxmasının qarşısını alıb.

Dinləmələrdə korrupsiyaya qarşı mübarizədə QHT-lərin səmərəsi müzakirə olunub. Shaazka Beyerle bildirib ki, vətəndaş cəmiyyətinin fəallarını dəstəkləmək vacibdir. O, bunu bəzən ənənəvi QHT-lərdən kənar həyata keçirməyin daha səmərəli olduğunu əlavə edib. Korrupsioner hakimiyyətlərlə QHT-lərin yaxınlaşması təhlükəsini bildirən ekspertin fikrincə, cəmiyyətdə nüfuz sahibi olan vətəndaş cəmiyyəti fəalları ilə birbaşa əlaqə bu təhlükəni zəiflədə bilər.

Beyerle bu sahədə online medianın da rolunu qeyd edib.

Qəzetimiz çapa gedərkən müzakirələr davam edirdi. Müzakirələrin gedişi barədə müsavat.com saytından əlavə məlumat ala bilərsiniz.

❑ M.MAHRIZLI

# HDQ-nin vəzifəli şəxsləri ev dustaqlığına buraxıldı



**Bakı Hərbi Məhkəməsində Azərbaycan Müdafiə Nazirliyi Hərbi Dəniz Qüvvələrinin (HDQ) həbsdə olan sabiq anbar rəisi Faiq Hamayev və digər 4 nəfər vəzifəli şəxsin ev dustaqlığına buraxılmaları barədə vəsatətə baxılıb.**

Vəkil Adəm Məmmədovun APA-ya verdiyi məlumata görə, prosesdə qərar qəbul edilib. Qərara görə, həmin şəxslərin vəsatətləri təmin edilərək, barələrində seçilmiş həbs-qətimkan tədbiri ev dustaqlığı ilə əvəz edilib.

Xatırladaq ki, HDQ-də aparılan yoxlamalar zamanı qanun pozuntuları aşkar edilib. Aşkarlanmış qanun pozuntuları ilə bağlı Respublika Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Qanunazidd əməlləri törətməkdə təqsirli bilinən bir neçə nəfər, həmçinin HDQ-nin sabiq komandanı, vitse-admiral Şahin Sultanov təqsirləndirilən şəxs qismində cəlb edilməklə, Respublika Hərbi Prokurorluğunun təqdimatı əsasında aprelin 23-də Bakı Hərbi Məhkəməsinin qərarı ilə onun barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Daha sonra digər bir neçə vəzifəli şəxs də istintaqa cəlb olunub. Ş. Sultanov Cinayət Məcəlləsinin 313-cü (vəzifə saxtakarlığı) və 179.3.2-ci (mənimsəmə - külli miqdarda törədildikdə) maddələri ilə təqsirli bilinir. Hazırda həmin cinayət işləri üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

# Ermənistanda yoxsulluq statistikası - 32 faiz

**Ermənistanın Milli Statistika Xidmətinin 2013-cü ilin yekununa dair hesabatında bu ölkədə yoxsulluq 32% olaraq qeydə alınıb. Avropa.info xəbər verir ki, rəqəmlər bu gün "Ermənistanda yoxsulluq və sosial mənzərə" hesabatı çərçivəsində açıqlanıb.**

Hesabata görə, üç erməni vətəndaşından biri yoxsulluq səviyyəsində yaşayır. 32% (967 min nəfər) yoxsul kimi qeydə alınıb. Onlarda 13,3% (402 min) olduqca yoxsul, 2,7% 982 min) yoxsulluğun son həddindədir.

Rəsmi səviyyədə Ermənistanda yoxsulluğun 2011-ci ildən bəri azaldığı bəyan edilsə də, statistika 2008-ci ildəki səviyyə ilə eyni olduğunu göstərir.

Şəhər və kənd əhalisi arasında yoxsulluq səviyyəsindəki fərq elə də çox deyil. 31% kənd yerlərində, 32,2% şəhərlərdə.

Ölkənin ən yoxsul regionu kimi isə Şirak əyaləti qeydə alınıb. Burada yoxsulluq 46%-dir.



# Putin 100 milyard üçün Türkiyəyə gedir

**Rusiya prezidenti Vladimir Putin 100 milyard dollarlıq ticarət üçün Türkiyəyə gedir.**

Avropa.info-nun məlumatına görə, Putini Türkiyə səfərində 10 rus nazir müşayət edəcək.

Rusiya prezidentinin Türkiyəyə səfərinin məqsədi Rusiya-Türkiyə Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının 5-ci iclasında iştirakıdır. Putin iclasa Ərdoğanla birlikdə sədrlik edəcək.

Görüşlərdə iki ölkə arasındakı 35 milyard dollarlıq ticarət həcminin 2020-ci ilə qədər 100 milyard dollara çıxarılması danışılacaq.

Toplantıda iqtisadiyyat və enerji sahələrində əməkdaşlıq müzakirə olunacaq.

Bundan başqa, Türkiyədən Rusiyaya meyvə və tərəvəz ixracı, Rusiyada yaranan qıtlığın aradan qaldırılması ilə bağlı danışıqlar aparılacaq.

Enerji sahəsində isə Ağquyu nüvə stansiyasında işlərin sürətləndirilməsi danışılacaq.

Qeyd olunur ki, istər Ankara, istərsə də Moskva 30 milyard dollarlıq ticarət həcmini 2020-ci ilə qədər 100 milyard dollara çıxarmağa maraqlıdır.

# İŞİD-ə qoşulmaq istəyən 4 azərbaycanlı həbs edildi

**Türkiyədən Suriyaya keçmək istəyən 4 azərbaycanlı həbs edilib. Azvision.az-ın məlumatına görə, Türkiyənin Kilis şəhərindən gizli yolla Suriyaya keçib İraq Şam İslam Dövlətinə (İŞİD) qoşulmaq istəyən 4 azərbaycanlı tutulub.**

İlkin məlumatlara görə, tutulan şəxslər İŞİD-ə qoşulmaq üçün Suriyaya getmək istədiklərini etiraf ediblər.

Həmin şəxslərlə bağlı artıq Kilis Polis İdarəsində cinayət işi başlanıb, araşdırma aparılır.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 284 (5993) 20 noyabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Müsavat Partiyasının sabiq başqanı İsa Qəmbər dünən facebook səhifəsində Müsavat Partiyasında gedən proseslərə işarə olduğu şübhə doğurmayan maraqlı fikir yazıb. Bir cümlədən ibarət qeydində İsa Qəmbər yazıb: "Kənardan necə görünməsindən asılı olmayaraq, əslində savaş Əliyev rejimi ilə Müsavat arasında gedir".**

# İsa Qəmbərdən Müsavatdakı narazılara üstüörtülü mesaj

## Qubad İbadoğlu və Vurğun Əyyub yeni partiya yaradacaqları xəbərindən danışdılar; yeni qurultay ideyasına başqan müavinlərindən təpki



İsa Qəmbər



Qubad İbadoğlu

Ekspertlər və media İsa Qəmbərin bu qeydinin qurultaya və onun nəticələrinə kölgə salıb partiya rəhbərliyinə qarşı mübarizə aparanların bostanına atılan daş olduğunu şərh edir. Bildirilir ki, əslində sabiq başqan narazı tərəfi hakimiyyətin sifarişini yerinə yetirməkdə dolayısı ilə ittiham edib. Keçmiş başqanın bu açıqlamasını artıq onun da səbrinin daşmaq üzrə olduğunun göstəricisi sayanlar da var.

Narazılar haqqında isə məlumat yayılıb ki, onlar Müsavatdan ayrılıb Azad Müsavat adlı yeni partiya yaradacaqlar. Bu barədə xəbərləri **Qubad İbadoğlu** və Vurğun Əyyub dünən yalan informasiya adlandırıblar. Q. İbadoğlu APA-ya açıqlamasında bu tip informasiyaların bir mərkəzdən yayıldığını və heç bir əsasının olmadığını deyib: "Bunlar yalandır və eyni mərkəzdən məlum məqsədlərlə yayılan məlumatlardır. Hətta mənim əvvəllər işlədiyim İqtisadi Tədqiqatlar Mərkəzinə məxsus ofis qeyri-qanuni olaraq bağlanıb. Müsavat Partiyasından getmək, başqa siyasi partiyada təmsil olunmaq və ya yeni partiya yaratmaq fikrimiz yoxdur. Belə bir müzakirə heç vaxt olmayıb".

**Müsavat Məclisinin üzvü Vurğun Əyyub da yayılan informasiyaları təkzib edib:** "Hər hansı bir partiya yaradılması istiqamətində müzakirələr getmir. Biz Müsavat Partiyasının üzvləriyik və partiyanın demokratik şəkildə idarəçiliyində maraqlıyıq, fəaliyyətimizi də buna yönəltmişik".

**"Meydan TV"yə müsahibəsində isə Q.İbadoğlu deyib ki, son vaxtlar olanlar göstərdi ki, Müsavat Partiyası demokratik düşüncəli insanların toplandığı siyasi təsisat olsa da, avtoritar üsullarla idarə olunur. Bu da partiya daxilində narazılığın artmasına gətirib çıxarır.**

**"Bu gedişatla Vurğun Əyyub və sizin də partiyadan çıxarılmağınız reallaşa bilərmi" sualına Q.İbadoğlu belə cavab verib:** "Əgər qanun, nizamnamə yoxdursa, yaxud bu istiqamətdə müzakirələr yalnız siyasi məqsədlərə, bir qrupun maraqlarına xidmət edirsə, hər şey gözləmək mümkündür. Bunu həm də o məqsədlə edirlər ki, partiyada tanınmış, üzdə olan bir neçə şəxsin cəzalandırılması və partiya sıralarından xaric olunması həmin şəxslərin tərəfdarlarında müəyyən sakitlik, müəyyən dövr üçün öz iddialarından geri çəkilmə instinkti yaratsın. Yeni adamlar özlərinin də cəzalanmasından qorxaraq fəallıqlarını azaltsınlar. Yanaşma bundan ibarətdir ki, əgər 10-15 nəfər cəzalanacaqsa, bu, son nəticədə digərlərinin susmasına gətirib çıxaracaq. Burda məqsədlərdən biri digər üzvlərin susdurulmasıdır. Qarşı tərəfin sayı müzakirələrə qoşulanların sayı ilə eyni deyil. Bizim mövqeyimizi bölüşənlərin sayı qarşı tərəfdən xeyli çoxdur".

**Q.İbadoğlu partiyanın dekabrın 23-nə planlaşdırılan ümumrespublika müşavirəsinə qatılıb çıxış etmək niyyətində olduğunu açıqlayıb:** "Çünki son zamanlar yalnız siyasi yox, mənəvi mühitin korlanmasından da narahatlığım var. Xüsusən mənim və Vurğun bəyin işi ilə bağlı mətbuata sızdırılan yanlış informasiyalar, bunun ətrafında qurulan təbliğatlar yalnız idarətmə ilə bağlı deməyə əsas vermir. Həm də mövcud vəziyyətin yaranmasında mənəvi dəyərlərin korlandığını deməyə xeyli əsaslarımız var".

**Q.İbadoğlu İsa Qəmbərin "Kənardan necə görünməsindən asılı olmayaraq, əslində savaş Əliyev rejimi ilə Müsavat arasında gedir" fikrinə münasibət bildirib.**

**O, "Qafqazinfo"ya açıqlamasında qeyd edib ki, İsa Qəmbər yenə də tərəf kimi çıxış edib:** "O bununla göstərdi ki, baş verənləri nəinki izləyir, hətta idarə edir. Eyni zamanda ənənəvi yanaşması ilə partiyada baş verənlərin məsuliyyətini hazırkı rəhbərliyin üzərindən atmaq niyyəti güdür və partiyadaxili repressiyalara haqq qazandırır. Buna çox təəssüf etdim. Deyilənlər minlərlə müsavatçının apardığı mübarizənin üzərinə kölgə salmağa yönəlib və kökündən yanlışdır. Bizim mübarizəmiz məfkurə mübarizəsidir. Odur ki, Müsavat Partiyasının nizamnamə ilə idarəçiliyinə çalışırıq, onun güclənməsi ilə bağlı təkliflər paketi ilə çıxış etmişik. Buyursunlar, açıqlamalarını təsdiq edən bircə dənə də olsun fakt təqdim etsinlər"...

**Qubad İbadoğlunun "Vəziyyət belə davam etsə, biz növbədənkənar qurultay çağıra bilərik. Növbədənkənar qurultayın çağırılması Müsavat Partiyasının nizamnamə normalarından biridir" bəyanatına isə Müsavat başqanının müavinləri Gülağa Aslanlı, Elman Fəttah və Səxavət Soltanlı münasibət bildirib.**

**G.Aslanlı deyib ki, Müsavatda növbədənkənar qurultaya ehtiyac yoxdur:** "Partiyanın nizamnamə və proqramına əlavə və dəyişikliklər edilməsi üçün sonuncu qurultaydan sonra növbədənkənar qurultay çağırılması məsələsi nəzərdə tutulurdu. Lakin bu məsələnin müzakirə olunmasına vaxt imkan vermədi. Başqa məsələlərlə bağlı növbədənkənar qurultayın çağırılmasına isə ehtiyac görmürəm".

**Müsavatın nizamnaməsində növbədənkənar qurultayın keçirilməsinin nəzərdə tutulduğunu xatırladan Elman Fəttah bildirdi ki, hər bir müsavatçı nizamnamə çərçivəsində növbədənkənar qurultay çağırılması üçün təşəbbüs irəli sürə bilər. Lakin təşəbbüs əsaslandırılmayıbsa, əlbəttə, qəbul olunmur:** "Hazırda növbədənkənar qurultayın keçirilməsinə ehtiyac yoxdur. Çünki Müsavat artıq sentyabrın 27-də yüksək səviyyədə qurultayını keçirib. Qurultayın yüksək səviyyədə keçdiyini, qəbul etdiyi qərarları Qubad bəy də o zaman bəyan edib".

**Səxavət Soltanlı da növbədənkənar qurultay üçün heç bir zərurət olmadığını dedi. Səbəbini isə Müsavat Partiyasının 27 sentyabrda möhtəşəm qurultay keçirməsi, seçkili orqanlara seçkilər keçirməsi, partiyada strukturların formalaşıb artıq ciddi şəkildə işləməyə başlaması ilə əsaslandırdı:** "Bütün bunlara və ən əsası qurultay demokratik keçdiyinə görə növbədənkənar qurultayın çağırılmasına ehtiyac qalmır".

Qeyd edək ki, Müsavatın nizamnaməsinə görə, partiyanın ali orqanı onun qurultayıdır. Qurultaylar 4 ildən bir Məclis tərəfindən çağırılır. Növbədənkənar qurultay isə Divanın və ya rayon (şəhər) təşkilatlarının 1/5-nin, yaxud Məclis üzvlərinin 1/3-nin və ya MNTK-nın, ya da partiya başqanının təşəbbüsü ilə Məclisdə qərar qəbul edildikdən sonra çağırılır. Məclisin fövqəladə qurultay çağırmaq səlahiyyəti var. Fövqəladə qurultay 1 ay ərzində partiyanın son qurultayı nümayəndələrindən ibarət tərkibdə çağırılır.

❑ **E.SEYİDAĞA**

# Müsavatdan AXCP-yə cavab verildi

## "Bu partiyanın 2000-ci ildə düşdüyü durumla Müsavatda indi gedən prosesi eyniləşdirmək əsassızdır"



Mustafa Hacıbəyli

**AXCP sədrinin müavini Fuad Qəhrəmanlı hazırda Müsavat Partiyasında gedən proseslərlə 2000-ci ildə AXCP-də gedən prosesləri eyniləşdirib. O, APA-ya deyib ki, Müsavat Partiyasının daxilində gedən proseslərə AXCP qarışmır. Baxmayaraq ki, vaxtilə AXCP-nin daxilində ziddiyyətlər yaranında Müsavat Partiyası bu məsələlərdə tərəf nümayiş etdirmişdi: "Ancaq biz siyasi mədəniyyət nümayiş etdirərək, Müsavat daxilindəki məsələlərə hər hansı formada qarışmırıq və bütün hallarda bunu partiyanın daxili işi hesab edirik".**

Müsavat Məclisinin üzvü Mustafa Hacıbəyli isə AXCP-nin 2000-ci ildə düşdüyü durumla Müsavat Partiyasında indi gedən prosesi eyniləşdirməyin əsassız olduğunu hesab edir. "Yeni Müsavat"a açıqlamasında M. Hacıbəyli bildirdi ki, haqqında söhbət gedən iki məsələ tamamilə fərqli məsələlərdir: "2000-ci ildə Əbülfəz Elçibəy dünyasını dəyişəndən sonra AXCP-nin rəhbərinin kim olması sualı ortaya çıxmışdı. Müsavatda isə vəziyyət tamam fərqlidir. Qurultayın rəsmi iradəsi var. Partiyada rəqabət illərlə sürüb və qurultayda onunla yekunlaşıb ki, tərəflərdən biri qalib gəlib. Qurultayın rəsmi qərarı var, seçkinin nəticələrini say komissiyasının bütün üzvləri imzalayıb, seçkinin nəticəsi təsdiqlənib, formalaşmış legitim Məclis, MNTK, Divan var. Müsavat Partiyasında həm əvvəlki başqanın mövqeyi ortadadır, həm Müsavat Partiyası üzvlərinin əksəriyyətinin mövqeyi ortadadır. Müəyyən narazılıqlar olsa belə, bu və ya digər pozuntu barədə ortaya bir dənə də olsun sübut ortaya qoya bilməyiblər. Çünki sübutlar yoxdur. Müsavat qurultayını keçirərək öz başqanını seçib. AXCP-də isə vəziyyət tamam başqa idi. Elçibəyin vəfatından sonra partiyaya kimin rəhbərlik etməyini hələ qurultay müəyyənləşdirməli idi. Amma proses tamamilə parçalanma istiqamətində getdi və nəticə bəllidir".

**M.Hacıbəyli vurğuladı ki, Müsavat Partiyasında müəyyən adamların narazılıqları olsa da bu, qətiyyən parçalanma səviyyəsində deyil:** "Biz çalışacağıq ki, narazılıqları mümkün qədər az itki ilə aradan qaldıraq, eyni zamanda Müsavatı daha da gücləndirək".

❑ **E.SEYİDAĞA**

# Müsavat MNTK-sı Arif Hacılının tərəfdarına xəbərdarlıq etdi



Könül Mirzəyeva

**Müsavat Partiyası Mərkəzi Nəzarət-Təftiş Komissiyasının növbəti toplantısı keçirilib. Partiyadan verilən xəbərə görə, iclasda Müsavat Partiyası Xaçmaz rayon təşkilatının üzvü, partiya Məclisinin üzvü Könül Mirzəyevanın (Könül Turan Türk) Kamil Xəlilbəyli ilə yazışmalarında işlətdiyi ifadələr müzakirə olunub.**

İclasda iştirak edən Könül Mirzəyeva haqqında olan iddialarla əlaqədar çıxış edib, verilən sualları cavablandırıb. Könül Mirzəyeva işlətdiyi ifadələrə görə peşmançılıq keçirdiyini, bir daha belə hallara yol verməyəcəyini bildirib.

MNTK müzakirələrdən sonra partiyanın Məclis üzvü Könül Mirzəyevaya xəbərdarlıq edib.

Xatırladaq ki, Könül Mirzəyeva ilə sosial şəbəkədə yazışmalarında birincini təhqir edən Kamil Xəlilbəyli MNTK-nın qərarı ilə təxminən bir həftə əvvəl Müsavat sıralarından xaric edilib. K.Mirzəyeva yeni başqan Arif Hacılının qatı tərəfdarlarından sayılır.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 284 (5993) 20 noyabr 2014



# Hacı İbrahimə "İslam Dünyasının Cövhərləri" mükafatı verilib

## "Avesta" prezidenti Malayziyanın baş naziri ilə görüşüb





**Noyabrın 10-dan 15-dək Malayziyanın paytaxtı Kuala Lumpurda 5-ci "OIC Muslim World Biz" beynəlxalq sərgi və konfransı keçirilib. Beş gün davam edən beynəlxalq tədbirdə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin və qeyri-müsəlman ölkələrin nümayəndə heyətləri, habelə 1000-ə yaxın biznes qurumunun təmsilçiləri iştirak ediblər.**

Bu sərgi və konfrans İslam ölkələrinin ən böyük iqtisadi tədbirlərdən hesab olunur. Bu tədbirin təşkilinə Malayziya hökumətinin 2,5 milyon ABŞ dolları ayırması Kuala Lumpurun bu tədbirə verdiyi önəmi göstərirdi. Tədbirdə Azərbaycanı tanınmış iş adamı Hacı İbrahim Nehrəmlinin prezidenti olduğu "Avesta" Konserni təmsil edib.

"OIC Muslim World Biz" beynəlxalq sərgi və konfransının açılış mərasimində Malayziyanın sabiq baş naziri Tun Abdullah Bədəvi çıxış edərək İslam dünyasının həmrəyliyinin əhəmiyyətini vurğulayıb. Mərasimdə "İslam Dünyasının Cövhərləri" adlı nominasiya üzrə müxtəlif müsəlman ölkələrini təmsil edən 9 iş adamı fəxri mükafatlarla təltif edilib. Azərbaycanlı iş adamı Hacı İbrahim Nehrəmli "Ən uğurlu iqtisadi layihə və sosial duyarlılıq" nominasiyası üzrə mükafata layiq görülüb. Təltifetmədən sonra çıxış edən Hacı İbrahim Nehrəmli İslam dünyasının ayrılmaz tərkib hissəsi olan Azərbaycanın sürətlə inkişaf etdiyini, prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu biznes fəaliyyəti üçün əlverişli şərait yaradıldığını bildirib. Azərbaycanın nail olduğu sosial-iqtisadi inkişafın fonunda təmsil etdiyi şirkətin də böyük əhəmiyyətli layihələrə imza atdığını qeyd edən "Avesta" Konserninin prezidenti artıq reallaşmasına başlanılan "Khazar İslands" yaşayış və biznes kompleksi haqqında məlumat verərək, kompleksin gələcəkdə İslam dünyasının ən məşhur biznes mərkəzlərindən birinə çevriləcəyinə ümid bəslədiyini bildirib. Sərgi müddətində İslam dövlətlərinin iş adamları Azərbaycanda həyata keçirilən iqtisadi layihələrlə maraqlanıb və əməkdaşlıq imkanları ilə bağlı müzakirələr aparıblar. "Avesta" Konserninin həyata keçirdiyi "Khazar İslands" yaşayış və biznes kompleksi layihəsi sərgi iştirakçılarının diqqətini daha çox cəlb edib və böyük perspektiv vəd edən layihə kimi dəyərləndirilib.

5-ci "OIC Muslim World Biz" beynəlxalq sərgi və konfransında iştirak edən "Avesta" Konserninin prezidenti Hacı İbrahim Nehrəmlini Malayziyanın baş naziri Mohammad Najib Tun Abdul Razak da qəbul edib. Azərbaycanın Malayziyadakı səfiri Qaley Allahverdiyevin də iştirak etdiyi görüşdə baş nazir Mohammad Najib Tun Abdul Razak bu ilin sentyabrında Azərbaycana səfərini xatırladıb və Bakı şəhərində müşahidə etdiyi müasir quruculuq işlərindən rəğbətlə söz açıb. "Avesta" Konsernin prezidenti Hacı İbrahim Nehrəmli Azərbaycanın qazandığı uğurların əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün prezident İlham Əliyev tərəfindən uğurla



davam etdirilən müdrik siyasətin nəticəsi olduğunu qeyd edib. "Avesta" Konserninin prezidenti Malayziyanın baş nazirinə rəhbərlik etdiyi şirkət, həyata keçirdiyi layihələr və o cümlədən də "Khazar İslands" haqqında geniş məlumat verib.

Hacı İbrahim Nehrəmlinin Malayziyanın sabiq baş naziri Mohamad Mahathir və Pahanq ştatının sultanı Ahmad Şah ibni Abu Bakarla da görüşləri olub. Bu görüşlər zamanı qarşılıqlı investisiya imkanları ilə bağlı fikir mübadiləsi aparılıb. "Avesta" Konsernin həyata keçirdiyi "Khazar İslands" layihəsinə böyük maraq göstərilib və bu layihə Azərbaycanın növbəti uğurlu brendi kimi yüksək qiymətləndirilib. Pahanq ştatının Sultanı Ahmad Şah ibni Abu Bakar "Avesta" Konserninin prezidenti Hacı İbrahim Nehrəmlinin şərəfinə ziyafət verib.

"Avesta"nın prezidenti Hacı İbrahim Nehrəmlinin "İslam Dünyasının Cövhərləri" adlı mükafatın "Ən uğurlu iqtisadi layihə və sosial duyarlılıq" nominasiyası üzrə mükafata layiq görülməsi, Malayziya hökumət başçısı Mohammad Najib Tun Abdul Razak və Pahanq sultanı Ahmad Şah ibni Abu Bakar tərəfindən yüksək səviyyədə qəbul edilməsi, eləcə də 5-ci "OIC Muslim World Biz" sərgi və konfransın iştirakçılarının "Khazar İslands" layihəsinə marağı Azərbaycan biznesinin böyük uğuru kimi qiymətləndirilməlidir.

❑ **Xəbər xidməti**

# Sahib Məmmədovun Qubad İbadoğlu haqda iddialarına cavab verildi

## "Bu məsələdə Qubad İbadoğlunun adının hallandırılması ona olan qərəzdən irəli gəlir"



Qubad İbadoğlu



Sahib Məmmədov

**İctimai Birliklərin "Mədən Sənayesində Şəffaflığın Artırılması" (MSŞA) Koalisiya Şurasının bir qrup üzvünün açıqlaması yayılıb. Musavat.com-a da göndərilən açıqlamada deyilir: "Son aylar Azərbaycanda vətəndaş cəmiyyətinə yaradılmış problemlər İctimai Birliklərin Mədən Sənayesində Şəffaflığın Artırılması QHT Koalisiyasının fəaliyyətinə də mənfi təsir göstərib.**

Koalisiya Şurası 31 oktyabr 2014-cü il tarixli iclasında mövcud vəziyyəti, Beynəlxalq MHŞT Katibliyinin Azərbaycanla bağlı qərarını və MHŞT üzrə Hökumət Komissiyasının rəhbərinin mətbuata açıqlamasını müzakirə edib və yaranmış vəziyyətlə bağlı müzakirələr aparmaq üçün MSŞT üzrə Hökumət Komissiyasının və ÇQ-nin sədri Şahmar Mövsümovla görüşmək barədə qərar qəbul edib. 11 noyabr 2014-cü ildə təşkil olunan görüşdə Mədən Sənayesində Şəffaflığın Artırılması QHT Koalisiyasının Şura üzvləri Azər Mehtiyev, Sevil Allahverdiyeva, Xalid Vahidoğlu, Taleh Əliyev, Zaur Əkbər və Qubad İbadoğlu iştirak edib. Görüşdə yaranmış vəziyyətdən çıxış yolları müzakirə olunub. Müzakirələr zamanı belə bir təklif olub ki, koalisiyanın maliyyə fəaliyyətinə maneələrin aradan qaldırılması üçün Koalisiya Şurası tərəfindən idarə ediləcək və sırf koalisiyaya maliyyə operatorluğu funksiyasını həyata keçirəcək, başqa heç bir fəaliyyətlə məşğul olmayacaq bir QHT yaradılsın. Bununla bağlı məsələ Ümumi Yığıncaqlararası dövrdə Koalisiyanın idarə edilməsi səlahiyyətinə malik olan Şuranın 14 noyabr 2014-cü il tarixli iclasında geniş müzakirə olunub, müxtəlif variantlar səsləndirilib. Səsvermə nəticəsində təsisçilərin sayının 3 nəfər koalisiya üzvü olması təklifi qəbul edilib. Sonra təsisçilər barədə müzakirələr aparılıb və təsisçilər kimi Qubad İbadoğlu, Sevil Allahverdiyeva və Əlimənməd Nuriyevin namizədliyi irəli sürülüb. Bu namizədlər iclasda iştirak edən 8 Şura üzvü tərəfindən dəstəklənib. Bu barədə məlumat koalisiyanın şəbəkəsində yayılandan sonra bəzi koalisiya üzvləri etirazlarını separat danışıqlar və gizli sövdələşmələr kimi təqdim ediblər. Şuranın qərarından narazılıq olduğu halda, mövcud qaydalara görə, bununla bağlı Koalisiyanın Monitorinq Qrupuna müraciət edilərək qərarın fəaliyyəti dayandırıla və MQ-nun rəyi ilə qərar ləğv edilə bilər. Şuranın qərarından narazı koalisiya üzvləri bu prosedurdan yararlanmaq əvəzinə, Şuranın qərarı ilə bağlı qərəzli mövqelərini sosial şəbəkələr vasitəsilə mediaya ötürüblər və bununla da ictimai rəydə çaşqınlıq yaradıblar. Bu müzakirələrin istiqamətini də qərəzli şəkildə MSŞA Koalisiyasının koordinatoru Qubad İbadoğlunun əleyhinə kampaniyaya çeviriblər.

MSŞA Koalisiyasının məlum görüşdə iştirak etmiş Şura üzvləri olaraq bildiririk ki, Şahmar Mövsümovla görüş Şuranın qərarı və müraciəti əsasında baş tutub, görüş barədə Şuranın bütün üzvləri əvvəlcədən məlumatlandırılıb. Görüşdə Beynəlxalq Katibliyin Azərbaycanla bağlı qərarı, koalisiyanın fəaliyyətində olan məhdudiyyətlərin aradan qaldırılması məsələləri müzakirələr edilib, hər hansı separat danışıqlar və ya gizli sövdələşmələr aparılmayıb. Koalisiya Şurasının məlum qərarı ilə bağlı mediada yer almış əsassız iddiaları qəti şəkildə pisləyir və bildiririk ki, bu məsələdə MSŞA Koalisiyasının koordinatoru Qubad İbadoğlunun adının əlahiddə hallandırılması məhz ona qarşı olan qərəzdən irəli gəlir. Bütün bunları nəzərə alaraq, məsələ ilə bağlı media qurumlarını obyektiv mövqe nümayiş etdirməyə, dəqiqləşdirilməmiş və əsaslandırılmamış iddialarla MSŞA Koalisiyası Şurasının və onun koordinatoru Qubad İbadoğlunun nüfuzuna xələl gətirən qara PR kampaniyasına son qoymağa çağırırıq.

Eyni zamanda onu bildiririk ki, İctimai Birliklərin "Mədən sənayesində şəffaflığın artırılması" Koalisiyası hazırda fəaliyyətini missiyasına və proqramına uyğun olaraq davam etdirir və onun statusunu dəyişdirilməsi məsələ gündəlikdə olmayıb və ola da bilməz.

Koalisiya Şurasının üzvləri,
Azər Mehtiyev
Taleh Əliyev,
Məlahət Mürşüdlü
Sevil Allahverdiyeva,
Xalid Vahidoğlu
Zaur Əkbər"

***

Xatırladaq ki, bir neçə gün öncə Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasının (MSŞAK) üzvü, Əmək Hüquqlarının Müdafiə Liqasının rəhbəri Sahib Məmmədov Qubad İbadoğlunu Neft Fondunun sədri Şahmar Mövsümovla separat danışıqlara getməkdə ittiham etmişdi.

Onun iddiasına görə, bir müddətdir ki, Qubad İbadoğlunun Neft Fondunun rəhbərliyi ilə intensiv məsləhətləşmələr aparmasından xəbərdar olub və Myanmarda başlanan sövdələşmə artıq nəticəsini verməyə bağlayıb: "Neft Fondu qərara gəlib ki, Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsünü Qubad bəyə bağışlasın və qalan təsisçilər isə yavaş-yavaş uzaqlaşdırılsın. Şahmar müəllim bu barədə mənə hələ ÇQ üzvü olanda demişdi. O bildirmişdi ki, koalisiya mandatından kənara çıxır *(mən bu fikirlə tam razıyam, son illər bu koalisiya Müsavat və AXCP-nin əlində marionetka olub)*. Mən də dəfələrlə bu barədə çıxışlar etmişəm.

Amma koalisiya daxilində bu qarşıdurmaların başında həmişə Qubad İbadoğlu dururdu. İndi hər şey aydındır. İndi də HSŞT Koalisiyasını ələ keçirmək yolunu tutub. Rəsmi bəhanəsi də budur ki, bu təşəbbüsün Şahmar Mövsümovdan gəldiyini və koalisiyanın Qubad İbadoğlunun adına QHT kimi qeydiyyatdan keçirməyə söz verdiyini bildirir. Məsələ ondadır ki, koalisiyanı ilk təsis edən 25 təşkilatdan biri də mənim təmsil etdiyim təşkilatdır. İndi koalisiyanın 140-dan çox təsisçisi var. Mən vaxtilə seçim qrupunun rəhbəri və Çoxtərəfli Qrupun üzvü olmuşam. HSŞT haqqında qanun layihəsinin müəllifiyəm. İndi Qubad İbadoğlu koalisiyanı özəlləşdirir və bunu Neft Fondunun tapşırığı ilə etdiyini utanmadan yazır. Onunla bağlı hər şey aydındır. Amma mən susan deyiləm".

❑ **Xəbər xidməti**



# Hüseyn Abdullayevin uçurulan obyektindən son xəbər

## Ofisin əsas kirayəçisi "Əmrahbank"ın yerləşdiyi binanın divarları zədələnib, elektriki kəsilib; bütün bunlar bankın gələcəyinin qaranlıq olduğunu deməyə əsas verir

**Almaniyada mühacirətdə yaşayan sabiq millət vəkili Hüseyn Abdullayevin Bakının mərkəzində, Qaqarin körpüsünün yaxınlığındakı ofisinin uçurulması barədə yayılan xəbərlər öz təsdiqini tapmaqdadır. Hadisə noyabrın 18-də günorta saatlarında baş verib. Hazırda ərazidə sürətlə söküntü işləri aparılır.**

Qeyd edək ki, Hüseyn Abdullayevə məxsus olan, Yusif Səfərov küçəsində, 27 saylı orta məktəblə üzbəüzdə yerləşən ikimərtəbəli bina ofis kimi icarəyə verilibmiş. Bundan başqa, həmin obyektin anbar kimi istifadə edilən geniş sahəsi olub.

Yayılan xəbərlərdə o da göstərilib ki, sabiq millət vəkilinə məxsus ofisin əsas kirayəçisi "Əmrahbank" olub. Belə ki, "Əmrahbank"ın ofisi söküntü işləri aparılması nəticəsində uçan binada yerləşir.

Xatırladaq ki, ərazidə söküntü işləri aparılarkən Bakı meri Hacıbala Abutalıbov orada olub. Bildirilir ki, ofisin uçurulmasına birbaşa o nəzarət edib. Danışıqlardan sonra bank rəhbərliyinə köçmələri üçün bir həftə vaxt verilib.

Hadisə yerində olduğumuz zaman söküntü işlərinin başa çatdığını və ərazidə təmizləmə işlərinin aparıldığını müşahidə etdik. Bir hissəsi uçurulan ofisdə yerləşən "Əmrahbank" rəhbərliyi isə yayılan xəbərləri təkzib etdi. Bildirdilər ki, söküntü işlərinin onlara heç bir aidiyyəti yoxdur.

**Adını öyrənə bilmədiyimiz bank rəhbərlərindən biri etirazını bu cür ifadə etdi:** "Bu qədər yalan xəbər yazmaq olmaz. Kim nə deyirsə, onu yazırlar. Hazırda bankda işlər əvvəlki qaydada gedir. Bu söküntü işlərinin bizə aidiyyəti yoxdur". Ofisin bir hissənin uçurulması və dəyən ziyanla bağlı suallarımızdan rəhbərlik yayındı. Hüseyn Abdullayevlə bağlı da sualımıza cavab verən tapılmadı. Banka girməyimizə icazə verilməsə də, söküntü işləri ilə əlaqədar elektrik naqillərinin kəsilməsi nəticəsində ofis işıq üzünə həsrət qalmışdı. Elektrik xətlərinin kəsildiyi açıq şəkildə görünürdü. Banka gələn müştərilər də dediklərimizi təsdiqlədilər. Onlar bankda işlərin dayandığını və elektrikin olmadığını bildirdilər.

Ərazidə aparılan geniş söküntü işləri ilə də maraqlandıq.







Araşdırmalarımız nəticəsində məlum oldu ki, plana düşən ərazi boş zona olub. Yalnız bağlı olan böyük obyektdən və azsayda ağaclardan başqa.

Fəhlələrlə söhbətimiz zamanı onlar ərazidə park tikiləcəyini söylədilər. Onu da qeyd etdilər ki, söküntü işləri başlayandan BŞİH-in başçısı Hacıbala Abutalıbov 3 dəfə əraziyə gəlib. Asılan böyük plakatın üzərində də park salınacağı xəbəri yazılmışdı.

Söküntü işlərinə rəhbərlik edən şəxslər BŞİH-in bilavasitə tapşırığı ilə ərazidə sakinlərin istirahət etmələri üçün park salınacağını diqqətimizə çatdırdılar. Onlar işlərin 3 gün ərzində bitəcəyini dedilər. Ərazidə gördüyümüz çoxlu sayda canlı qüvvə və texnikalar bu fikirləri sübut edirdi.

**Sakinlər isə parkla əlaqədar ərazidə aparılan söküntü işlərindən narazı olduqlarını dilə gətirdilər. Buna əsas olaraq yaxınlıqdakı "Xocalı" parkını göstərdilər. Xankişi adlı şəhər sakini narazılığını bu cür ifadə etdi:** "Gördüyünüz bu ərazidəki binalar 70-ci illərdə tikilmişdi. Möhkəmliyinə söz yox idi. Amma bir anda məhv etdilər. Guya ki, yerində park salacaqlar. Yaxınlıqda bir park var, digərinə nə ehtiyac? Bunun əvəzində yeni binalar tikib, evsiz olan insanları yerləşdirmək olmazdı? Bu xəbərə zərrə qədər inanmıram. Hansısa bir məmurun monopoliyasına çevrilən zona olacaq. İstədiyini quracaq. Əvəzində əziyyət çəkən sadə kütlə olacaq".

Ərazidə çoxlu sayda asayiş keşikçilərinin olması aparılan işlərə ayrılan diqqətdən xəbər verirdi.

Sonda onu da xatırladaq ki, park salınması ilə bağlı plana düşən əraziyə "Əmrahbank" da daxildir. Bu isə yaxın günlərdə bu binanın tamamilə uçurulması anlamına gəlir. Ətrafındakı bütün tikililərin sökülməsi və hətta ofisin divarlarının söküntü zamanı zədələnməsi "Əmrahbank"ın gələcəyinin qaranlıq olmasından xəbər verir.

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

# Girovlarla bağlı aclıq davam edir

**Qarabağ Azadlıq Təşkilatının (QAT) girovların taleyi ilə bağlı keçirdiyi aclıq aksiyası 6 gündür ki, davam edir. QAT mətbuat xidməti bildirir ki, Təcili Yardımın həkimləri 2-3 saatdan bir aclıq edənlərə baş çəkir, aksiyanın dayandırılmasını tələb edirlər.**

Onlar əgər aclıq dayandırılmasa, çox ciddi fəsadların ola biləcəyini deyirlər. Lakin hələlik aksiya davam etdirilir, gedib-gələnlər dəstəklərini bildirirlər. Fəal hərəkatçılar Asif Abdullayev, Rəsul Musayev, Şükür Məmmədov, Qarabağın tanınmış ağsaqqallarından Nizami Hacıyev, Naxçıvandan olan döyüşçü Hacı




Vidadi, I Qarabağ Müharibəsinin məşhur snayper qadınlarından Nərminə Abbasquluyeva (Məşədi Xanım) aksiya iştirakçılarına mənəvi dəstək veriblər. Asif Abdullayev bildirib ki,"sizin aksiyanızın önəmli əhəmiyyəti var, cəmiyyətdə ciddi rezonans doğurub, cəmiyyəti fəallaşdıracağına əmin ola bilərsiniz". Nərminə Abbasquliyeva aksiya iştirakçılarını ürəkdən dəstəklədiyini bildirib: "Bu, bütün azərbaycanlılar üçün şərəf məsələsidir. Çox sağ olun ki, bu təşəbbüsü etmisiniz. Siz Azərbaycan naminə həyatınıza qəsd edirsiniz. Sizə halal olsun". Nərminə xanım elə oradaca QAT-a üzv olmaq üçün ərizə yazıb. Zyarətçilərdən xeyli hissəsi də QAT-a üzv olmaq üçün müraciət edib.

QAT İdarə Heyəti 20 noyabrda aclıq aksiyasının dayandırılması və ya davam etdirilməsi ilə bağlı qərarını verəcək.

❑ **ELŞAD**

# Amerikanı kim kəşf edib?



**Azər RƏŞİDOĞLU**

**Türkiyə prezidenti Ərdoğanın Amerikanı 1492-ci ildə ispan səyyahı Xristafor Kolumb deyil, bundan 314 il əvvəl, 1178-ci ildə müsəlmanların kəşf etdiyini iddia etməsi dünya mətbuatında sarkazmla qarşılandı. Ərdoğan bəyan etdi ki, Latın Amerikası ilə müsəlmanlar arasında kontaktlar 12-ci əsrdən başlayıb. Ərdoğan iddia edir ki, X.Kolumb Kubaya qədəm qoyduğu zaman ilk nəzərinə dəyən məscid olub.**

Ərdoğanın səsləndirdiyi fikirlər yeni deyil, bu barədə Türkiyədə çoxsaylı kitablar dərc edilib. Lakin bir ölkə rəhbərinin bunu söyləməsi əks-səda doğurmaya bilməzdi.

Ərdoğanın yumoru daha çox xatırladan açıqlamasından sonra belə bir sual doğrudan da aktuallaşdı - Amerikanı kim kəşf edib? İspan alimləri bunu X.Kolumbun etdiyini iddia edirlər. X.Kolumb 12 oktyabr 1492-ci ildə San-Salvadora düşərkən, Hindistanı kəşf etdiyini düşünüb. Sonradan bəlli olub ki, ispan səyyahının kəşf etdiyi Amerika torpaqlarıdır.

Bəzi alimlər isə iddia edirlər ki, Amerikanı X.Kolumb deyil, əslində vikinqlər kəşf ediblər. X.Kolumbdan min əsr öncə Leyf Erikson Amerikanın mövcudluğunu bəyan edib. Amerikada vikinqlərin qalıqlarının tapılması bu versiyanı daha da gücləndirir.

Amerikanı vikinqlərdən əvvəl qədim misirlilərin kəşf etdiyini söyləyənlər də var. Norveç alimi Tur Hererdal 1970-ci ildə bu versiyanı sübuta yetirəcək tutarlı faktlarla çıxış etdi.

2008-ci ildə Monqolustan alimi Sumiya Zambalcorc X.Kolumbdan 25 min il öncə monqolların Amerika ərazilərinə köç etdiyini sübut etməyə çalışdı. Amerikadakı bir sıra adaların monqol dilində olmasını da alim bununla əlaqələndirdi.

Bu kimi mübahisələr tarix boyunca olub. Məsələn, "futbolu kim yaradıb" sualına birmənalı cavab yoxdur. İngilislər 12-ci əsrdə ilk futbol oyununun müəllifi olduqlarına inanırlar. Çinlilər isə hesab edirlər, futbolu onlar yaradıblar, ingilislər sadəcə olaraq, futbolun qaydalarına müəyyən düzəlişlər ediblər. Çin alimləri futbolun 3-cü əsrdə Çində yarandığını sübut edən kifayət qədər faktlara malik olduqlarını yazırlar.

Eskimoslar isə futbolun müəllifinin özləri olduqlarına inanırlar.

Bu silsilədən olan növbəti sual belə ola bilər - bəs radionu kim ixtira edib? Ruslar hesab edirlər ki, bunu Aleksandr Popov edib. Alim ilk radionu 7 may 1895-ci ildə nümayiş etdirib.

Qərbi Avropada isə radio ixtiraçısı kimi Quleymo Markonini tanıyırlar.

Amerikalıların fikrincə isə ilk radionu Nikola Tesla ixtira edib. Popov və Markoninin ixtirası isə Morze əlifbası ilə çalışan qurğu olub.

Göründüyü kimi, tarixi faktlara münasibət birmənalı deyil. Adətən, elm adamları ən müxtəlif məsələlər barədə kəskin fikir ayrılıqlarına malik olurlar. İctimai rəy də bunu normal qəbul edib. Lakin bir ölkə rəhbərinin birdən-birə Amerikanı islamlaşdırması qeyri-ciddi səslənir.

Ərdoğan kimi ciddi bir siyasətçinin bu dərəcədə primitiv texnologiyaya əl atma məcburiyyətinin bir səbəbi olmalıdır. Ya Ərdoğan kütlənin rəğbətini qazanmaq və özünü qatı islamçı kimi təqdim etmək istəyir, ya da Türkiyə prezidenti hansısa mühüm addımlar atmaq ərəfəsindədir və belə "xoruz buraxmaqla" baş verəcək proseslər zamanı manevr etmək niyyəti güdür.

İstisna deyil ki, yaxın zamanlarda Ərdoğan hakimiyyəti Vaşinqtonun yeni təzyiqləri ilə üzləşəcək. Ərdoğan iqtidarı Ağ Evin qəzəbinə çoxdan tuş olub. Ərdoğanın son bağışlanmaz səhvi milyardlarla dollar dəyərində silahların ABŞ və ya İsraildən yox, Çindən alacaqları haqda rəsmi bəyanatı oldu. Bu bəyanatı ilə Ərdoğan NATO-nun əsas prinsiplərindən birini pozmuş oldu. Bu da ABŞ-dakı hərbi sənaye kompleksini qıcıqlandırmaya bilməzdi.

Kənardan görünən budur ki, Vaşinqton Ərdoğan qarşısına aşağıdakı şərtlər qoyub: İsraillə münasibətləri təcili yoluna qoyub, Çindən silah almaqdan imtina etsin, Şanxay Təhlükəsizlik Təşkilatı ilə yaxınlaşmağa son qoysun və bütün cəbhələr boyunca atəş açdığı Fətullah Güləndən üzr istəsin. Görünür, Ərdoğan "Amerika kəşfi" ilə ictimai rəyi öncədən özünə tərəf çəkməyə səy göstərib...



# Qaranlıqlar yarılsaydı...

Hüseynbala SƏLİMOV

**Hətta ən nikbin adamlar da Azərbaycandakı siyasi vəziyyətdən danışanda məyusluğunu gizlədə bilmir. İlk baxışda hər şey öz qaydasındadır-qərargahlar olmasa da, partiyalar var, böyük satış problemləri yaşasalar da qəzetlər güc-bəla ilə nəşr olunmaqda davam edir, hətta qarşıdan gələn bələdiyyə seçkiləri ilə maraqlananlar da tapılır...**

Amma baxıb görürsən ki, bu kədərli fon belə nə vaxtsa qənaətbəxş görünə bilərdi. İndi isə o, daha çox narahatlıq və təlaş predmetidir. Ona görə ki, tənəzzül tükənmir, müxalifət partiyalarının onsuz da seyrək sıraları bir az da seyrəlməkdə davam edir.

İlk baxışda qeyri-adi heç nə baş verməyib. Aparıcı müxalifət partiyalarından birində - Müsavatda sədr dəyişikliyi baş verib.

Seçki, etiraf etmək lazımdır ki, tam alternativ qaydada keçmişdi, əsas rəqiblər də onu cüzi səs fərqi ilə başa vurmuşdular...

Amma ehtiraslar səngimir. Elə bir gün olmur ki, bu partiyadan istefalar haqqında xəbərlər yayılmasın - insanlar bir-birinin ardınca yeni sədri legitim hesab etmir, bəzisi özü partiyanı tərk edir, bəzilərini də lap keçmişdə olduğu kimi, "kommunizm qurucusunun əxlaq kodeksinə yaraşmayan davranış"ına görə təşkilatdan xaric edirlər...

Əslində partiyadan istefalar əvvəldən də gözlənirdi. Əgər sədr Arif Hacılı deyil, Qubad İbadoğlu seçilsəydi belə istefalar olacaqdı. Məsələ bundadır ki, indiki formatda və biçimdə partiya İsa Qəmbər üçün nəzərdə tutulmuşdu və bütün mənalarda onun partiyası idi...

Həm də insanların bir qismi daha müxalifətdə qalmağın perspektivini görmür, digər qismi isə öz qarşısında siyasi örnək hiss etmir...

Amma ən kədərlisi bilirsiniz nədir? Bütün bu proseslərdə bir işıq, zəif də olsa, bir işıq görüntüsü yoxdur. Bəyanatlar sönük və maraqsız, iradlar arxaik, bəhanələr isə primitiv təsir bağışlayır...

Heç kim yeni proqram təklif etmir, yeni ideya səsləndirmir, heç kim bir təşəbbüsdə bulunmur. Hamı da "mübarizə" apardığını deyir. Nədir həmin bu mübarizə, nədən ibarətdir o, bunu heç kim izah etməyə təşəbbüs göstərmir.

Dərindən baxanda bu illər ərzində Azərbaycanın siyasi palitrası çox yeknəsəq olub. Digər əski sovet ölkələrində siyasi konfiqurasiya çox dəyişib. İndi Azərbaycanın müxalifət düşərgəsində mübarizə aparanlar Z.Qamsaxurdianın, V.Landsberqisin siyasi yaşıdları hesab edilə bilərlər.

Gürcüstanda və ya Litvada bu illər ərzində o qədər dəyişiklik olub ki, bu adları artıq heç xatırlamırlar da ...

Niyə belə olub? Məsələ bundadır ki, Azərbaycanda nə hakimiyyət, nə də ki, müxalifət siyasi konfiqurasiyanın dəyişməsində maraqlı olmayıb - nə hakim partiyanın, nə də müxalifətin funksionerləri öz mövqelərini əldən verməyib, lap açığı, partiyadaxili statik mühiti stimullaşdırıblar... Halbuki aradan 25 ilə yaxın vaxt keçib. Adam inana da bilmir, təəccüb edir ki, doğrudanmı, bu adamların hələ də deyilməmiş sözləri qalıb?..

Ona görə də "Bu düşərgə siyasətdən getsə nə olacaq?" soruşulanda heç nə demək istəmirsən və yaxud da çox istəyirsən deyəsən ki, nə vardısa, elə o da olacaq...

Amma bir gün hamı getməlidi. İsa Qəmbər də nə vaxtsa getməli idi, digər partiya liderləri də, hətta bu sətirlərin müəllifi də... Çünki bu, həyatdır. Onun ən azı bir qocalıq adlı sonluğu var...

Sadəcə, bu aspektdən yanaşanda iki cür adam olur. Biri özündən sonra heç kimin olmamasını istəyir, digəri isə arzu edir ki, özündən sonra yeni adamlar gəlsin, həyat davam etsin. Əgər astronomik və bioloji amilləri bir tərəfə qoysaq, ən azı bir insan həyatı ilə müqayisədə əbədi olan elə həyatın özüdür...

Etiraf etmək lazımdır ki, bu son qurultay Müsavata yenilik gətirmədi. Həm partiyanı tərk edənlər, həm də hələ gözləyənlərin bir qismi bu fikirdədir. Arif Hacılının siyasətdə sözünü demək üçün kifayət qədər vaxtı olmuşdu... Hamı onun siyasi potensialını da bilir, üslubunu da...

Ona görə də bu gün İsa Qəmbərin öz kabinetində oturması təkcə simvolik və şərti məna kəsb etmir. Bu, hardasa o deməkdir ki, bu partiya indi də İsa Qəmbərin və Arif Hacılının partiyasıdır. Əvvəllər belə deyildimi? Məsələ də elə bundadır ki, əvvəllər də belə idi...

Amma insanlar bir-bir, iki-iki partiyadan gedirlər. Bəlkə də onlar da bu sönük siyasi həyata son demək üçün fürsət gözləyirdi?..

İnsan həmişə işıq gələn tərəfə gedir. Müxalifət partiyalarının işığı isə hələ 1993-cü ildə sönüb. Daha doğrusu, özləri söndürüblər...

# Bakının mərkəzində MADO mərəkəsi

**Türkiyənin ünlü kafe brendlərindən olan MADO-nun Azərbaycan filialının yenidən gündəmə gəlməsi rəsmi Ankaranın Bakıdan Fətullah Gülən camaatının Azərbaycandakı qolunun tamamilə zərərsizləşdirilməsi tələblərinə görədir. Bu məlumatı qəzetimizə verən mənbənin iddialarına görə, MADO-Azərbaycanın qeyri-rəsmi sahibi "İrəli" Gənclər Hərəkatının sabiq sədri, adı "Azərbaycan nurçuları" siyahısında öndə olan deputat Ceyhun Osmanovdur. İnformasiyalı qaynaq "Yeni Müsavat"a açıqlamasında bir neçə gündür MADO-Azərbaycan ətrafında qalmaqal yaradılmasını bu cür izah edib.**

## Restoranında erməni mahnısı səslənən Azərbaycan deputatını cəzalandırırlar

Türkiyənin qida sektorunun ünlü brendinin Azərbaycan şəbəkəsi "nurçu" deputat Ceyhun Osmanlıdan alınır; onun Bakıdakı restoranında Sərkisyan oxuyurmuş; Ankara Bakıdan "camaat" biznesinə son verilməsini tələb edib...

Hər şey MADO-nun Bakıdakı Rus Dram Teatrının qonşuluğunda yerləşən filialında erməni əsilli ABŞ musiqiçisinin ifasının səsləndirilməsindən sonra başlayıb. Olayın şahidi olan ölkə.az saytının əməkdaşı baş verənlər haqqında xəbər yazıb. Xəbərdə bildirilir ki, filial rəhbərliyi öncə müştərilərin Şer Sərkisyan adlı ABŞ müğənnisinin ifasına etirazlarına məhəl qoymayıb. Ancaq MADO-çular etirazların artdığını görüb "valı dəyişiblər".

Xəbəri bir neçə sayt təkrar yayıb. Ertəsi gün isə daha bir neçə tirajlı sayt məsələ ilə bağlı araşdırma təqdim edib. Yazılarda əsasən Şer Sərkisyanın erməni əsilli olması, qazandığı milyonlardan erməni lobbisinə səxavətlə pul ayırması, Türkiyə əleyhinə kampaniyaları maliyyələşdirməsi, eləcə də işğal edilən Azərbaycan torpaqlarında həyata keçirilən bir neçə layihənin sponsoru olması ilə bağlı faktlar yer alıb. Təbii, bütün yazılarda MADO türk dünyasına düşmən münasibətdə olan bir müğənninin musiqisini səsləndirdiyi üçün qınanıb.

Xəbəri "Yeni Müsavat"a verən qaynaq bildirir ki, MADO-nun "Gülən camaatı"nın əlində olması çoxdan bəllidir. Şirkətin Azərbaycanda filial yaratması, Bakının ən prestijli 4 məkanında, üstəlik, Qəbələ və Şəmkirdə fəaliyyətə başlaması rəsmi Ankara ilə Fətullah Gülən camaatı arasında münasibətlərin sıcaq olduğu dönəmə təsadüf edir. Problem 17-25 dekabr əməliyyatından sonra başlayıb.

AKP iqtidarına qarşı Gülən hərəkatının düzənlədiyi iddia olunan 17 dekabr Böyük Rüşvət Əməliyyatından sonra o zamankı baş nazir Rəcəb Tayyib Ərdoğan yalnız Türkiyədə deyil, nurçu cameənin çalışdığı digər ölkələrdə də Gülən şəbəkəsini sıradan çıxarmağı hədəf seçib. Ərdoğanın bu məsələ ilə bağlı rəsmi Bakı ilə də danışıqlar apardığı, hətta Bakıya xüsusi dosyalar göndərdiyi haqqında həm Türkiyə, həm Azərbaycan mediasında çoxsaylı yazılar dərc edilib. Azərbaycanda "Gülən məktəbləri"nin bağlanması, "nurçu" cameəyə rəhbərlik edən şəxslərin, o sıradan Prezident Administrasiyasının şöbə müdiri Elnur Aslanovun "vurulması" da bununla izah edilir. R.T.Ərdoğan prezident seçiləndən sonra isə "paralel yapı" ilə mübarizə daha da güclənib. Ankara illərdir hüquq-mühafizə orqanlarında kök salan "camaat"çıları həbs etməklə yanaşı, onların əsas maliyyə qaynaqlarını kəsmək üçün genişmiqyaslı əməliyyat başladıb. Türkiyə mediası yazır ki, bu məsələdə qərarlı olan rəsmi Ankara məsələni bir neçə ölkənin lideri ilə müzakirə edib. Bu sırada İlham Əliyevlə yanaşı Rusiya prezidenti Vladimir Putinin də adı çəkilir.

Qaynaq MADO-nun Bakının mərkəzindəki filialında erməni musiqiçinin ifasının səsləndirilməsinin təxribat olacağı versiyasını da istisna etmir. Məqsəd diqqəti MADO-ya çəkmək, Azərbaycan iqtidarına Ərdoğana verilən sözü xatırlatmaq ola bilər. Bu versiyaya inansaq, yaxında MADO-Azərbaycanın "əl dəyişdirəcəyi"ni də gözləmək olar.

Ceyhun Osmanlıya gəlincə, onun adı "nurçular" siyahısında hallanandan az sonra Göyçay Rayon İcra Hakimiyyətində şöbə müdiri işləyən atası Yunis Osmanovun işdən çıxarılması xəbəri yayıldı. Sonradan xəbər təkzib edildi - qısa sürən qeyri-müəyyənlikdən sonra Yunis Osmanov vəzifəsində qala bildi. Həmin dönəmdə Azərbaycan mediasında Ceyhun Osmanlının Milli Məclis üzvlüyünə seçilməsi üçün camaatın 100 min dollar ayırması xəbəri də yayılmışdı. İddiaları aqressiv qarşılayan Ceyhun Osmanlı bu haqda xəbər yayan media quruluşlarını məhkəmə ilə hədələmişdi.

MADO-nun adı Maraş dondurmasından götürülüb. Şirkət sahibləri Türkiyənin ən ünlü dondurmasına aid ifadədəki sözlərin hər birindən ilk iki hərfi alıb brendə çevirə biliblər. MADO uzun illərdir Türkiyənin qida sektorunun öncüllərindəndir. Həm keyfiyyət, həm xidmət səviyyəsinə görə şirkət müştəri məmnuniyyəti qazanıb. Azərbaycanda da "MADOpərəstlər" az deyil. Şirkətin devizi "gerçək ləzzətlər"dir. MADO gerçəyinin kimə ləzzət verəcəyi, kimi donduracağı isə önümüzdəki günlərdə üzə çıxacaq.

❑ Aygün MURADXANLI





# MADO-dan erməni mahnısına reaksiya

## Restoranın administratoru Fəzail Ağamalıya mesaj göndərdi: "Sözü varsa, gəlib özümüzə desin"

**Türkiyənin tanınan restoran və qida sənayesi brendi MADO-nun Bakıdakı filiallarından birində erməni musiqisinin səslənməsinə deputat Fəzail Ağamalı mətbuatda reaksiya verib. Deputat deyib ki, bu olaydan sonra restoran boykot edilməlidir. Onun sözlərinə görə, paytaxtın mərkəzində Azərbaycanın 20 faiz torpaqlarını işğal edən, Xocalı soyqırımını törədən dövlətin mahnısını oxutmaq erməni olmaqdan belə pisdir: "Bu cür restoran boykot edilməlidir. Oranın sahibləri isə unutmamalıdırlar ki, onlar Azərbaycanda fəaliyyət göstərirlər və bu cür davranışla ciddi sanksiyalarla üzləşə bilərlər".**

"Yeni Müsavat"ın əməkdaşı adıçəkilən restoranda olub, baş verən qalmaqala və ona verilən reaksiyalara MADO rəhbərliyinin münasibətini öyrənib. Özünü restoranın administratoru kimi təqdim edən şəxsin sözlərinə görə, *(əməkdaşımıza ad-soyadını bildirməyib-red.)* deputat Fəzail Ağamalının dediklərindən xəbərsizdirlər: "Niyə bunu bizə bildirmir, yalnız mətbuat vasitəsilə söz göndərir? Doğrudur, belə bir hal olmuşdu və bizə müraciət edilən kimi mahnını dəyişdik. Mahnının səslənməsində heç bir qəsdimiz olmayıb. Məsələnin bu səviyyədə şişirdilməsinə, fikrimcə, ehtiyac yoxdur".

Qeyd edək ki, MADO-da erməni müğənnisi Şerlin Sarkisyanın "Believe" mahnısı səslənmişdi. Mahnı həmin zaman restoranda olan şəxslərin etirazına səbəb olaraq dayandırılmışdı.

❑ XALİDƏ

# Növbəti il kreditlərin faiz dərəcələri azaldıla bilər



**Milli Məclisdə 2015-ci ilin büdcə müzakirələri davam edir. Noyabrın 18-də növbəti ilin büdcə zərfinin plenar müzakirəsinə başlanıb. Deputat Zahid Orucun kredit faizlərinin yüksək olması məsələsi ətrafında fikirləri diskussiyalara yol açıb: “Bu gün Azərbaycanın xarici borcu 5 milyard manatdır və bu faiz ölçüsündə ÜDM-in 8.5 faizini təşkil edir.**

Hətta ən varlı dövlətlər də əlverişli kredit siyasətindən faydalanır. Ölkəmizin bu siyasəti iqtisadi cəhətdən əsaslandırılıb və konkret məqsədlərə xidmət etdiyindən hamı tərəfindən qəbul olunur. Bir də ki, 53 milyard dollarlıq maliyyə rezervinə malik olan ölkə istənilən anda borc öhdəliyini tam qapada bilər. Lakin vətəndaşlarımızın kredit yükü haqqında bunları söyləmək mümkün deyil. Dəqiq məlumatlara görə 2.5 milyon vətəndaşın 1 milyard manatdan artıq kredit borcu var və hər il onlar tərəfindən təxminən 860 milyon manata yaxın faiz ödənilir. Belə ağır yük və biznesin yüksək gəlir gətirmədiyi şəraitdə kreditlər əsil ”ölüm verdikti"nə çevrilir".

Z. Oruc onu da bildirib ki, insanların evlərini dağıdan, ailələri kütləvi olaraq məhkəmə qarşısında qoyan və müflis edən 30-35 faizlik kredit siyasəti dəyişərsə, bu, hamının xeyrinə olacaq. Çünki var-yoxdan çıxan ailələr, yaxud iflasa uğrayan biznes planlar son nəticədə dövlətin yükünə çevrilir. Hökumət banklarla müqayisədə vətəndaşların yanında olmalıdır".

**Zahid Orucun fikrinə münasibət bildirən iqtisadçı ekspert Azər Mehtiyev də təsdiqlədi ki, bu məsələ bir neçə ildir ki, müzakirə olunur:** “Bununla bağlı dövlət başçısının sərəncamı da var ki, kredit faizlərinin aşağı salınmasının yolları araşdırılsın. Hazırda Azərbaycanda kreditlərin faiz dərəcələri, həm istehlak kreditləri üzrə, həm də biznes kreditləri üzrə çox yüksəkdir. Ölkə üzrə kreditlərin 40 faizi istehlak kreditlərinə, 20 faizə qədəri isə ticarət kreditlərinə aiddir. Bu isə kreditlərin 60%-nin cari istehlak kreditinə yönəldilməsi deməkdir. Bir çox hallarda istehlak kreditlərinin faizi 25-30 dərəcə arasında olur. Bu cür faizlər ölkədə biznes kreditlərini əldə etmə imkanlarını da məhdudlaşdırır. Bunun nəticəsində iş qurmaq istəyən insanlar uzunmüddətli kreditlər əldə edə bilmirlər. Bütövlükdə kreditlərin faiz dərəcələrinin yüksək olması ölkədə biznes mühitinin inkişafına da mənfi təsir edir. Bu səbəbdən Azərbaycanda yerli istehsal olan məhsulların həcmi azalır, xaricdən idxalın həcmi artır. Bunun qarşısını almaq üçün ölkədə aşağı faiz dərəcəsi olan uzunmüddətli kreditlərin verilməsini təmin etmək lazımdır”.



**Pənah Hüseyn:** “Azərbaycanda aparılan iqtisadi siyasət büdcəyə elə də sərt şəkildə bağlı deyil”



**Azər Mehtiyev:** “Kreditlərin faiz dərəcələrinin yüksək olması ölkədə biznes mühitinin inkişafına mənfi təsir edir”

**Büdcə müzakirələrinə münasibət bildirən Pənah Hüseyn bildirdi ki, növbəti ilin büdcə zərfi ilə ümumi tanışlığı olsa da, ayrı-ayrı sahələrə ayrılan vəsaitlərin həcmi ilə bağlı detallarla maraqlanmayıb:** “Hazırda Azərbaycanda aparılan iqtisadi siyasət elədir ki, büdcəyə elə də sərt şəkildə bağlı deyil. Büdcədə ənənəvi olaraq sosial sahələrə ayrılan xərclər, təqaüdlər, əmək haqları, eləcə də kənd təsərrüfatına ayrılan vəsait normal iqtisadiyyata malik ölkələrdə bu cür tənzimlənmir. Bizdə bir qayda olaraq investisiya xərcləri və tikintiyə ayrılan xərclər üstünlük təşkil edir. Bu baxımdan biz inkişaf müşahidə etmirik. Əhalinin gəlirlərinin və büdcə təşkilatlarında çalışan işçilərin əmək haqlarının kölgə iqtisadiyyatına uyğun olaraq mövcudluğu bu məsələlərdə büdcənin əhəmiyyətini ciddi şəkildə aşağı salır. Əhalinin böyük bir hissəsi, xüsusən təqaüdçülərə, uşaqlara ayrılan vəsait bu kəsimin həyat səviyyəsinin aşağı düşməsinə gətirib çıxarır. Prinsip etibarilə bu, əsaslı iqtisadi islahatlar tələb edir. Yalnız o halda büdcə tənzimlənməsi iqtisadi proseslərə təsir edə bilər”.

**Pənah Hüseyn hərbi xərclərin artırılmasını da ciddi bir fakt hesab etdiyini bildirdi:** “Torpaqlarımızın işğal altında olmasının nəzərə alaraq mən bunu doğru bir addım hesab edirəm. Ancaq xüsusi diqqət əhalinin sosial durumunun yüksəlməsinə ayrılmalıdır. Həmçinin elm, təhsil və kənd təsərrüfatı sahəsinə ayrılan vəsait artırılmalıdır və bu, planlı şəkildə, xüsusi proqramlar ortaya qoyaraq əsaslandırılmalıdır”.

❑ **Nərgiz LİFTİYEVA**

# 4 müxalif partiya Əli Həsənovla görüş üçün rəsmi müraciət göndərib

## Sərdar Cəlaloğlu: “Azərbaycanda siyasi inkişafın ölü nöqtəsindən tərpənməsi üçün bu təmas bir başlanğıc ola bilər”

**Noyabrın 12-də KXCP qərargahında Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinə daxil olan KXCP, ADP, ALDP və AXP-nin sədrləri ölkədəki ictimai-siyasi vəziyyəti müzakirə etmək məqsədilə Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovla görüş üçün rəsmi məktub göndəriblər. Bu barədə ADP sədri Sərdar Cəlaloğlu “Yeni Müsavat”a açıqlamasında məlumat verib.**



**S.Cəlaloğlunun** dediyinə görə, dialoq məsələsinin müzakirəsi zamanı öncə o, dövlət başçısı ilə görüş üçün müraciət etməyi təklif eləyibmiş: “Təklif etmişdim ki, dövlət başçısı ilə proseslərin hara getdiyi, ölkənin vəziyyətini müzakirə etmək üçün müraciət etmək lazımdır. Həmkarlarımın bəziləri isə dedilər ki, öncə Əli Həsənovla görüşək. Bunun üçün müraciət edək. Mən də etiraz eləmədim və müraciəti etdik”.

**ADP sədri bildirdi ki, ola bilər Əli Həsənovla görüşdən sonra proses inkişaf edər və bəlkə iqtidar özü daha yüksək səviyyədə görüşü reallaşdırar. Belə olsa, Azərbaycan tarixində Əbülfəz Elçibəydən sonra ilk belə addım atılmış olar:** “Əbülfəz Elçibəy prezidentliyinin 5 ayında ölkədəki bütün siyasi partiya liderləri görüşmüşdü. Həmin görüşdə o dövrdə hakimiyyətə qarşı müxalifətdə olan Yeni Azərbaycan Partiyasının təmsilçiləri Əli Nağıyev və Samur Novruzov da iştirak etmişdi. Azərbaycanda belə bir ənənənin davam etdirilməsinə zərurət var”.

**Əli Həsənovla görüşdən gözləntiyə gəlincə, S.Cəlaloğlu dedi ki, bir dənə görüşdən inqilabi dəyişikliklər gözləməməliyik. Sadəcə olaraq, bu görüş ölkədə yeni dialoq mühitinin başlanğıcı ola bilər:** “Azərbaycanda siyasi inkişafın ölü nöqtəsindən tərpənməsi üçün bu görüş bir başlanğıc ola bilər. Bu görüşdən tərəflər siyasi dialoqun şərtlərinə düzgün əməl eləsələr, bu, bütünlükdə bir prosesə çevrilər, gələcəkdə prosesə digər partiyalar da qoşular, lap prezidentin özünün qatılması istisna edilməməlidir. Bu isə Azərbaycanda demokratiyaya qansız, qadasız, tədrici keçidin əsasını qoya bilər. Təcrübə göstərir ki, o ölkələrdə ki, demokratiyaya zərurət olduğu halda tədrici keçid yoxdur, həmin ölkələrdə qanlı-qadalı proseslər baş verir. Bu isə həmin ölkələri sarsıdır, xalqı, dövləti böyük zərbələr altında qoyur. Bu baxımdan biz gərək praktikanı nəzərə alaq, Azərbaycanın geopolitik durumunu, düşmənlərimizin çoxluğunu nəzərə alıb içdə elə bir siyasət aparaq ki, bu siyasət islahatlara, müsbət dəyişikliklərə gətirib çıxarsın. Bunun üçün isə siyasi dialoqdan başqa yol yoxdur”.

**ADP sədri onu da vurğuladı ki, indiyə qədər klassik mənada siyasi dialoq aparılmayıb. Adətən siyasi dialoq hesab edilən proseslərdə ya iqtidar müxalifəti, ya müxalifət iqtidarı məğlub etmək məqsədi güdüb:** “Əslində isə siyasi dialoqun mahiyyəti ondan ibarətdir ki, burada hər iki tərəf qalib olsun, yəni hər iki tərəf özünün öncül olan marağını təmin eləsin. Hər iki tərəf qalib olanda isə ölkə qazanır. Nəzərdə tutduğumuz dialoqda da əgər klassik dialoqun tələblərinə əməl olunmayacaqsa, əvvəla, bu dialoq bir dəfə olacaq və bununla da qurtaracaq, ikincisi, xalq tərəfindən dəstəklənməyəcək. Bir demokratik prosedur yenə də xalqın gözündən düşəcək”.

**Müxalifət partiyalarının sədrlərinin görüş üçün müraciətinə böyük ehtimalla müsbət cavab veriləcək. Əli Həsənovun görüş məsələsi ortaya çıxan gün “Yeni Müsavat”a açıqlamasında səsləndirdiyi fikirlər bunu deməyə əsas verir. Hakimiyyət rəsmisi təşəbbüsə hörmətlə yanaşdıqlarını bildirmişdi:** “Hakimiyyətlə siyasi partiyalar, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələri arasında dialoq demokratik inkişafın zəruri şərtlərindən biridir və vətəndaş cəmiyyətinin daha da dərinləşməsinə xidmət edir. Azərbaycan hakimiyyəti ölkədə fəaliyyət göstərən bütün ictimai-siyasi təşkilatlarla dialoqa və əməkdaşlığa həmişə hazırdır. Azərbaycanın ictimai-siyasi həyatında iştirak etməyin siyasi və hüquqi normaları, seçkilər, sağlam siyasi rəqabət, insan hüquq və azadlıqlarının təmin edilməsi və digər məsələlərə dair səmərəli müzakirələr aparıla bilər. Hesab edirik ki, bu sahədə kifayət qədər təcrübə də toplanmışdır. Ayrı-ayrı vaxtlarda ictimai-siyasi qurumların, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri ilə görüşlər keçirilmiş, fikir mübadiləsi aparılmış və irəli sürülən dəyərli rəy və təkliflər nəzərə alınmışdır. Buna görə də bir sıra siyasi partiya rəhbərlərinin ictimai-siyasi vəziyyəti müzakirə etmək təşəbbüsünə hörmətlə yanaşırıq. Dialoqla bağlı konkret təkliflər olarsa, onları nəzərdən keçirməyə hazırıq”.

❑ **Etibar SEYİDAĞA**

# Nazirlik yoxlamalara başladı - özəl klinikalar hədəfdə

**Səhiyyə Nazirliyi özəl klinikalarda yoxlamalara başlayıb. Bu barədə azvision.az-a Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Qədirli məlumat verib.**

O qeyd edib ki, bu yoxlamalar nazirlik tərəfindən mütəmadi olaraq aparılır:

“Yoxlamalar nazirliyin əsas vəzifələrindən biridir. Elə gün yoxdur ki, klinikalar yoxlanılmasın. Yoxlamalar zamanı kliniklarda qanunsuzluqlar akşar edilərsə tərəfimizdən müxtəlif tədbirlər görülür. Bura administrativ və lisenziyanın saxlanması tədbirləri daxildir. Rayonlarda da fəaliyyət göstərən xəstəxanalarda Səhiyyə Nazirliyi tərəfindən yoxlamalar aparılır”.

YENİ MÜSAVAT
N 284 (5993) 20 noyabr 2014



# "Kalaşnikov"un uzunluğu dövlət sirrimizdir

Zamin HACI
zaminhaci@gmail.com

**Bələdiyyələr səlahiyyətsiz, hüquqsuz, sözün əsl mənasında mənasız bir quruma çevrilib. O qədər mənasızdır ki, Bakıətrafı qəsəbələrdən birinin eşşək boyda bələdiyyəsi "ötən 5 ildə görülən işlər" qrafasına "qəsəbədə 4 darvaza rəngləmişik" cavabını yazıb. Heç bir ilə bir darvaza da düşmür.**

Yapistlər bunu, necə deyərlər, məqsədyönlü şəkildə ediblər. Çünki bələdiyyə cəmiyyətin özünü idarə etməsinin təməlidir, dövlətin funksiyalarının azalması, vətəndaş azadlıqlarının və hüquqlarının artması deməkdir. Azadlığı artan, özü-özünü gül kimi idarə eləyən adamlar sabah sənin polis dəyənəyindən, icra hakimi qalstukundan qorxmayacaqlar, rüşvətxorluqla, oğurluqla barışmayacaqlar.

Bu, məsələnin izahatıdır. Ancaq ortada maraqlı mənzərə var: əsasən rayonlardan gələn xəbərlərə görə yapistlər camaatın, müxalifətin bələdiyyə seçkilərində iştirakına mane olur, saxtakarlıq edirlər. Namizədliyini vermək istəyənlərə polis təzyiqi varmış, adamların sənədlərini qəbul eləmirlər, bəzi yerlərdə rüşvət alırlar və sairə.

Əgər bələdiyyə uyuq, müqəvva bir durumuna salınıbsa, hətta uyuqdan da qorxan hakimiyyətə gülməyəsən neyləyəsən? Görün bunlar necə miskindirlər. Bostan müqəvvasından çəkinirlər. Elə bil hansısa müxalifətçi Əhməd bəy bələdiyyə üzvlüyünə namizəd olsa, sonra təsadüfən seçilsə (çünki seçkinin sonrakı mərhələsi tam saxtakarlıq şəraitində olur və Məzahir müəllimin aşsüzənindən bir yapizmə yad düyünün keçib qazana düşməsi qeyri-mümkündür) rejim çökəcəkdir. Bu qədər qorxaq yaşamaq olmaz. Neft pullarının cah-cəlalı adamın burnundan gələr, vallah. Bir az sərbəst olun, yoldaşlar. Şeyxə deyin qorxu duası yazsın, pencəyinizin çibinə tikin.

Qorxudan söz düşmüşkən... Müdafiə Nazirliyi "Dövlət sirrinin mühafizəsi üzrə vacib məlumatlar" adlı broşür hazırlayıb. Əslində sivil dünyada dövlət sirri anlayışını çoxdan çözüblər və belə sirləri yaymağa görə ancaq onu qoruyanlar məsuliyyət daşıyır. Sadə insan yaymamağa məsul olmadığı sirri kefi istədiyi qədər yaya bilər, onu tutmaq da olmaz. Ancaq Azərbaycanda yaşayırıq, o üzdən repressiv rejimin gerçəkliklərini qəbul eləməyə məcburuq. MN-in broşürü isə hətta Azərbaycan şərtlərində də gülüncdür. Buyurun, sitat: "Silah və hərbi texnika nümunələrinin taktiki-texniki xarakteristikaları və döyüşdə tətbiqi imkanları, hərbi təyinatlı yeni növ maddələrin xüsusiyyətləri və texnologiyaları haqqında məlumatları yaymaq qadağandır". Zakir müəllimin məntiqi ilə, indi mən burda "Kalaşnikov" avtomatının 800 metrlikdəki hədəfi dəqiq vurduğunu yazsam dövlət sirri açıram. Yaxud, elə ən son vertolyot olayında əsgərlərimizin "İqla" raketindən yararlandığı bilindi, bu raketin bütün texniki-taktiki göstəriciləri isə internetdə zibil kimi doludur.

Şanlı generallarımızın qanlı, qorxunc, jurnalistlərə lələk saldıran broşüründə tam absurd qadağalara da rast gəlinir. Misal üçün, bunu oxuyun, görün bir şey anlaya bilirsinizmi: "Dövlət sirri haqqında" Qanuna əsasən, dövlət sirri olan məlumatların əhatə dairəsinə daxil olmayan, lakin xarici ölkələrin xüsusi xidmət orqanlarının mülahizələrinə görə Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə istifadə oluna bilən məlumatların da kütləvi informasiya vasitələrində və internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə yayılması yolverilməzdir və qanunla qadağandır".

Belə çıxır ki, faktiki heç nə yaza bilmərik, çünki sabah düşmən həmin yazıdakı faktlardan yararlanıb respublikamızı sarsıdar. Yəni Mamed yazmamışdan qabaq nəzərə almalıdır ki, Vartan iki ay sonra bu yazını götürüb Əhmədi yıxacaq. "Xarici dövlətlərin xüsusi xidmət orqanlarının mülahizələrini" biz qabaqcadan necə öyrənməliyik, bunu da bizə izah eləsinlər.

Elə bu cür broşür yazdığınıza görə heç kim sizi eşitmir, dövlət sirlərimiz də bələdiyyə seçkilərinin gününə düşür.



# Ermənistan pilotların cəsədlərini, Azərbaycan isə girovların qaytarılmasını istəyir

## **Firudin Sadıqov:** "Ermənilər Anjey Kaspşikə yalvarırlar, lakin onun elə səlahiyyəti yoxdur; Azərbaycan lazım bilsə, ölmüş erməni pilotlarının meyitinin götürülməsinə icazə verəcək"

**Erməni tərəfi Qarabağ təmas xəttində ATƏT missiyasının növbəti monitorinqi zamanı monitorinq qrupunun ötən həftə vurulan erməni helikopterinin düşdüyü əraziyə baş çəkib, həlak olduqları ehtimal olunan pilotların cəsədlərinin qaytarılması məsələsini müzakirə edəcəyinə ümid edirdi. Daha əvvəl ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Ancey Kasprşiklə Dağlıq Qarabağda görüş zamanı erməni rəsmiləri ərazinin Azərbaycan tərəfindən atəşə tutulduğundan şikayətlənib və cəsədləri qaytarmaq işində yardımçı olmaq xahişi ilə ona müraciət ediblər.**

Noyabrın 18-də ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq Ağdam rayonunun Mərzili kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinq keçirilib.

Monitorinqin insidentsiz keçdiyi bildirilir. Lakin monitorinq qrupunun helikopterin düşdüyü əraziyə baş çəkdiyi barədə məlumat verilmir.

Həmin gün Ermənistanın müdafiə naziri Seyran Ohanyan ABŞ-ın Ermənistandakı səfiri John Heffernlə görüşüb, "Dağlıq Qarabağ Hərbi Hava Qüvvələri vertolyotunun ekipaj üzvlərinin taleyinin müəyyən edilməsi və cəsədlərinin qaytarılması üzrə beynəlxalq səylərin koordinasiyası üzrə mümkün addımları" müzakirə edib, nazirliyin mətbuat xidməti bildirir.

Erməni tərəfinin təyyarəçilərin meyitlərinin qaytarılması məsələsi ilə bağlı müxtəlif beynəlxalq qurumlara müraciət etməsi heç bir nəticə vermir. Hələlik Azərbaycan tərəfi hadisə yerinə yaxınlaşmağa imkan vermir.

"Ermənilər Anjey Kaspşikə yalvarırlar, lakin onun elə səlahiyyəti yoxdur. Azərbaycan lazım bilsə, helikopterin vurulması nəticəsində ölmüş erməni pilotların meyitinin götürülməsinə icazə verəcək", - APA-nın məlumatına görə, bunu "Ermənistan-Azərbaycan , Dağlıq Qarabağ münaqişəsi: Dünya həqiqətləri bilməlidir" mövzusunda keçirilən tədbirdə çıxış edən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupunun rəhbəri Firudin Sadıqov deyib.

Ermənilərə məxsus helikopterin vurulması barədə danışan İşçi Qrup rəhbəri, qeyd edib ki, həmin helikopter Azərbaycan ərazisində vurulub və "meyitlər orada qalıb və heç bir tərəfdən götürmək mümkün olmayıb".

### "Onlara diversant demək olmaz"

Firudin Sadıqov Dağlıq Qarabağda girov saxlanılan Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı vəziyyətə toxunub və erməni tərəfin məlumatına görə, "silahlı müqavimət göstərərkən" öldürülmüş Həsən Həsənovu xatırladıb.

"Bir adam analiz eləmir ki, axı bunlar nə etmişdilər? Onlardan biri də Həsən idi ki, onu öldürüblər və meyitini uzun müddət saxladılar. Bütün beynəlxalq təşkilatlar təəccüblənirdilər ki, ermənilər niyə belə edirlər?" - o deyib.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupunun rəhbəri Firudin Sadıqov bəyan edib ki, helikopterin vurulması nəticəsində ölmüş erməni pilotların meyitinin götürülməsinə yalnız Azərbaycan icazə verə bilər

Sadıqov erməni tərəfin ölən şəxsin şəxsiyyət vəsiqəsi, hansı məktəbdə oxuması, harada işləməsi barədə məlumatlar tələb etdiyini söyləyib.

"Ermənilər Şahbazla Dilqəmin 17 yaşlı uşağı öldürdüklərini iddia edirlər. Guya həmin uşağın meyitini sonra uzaq bir məsafəyə aparıblar. Axı dağlıq bir ərazidə, texnika olmayan bir yerdə meyiti necə daşımaq olar? Əgər onlar ermənilərin dediyi kimi diversant olsaydılar hansısa hərbi hissənin şəklini çəkərdilər, nəsə dəlil olardı", - cənab Sadıqov bəyan edib (BBC).

# "Azərbaycan Ermənistandan qisas alır..."

## Vaxtilə milli qəhrəmanımızın mübarək cəsədi ilə alver eləmiş düşmən indi də öz zabit-pilotlarının cəsədlərinin çöllərdə qalmasına özünəməxsus rəng verməkdədir; bəs əsl qisas və revanş anı başlasa...





**Ermənistanda 17 ildir hakimiyyəti zəbt eləmiş "Qarabağ klanı" 12 noyabr vertolyot insidenti ilə gözləmədiyi şəkildə qəfil bir zərbə aldı. Zərbənin təsirini İrəvan rəsmilərinin, o sırada Xarici İşlər və Müdafiə nazirlikləri yetkililərinin açıqlamalarından aydınca görmək olar.**

Gerçək budur ki, düşmən bərk pərt olub. Fərq eləməz, helikopter təxribatına özbaşına gedib, yoxsa Kremlin təhriki ilə. İrəvanın təlaşını anlamaq isə çətin deyil. Hərbi helikopterin vurulması ilə Azərbaycan təcavüzkarın qanuni ərazilərimizdə, "burnumuzun ucunda" günlərdir keçirdiyi 40 minlik hərbi təlimlərin təbliğati effektinin içinə yekunda böyük bir zibil qoyub, Serj Sərkisyan rejiminin qol-qanadını qırıb. Nəzərə alanda ki, olayla bağlı Azərbaycana beynəlxalq qınaqlar bir elə sərt olmayıb (ola da bilməzdi), deməli, bundan sonra həm də belə təlimlərin təkrarlanması erməni tərəfi üçün yetərincə riskli hala gəlib.

Üstəgəl, 1 həftədir ortalıqda qalan erməni zabit-pilotların meyitləri. Artıq narazı erməni toplumu haqlı sual verməyə başlayıb ki, hərbçilərinin cəsədlərini vaxtında ailələrinə təhvil verə bilməyən bir iqtidar hansı qisas aktından danışır?

Yalnızca öz beynəlxalq hüququndan istifadə edib işğalçı tərəfə məxsus hərbi uçağı vuran Azərbaycana qarşı bu və başqa səbəblərdən qəzəb, isteriya düşmən tərəfdə o qədər güclüdür ki, hətta xarici işlər nazirinin müavini Şavarş Köçəryan həyasızcasına olaya görə Azərbaycanı "terrorçu dövlət" adlandırır. İndi burda atalar məsəlimizi necə yada salmayasan; "adımı sənə qoyum, səni də yana-yana..." Axı sənin hərbi vertolyotunun qonşu və suveren ölkənin səmasında, - lap olsun Dağlıq Qarabağ, - nə ölümü var ki, orda da vurulsun?..

Bu arada erməni tərəfi ənənəvi kursuna sadiq qalaraq dezinformasiya yaymaqda davam edir. Onlardan biri də guya ATƏT sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşikin srağagün "Mi-24" hərbi helikopterinin düşdüyü əraziyə baxış keçirməsi barədədir. Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı bu məlumatı təkzib edib. Onun sözlərinə görə, monitorinq qoşunların təmas xəttində, öncədən müəyyənləşdirilmiş ərazidə - Ağdam rayonunun Mərzili kəndi yaxınlığında keçirilib və insidentsiz başa çatıb.

**Sitat: "Bəzi KİV-lər ATƏT-in mətbuat xidmətinə istinadən Kaspşikin "Mi-24" döyüş helikopterinin düşdüyü ərazidə olması barədə məlumat yayıb. Düşmən tərəfi həmin ərazidə daim təxribatlar törədir. Bir daha bəyan edirik ki, ATƏT nümayəndələrinin və Kaspşikin oraya getməsi barədə məlumatın heç bir əsası yoxdur və bu yalandır. Onların təhlükəsizliyinə müəyyən olunmuş, yalnız monitorinqin keçirildiyi ərazidə zəmanət verilib. O ərazi isə helikopter düşən yerdən 20 km aralıdadır".**

Beləcə, ermənilərin Kasprşikə bağladığı ümidlər də puça çıxıb. Əlbəttə ki, cansız cəsədlərlə siyasət qurulmaz və Azərbaycan tərəfi də heç vaxt belə çirkin taktikaya əl atmayıb. Ermənistan isə tam əksinə, dəfələrlə "meyit müharibəsi"ni də özünə rəva bilib. Məgər bir neçə il öncə Milli Qəhrəman Mübariz İbrahimovun mübarək cəsədi aylarla erməni tərəfdə saxlanmadımı, hətta şəhidin cismi təhqirə məruz qoyuldu! Və ya işğal altındakı Kəlbəcərdə öldürülən Həsən Həsənov - onun meyitini Azərbaycana vermək üçün ermənilər hətta hansı məktəbdə oxuması haqda arayış tələb eləmişdilər...

Görünür, ermənilər özlərini, öz xislətlərini yaxşı tanıdıqları üçün Azərbaycanın da eyni üsula əl atdığı qənaətindədirlər. Son günlər erməni KİV-lərindən biri beləcə də yazıb ki, Azərbaycan pilotların meyitlərinin götürülməsinə şərait yaratmamaqla əslində Ermənistandan qisas alır.

Ancaq bu, nə qisasdı ki. Əsl qisas, revanş hələ qabaqdadır, əgər təbii ki, təcavüzkar ağlını başına yığıb Qarabağ məsələsində ədalətli mövqe tutmasa, rusun əlində maşa olmaqda davam eləsə. Uzağı, ermənilərin əsas dayağı Rusiya zəifləyənə, çökənədəkdi - bunu da bilməmiş deyillər.

❑ Z.SƏFƏROĞLU

**19 noyabrda Milli Məclis “2015-ci ilin dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsini davam etdirdi.**
**Deputat Fəzail Ağamalı kommersiya banklarının faizinin həddindən artıq çox olduğunu, əhalinin 5 milyondan yuxarısının banklara kredit ödədiyini xatırladıb təklif verdi: “Əgər bu banklar Milli Bankın tövsiyələrinə məhəl qoymursa, onda qanunvericiliyə müvafiq dəyişikliklər edək və əhalinin yaxasını bu banklardan xilas edək”.**



# Milli Məclisdə sensasion çıxışlar

## Siyavuş Novruzov bank soyğunçuluğundan, məktəblilərin durumundan sərt danışdı; “Azərbaycanda krediti qaytarmaq üçün... silah alveri ilə məşğul olmaq lazımdır”; “23 ildir eşidirik ki, islahat gedir, biri Boloniya gətirir, o biri kurikulum gətirir, getdikcə ballar da aşağı düşür”

**Fərəc Quliyev** dedi ki, büdcənin neftdən asılı olması bizi narahat etməlidir. Həmçinin neftin büdcədəki qiymətinin 90 dollar götürülməsini də riskli saydı. F.Quliyev rus rublunun dəyərdən düşməsini də xatırladıb, rubla bağlı siyasətdə də korrektələrə çağırdı. Gəlirlərin xərclənməsinə həssas yanaşmağı zəruri sayan deputat “neft gəlirləri ya ərazilərimizin azad olunması üçün savaşa, ya da azad olunarsa, ordakı bərpa işlərinə sərf olunmalıdır” - deyə, bildirdi. Həmçinin o, kölgə iqtisadiyyatının aradan qaldırılmasını zəruri saydı. Milli Məclisin ehtiyat fondunun yaradılmasını təklif edən F.Quliyev bu istiqamətdə addım atmaq üçün Nazirlər Kabinetinə müraciət etdi. O qeyd etdi ki, Neft Fondunun vəsaitlərinin bir hissəsi ölkəyə gətirilməli və gəncliyin inkişafına, işsizlik, evsizlik probleminin həllinə sərf olunmalıdır. F.Quliyev də müəllimlərin əmək haqqının artırılmasını, Gürcüstanda yaşayan soydaşlarımızın kadrlarla təmin olunmasını zəruri saydı.

**Leyla Abdullayeva** Sumqayıtdakı problemlərdən bəhs etdi, xüsusilə də şəhərdə yataqxana probleminin həllinə kömək istədi.

**Milli Məclsiin sədr müavini Bahar Muradova** dünyada mütləq ədalətsizliyin hökran olduğu dövrdə Azərbaycana qarşı qaralama kampaniyasının getdiyini vurğulayıb, mümkün təhlükələri dəf etməyin yollarından danışdı. Bugünlərdə QHT-lərə Dövlət Dəstəyi Şurası ilə əməkdaşlıq haqqında imzalanan memorandumun önəmindən bəhs etdi: “Biz bu düşərgə ilə birgə işləməklə daha böyük işlər görə bilərik”.

**B.Muradova xarici QHT-lərin də QHT-lərə Dövlət Dəstəyi Şurasından maliyyə alaraq, Azərbaycan həqiqətlərinin yayılmasına dəstək verdiyini vurğuladı və qurumun sədri Azay Quliyevin təklifini müdafiə edərək, maliyyə vəsaitinin artırılmasını istədi:** “Biz düşünməyək ki, 6 milyon şuranın fəaliyyəti üçün çox vəsaitdir. Xahiş edirik ki, Qarabağ həqiqətlərinin dünyaya çatdırılması üçün quruma ayrılan maliyyənin artırılmasına bir daha baxılsın”. Vitse-spiker Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə ayrılan vəsaitin də artırılmasını təklif etdi.

**Yevda Abramov büdcənin hərbi xərclərinin artırılmasını zəruri saydı:** “Biz müharibə vəziyyətindəyik, başqa yolumuz yoxdur. İkincisi, QHT-lərin kənar mənbələrdən asılılığını azaltmaq üçün QHT Şurasına da vəsait artırılmalıdır”.

**Y.Abramov seçildiyi Quba rayonunun problemlərindən də danışdı və təkliflərini verdi. Xüsusilə də rayonda yol çəkilişini zəruri saydı. Qubada tikintisi nəzərdə tutulan beynəlxalq aeroportla bağlı işlərin təxirə salındığını deyib, ilginc fikirlər söylədi:** “Camaatdan ərazilər dövlət ehtiyacı üçün alınıb. Ancaq əhali çaşqın qalıb. Gətirilən texnika da geri qaytarıldı. Adamlar bilmir ki, oradakı alma bağlarını kəssin, ya saxlasın. Hökumət buna cavab versin ki, xalq da bunu bilsin. Orada şayiələr gəzir ki, Rusiya buna müdaxilə edib, beynəlxalq konvensiyaları əsas gətirərək, sərhəd bölgəsində beynəlxalq aeroportun tikintisinə imkan verməyib. Xahiş edirəm, hökumət buna cavab versin ki, bu, doğrudurmu?”

### Yevda Abramov: “Rusiya Qubada beynəlxalq aeroportun tikintisinə imkan verməyib”

**Deputat Elmira Axundova** rus rublunun durumuna diqqət çəkərək manatın kursunun saxlanmasına görə Mərkəzi Bankın rəhbərliyinin fəaliyyətini təqdir etdi. Səhiyyə sistemini tənqid edənlərlə razılaşmayan deputat bu sahədə böyük işlər görüldüyünü vurğuladı. Ancaq əlavə etdi ki, bir çox kəndlərdəki səhiyyə məntəqələrində kadrlar çatışmır. Bu mənada Tibb Universitetini bitirənlərin bir neçə illik də olsa kəndlərə təcrübəyə göndərilməsinə çağırdı.

**Vitse-spiker Valeh Ələsgərov** hökumət üzvlərinə çox ciddi və maraqlı mesaj verdi. O, hansısa sahəyə ayrılan vəsaitin büdcəyə gətirəcəyi gəliri əvvəlcədən müəyyənləşdirməyi məsləhət gördü. Eyni zamanda neftin qiymətinin aşağı düşməsini fəlakət kimi qəbul etməməyə çağırdı, bildirdi ki, neft 1999-cu ildə 10, 2009-cu ildə 36 dollara düşdü, “ancaq dünya dağılmadı”.

**Musa Quliyev dedi ki, dövlət sahibkarlara şərait yaratmalıdır ki, sahibkarda sosial evləri tikərək insanlara ipoteka yolu ilə sata bilsin. M.Quliyev tütün məhsullarına aksiz və əlavə dəyər vergisinin artırılmasını tələb etdi:** “Azərbaycanda siqaretin qiyməti digər ölkələrlə müqayisədə ucuzdur. Fikrimcə, bu qiymət artırılmalıdır. Düzdür, siqaret haqqında qanun müzakirədədir, ancaq hələlik qəbul olunmayıb. Amma bu məsələlər nəzərə alınmalıdır”.

**Aydın Mirzəzadə 12 noyabrda erməni vertolyotunun vurulmasının qarşılığında Ermənistanın susmasını Azərbaycan ordusunun güclü olması və bunun qarşıdakı illərdə öz bəhrəsini verəcəyi ilə izah etdi. “Mingəçevirin iki böyük problemi var:** İşsizlik və mənzilsizlik”. O əlavə etdi ki, təkcə Mingəçevirdə bu gün 10 min ailə mənzil almaq üçün ipoteka almaq arzusundadır. Ancaq gələn il üçün ipotekaya ayrılan vəsaitlə cəmi min nəfər mənzil ala bilər. A.Mirzəzadə Bakının statusu ilə bağlı ayrıca bir qanun qəbul olunmasına ehtiyac olduğunu bildirdi: “Bakının mərkəzində çoxmərtəbəli binaların tikilməsi şəhəri daha da sıxlaşdırır”.

**Qənirə Paşayeva şəhid ailələrinə və əlillərə ayrılan sığortanın ödənilməsi məsələsinin həll olunmasını xahiş etdi:** “Məsələnin həll olunmaması narazılıq yaradır. Onlar deyirlər ki, necə olur atəşkəs dövründə şəhid olanların ailələri bunu ala bilir, amma müharibə dövründə həlak olanlar yox?” Q.Paşayeva dedi ki, yeni məktəblər tikiləndə xüsusi seçim edilməlidir, əhalinin sayı və təhsilin göstəricisi yüksək olanlar, həmçinin məktəblərin durumu nəzərə alınmalıdır. Bu mənada xanım deputat Tovuzun konkret kəndlərini sadaladı. O, həmçinin ön cəbhəboyu yerləşən kəndlərdəki məktəblərə xüsusi önəm verilməsini istəyib. Deputat ön cəbhədəki kəndlərdə heç olmasa tibb məntəqələrinin tikilməsini xahiş etdi.



Siyavuş Novruzov

**Bəxtiyar Əliyev Təhsil Nazirliyinin səlahiyyətlərinin gücləndirilməsini, elmə rəhbərlik və innovasiyalarla bağlı məsələlərin də bu quruma həvalə edilməsini istəyib. Deputat büdcə vəsaitlərinin düzgün xərclənməsini də zəruri saydı:** “Hər il Hesablama Palatasının hesabatını izləyəndə görürük ki, müəyyən qurumlar vəsaiti düzgün xərcləməyib və ya sonradan ödətdirilib”. Deputat bu məsələyə nəzarəti artırmağa çağırdı.

**Vahid Əhmədov bir sıra vacib məsələlərdən bəhs etdi:** “Azərbaycanda reklamın dövriyyəsi 60 milyon manat olmasına baxmayaraq, gəlir cəmi 26 milyon manatdır. Yəni kölgə iqtisadiyyatı reklamda həddən artıq yoxdur və bunun qarşısını almaq yollarından biri yeni qanunun qəbul edilməsidir və hazırda bunun üzərində iş gedir. 2015-ci ilin dövlət büdcəsi riskli yox, investisiya və soialyönümlü büdcədir. Büdcənin icrasında elə də ciddi problem olmayacaq. Neftin qiymətinin 80 və ya 90 dollar götürülməsi dövlət büdcəsinə o qədər də təsir etməyəcək. Çünki neftin qiymətinin dövlət büdcəsinə təsiri 11 faizdir ki, bu da təxminən 2 milyard manat edir. Nəzərə almaq lazımdır ki, dövlət büdcəsinin 67 faizi neftdən gələn gəlirlər hesabına formalaşır. Dövlət Neft Fondundan 10.3 milyard transfer edirik. Bütün bunları nəzərə alaraq 6.9 milyard manat əsaslı vəsait investisiya qoyuluşu yatırmağı nəzərdə tutmuşuq. Ən vacib məsələ isə Maliyyə Nazirliyinin, Hesablama Palatasının qarşısında duran xərc siyasətinə nəzarət mexanizminin olmamasıdır. 6.9 milyarda kim qarantiya verə bilər ki, bu məbləğ təyinatı üzrə, məqsədli şəkildə istifadə ediləcək”. **Deputat neftin qiymətinin müəyyənləşməsi ilə bağlı yaranan polemikalara da münasibət bildirdi:** “Çoxları bizə bununla bağlı dərs keçir. Neftin qiyməti 80 dollara düşsə də, Azərbaycanda problemlər yaşanmayacaq. Bu gün ən ciddi məsələ xərc sisteminə nəzarətin olmamasıdır. Hesablama Palatası böyük layihələrin yoxlanılmasına başlamalıdır. Yaxşı olardı ki, Hesablama Palatası kiçik yox, böyük investisiya qoyulan layihələrə bağlı yoxlamalar aparsın. Niyə böyük layihələr yoxlanılmır? Yoxsa ayrı-ayrı məmurların nəzarətində olan məsələlərdir bunlar? Bu, dövlətin vəsaitidir və nəzarət altında olmalıdır”.

**V.Əhmədov bankların kredit siyasətini də tənqid etdi:** “Mən spiker Oqtay Əsədova da təklif vermişəm ki, bankirləri Milli Məclisə toplayıb onların iştirakı ilə iclas keçirək və problemlərin həlli yollarını axtaraq”.

**Deputat əhalinin mənzil problemi məsələsini də bir daha gündəmə gətirdi:** “Azərbaycan hökuməti lazım olan yerlərdə sosial evlər tiksin, sosial ipotekalar verilsin”. **O, 2015-ci ilin dövlət büdcəsi layihəsində həkimlərin əmək haqları ilə bağlı yaranan tərəddüddən də bəhs etdi:** “Dövlət büdcəsində əmək haqları qrafasında həkimlərin əmək haqlarının 0,6 faiz artırılması nəzərdə tutulub. Bu məsələyə aydınlıq gətirilməlidir”. V.Əhmədov Azərbaycanın qeyri-neft sektorunu ciddi şəkildə inkişaf etdirməyə çağırdı: “Sexlər, kiçik müəssisələr açmaqla biz qeyri-neft sektorunun inkişafı ilə bağlı heç nə edə bilmərik”.

**Siyavuş Novruzov Azərbaycanla Ermənistanın müqayisə olunmasını “uğursuz” saydı:** “Bu gün Azərbaycan Avropa İttifaqına daxil olan ölkələrlə, ən pis halda Qazaxıstan və Rusiya ilə müqayisə oluna bilər”. S.Novruzov kreditlərlə bağlı təklif verdi: “Kimsə özünə kefindən avtomobil almaq istəyirsə, ona verilən kreditlə əkin əkmək istəyənə verilən kredit fərqlənməlidir. Əkinçi də taxıl əkir, quraqlıqdan məhsul olmur, onda krediti də ödəyə bilmir. Necə deyərlər, kasıbı dəvənin də üstündə ilan vurur”. O, kredit faizləri barədə danışarkən ilginc fikir səsləndirdi: “Azərbaycanda verilən krediti qaytarmaq üçün ya narkotik, ya insan alveri, ya da silah alveri ilə məşğul olmaq lazımdır... Bu gün nazirliyin idarə rəisinin əmək haqqı imkan vermir ki, ipoteka götürsün, müəllim, həkim, gənc mütəxəssis necə ala bilər? Elə nəzərdə tutulub ki, kim imkanlı adamdır, ipoteka alsın, özünün kəm-kəsirini düzəltsin”.

**Daha sonra o dedi:** “23 ildir eşidirik ki, islahat gedir, biri boloniya gətirir, o biri kurikulum gətirir, getdikcə ballar da aşağı düşür. Bu gün Azərbaycanda müəllimin sayı Amerikadakından üç dəfə artıqdır. Həm Əli aşından, həm Vəli aşından olur müəllim. Müəllimlərin sayına baxmaq lazımdır ki, normal maaş verilsin”.

**Deputat məktəblilərin fiziki hazırlığı barədə də təklif verdi:** “Gedin orta məktəbin qarşısında şagirdlərə baxın, görün bizim uşaqların fiziki hazırlığı hansı həddədir? Bu gün məktəblərdə hərbi və idman dərsləri bərpa olunmalıdır. Biz kişi yetişdiririk, bizə əsgər lazımdır. Sabah İŞİD gələndə bəstəkar axtarmayacaq, onun qarşısına əsgər çıxmalıdır. İki ton kitab çap edirlər, qalın üzlə. Hətta kənardan deyirlər, sizdə kitab buraxmırlar, soyuq silahdır, kimin başına vursan, orda qalar”.

**S.Novruzov QHT Şurasına yardımın artması ilə bağlı təkliflərə toxunub gülərək siyasi partiyalara bağlı təklif verdi:** “Siyasi partiyalara da maliyyə vəsaiti artırılsın ki, onların da qırışığı açılsın”.

**Oqtay Əsədov isə cavab olaraq dedi ki, siyasi partiyalarla QHT-lərin eyniləşdirilməsini qəbul etmir:** “Siyasi partiyaların maliyyəsinin artması üçün üzvlərinin sayı artmalıdır”.

**Əhməd Vəliyev** təhsil kreditləri barədə təklif verdi, həmçinin Qazax rayonunun problemlərindən bəhs etdi.

**Musa Qasımlı** qeyri-neft sektoru ilə bağlı təkliflərini səsləndirdi. Xüsusilə də kənd təsərrüfatına diqqətin artırılmasını zəruri saydı. Deputat uşaq televiziyasının yaradılmasını da istəyib.

**Məlahət İbrahimqızı Xocalı sakinlərinin problemlərindən bəhs etdi:** “Bu gün Xocalı ilə bağlı süjetlər göstərilir və 25 nəfər uşaq var ki, onlar valideynlərindən ayrı düşüb. Həmin uşaqlardan 14-ü evlə təmin olunub, 15-16 nəfər isə evsizdir. Çox istərdik ki, onlar da evlə təmin olunsun”. Deputat kəndlərin əksəriyyətində bankomatın olmadığına da diqqət çəkdi: “Heç olmasa, rayon mərkəzindən müəyyən məsafəyə qədər bankomatlar quraşdırılsın”.

**Müzakirələr bu gün davam etdiriləcək.**

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 284 (5993) 20 noyabr 2014

**Milli Dirçəliş günü və Meydan hərəkatı deyiləndə yada ilk düşən Nemət Pənahlıdır desək, yanılmarıq. 1988-ci ilin noyabrında başlanan mitinqlərin əsas qəhrəmanı məhz Nemət Pənahlıdır. O, dörd ildir ki, həbsdədir. 17 noyabr həm də N.Pənahlının ad günüdür. Əməkdaşımız meydan qəhrəmanının ailəsində olub, onun xanımı və kiçik oğlu ilə söhbətləşib.**



# Həbsdə olan meydan qəhrəmanının evindən reportaj...

## Həcər Pənahlı: "Azadlıq hərəkatı deyəndə birinci Nemət yada düşür"

N.Pənahlının xanımı Həcər Pənahlı bildirib ki, 17 noyabr onlar üçün müqəddəs tarixdir. Onun sözlərinə görə, bayram ərəfəsində Nemətlə görüşməsə də, telefonla danışıblar: "Hələ görüş günümüzə var, üç aydan bir görüşürük. Ancaq ayın 18-də zəng etmişdi, danışdıq, 26 il əvvəlki meydan hadisələrini də yada saldı".

### "Mübarizə onun həyatıdır"

**Xanımı bildirir ki, bütün çəkdiklərinə rəğmən, meydan hərəkatının lideri xalq üçün etdiklərinə heç vaxt peşman olmayıb:** "Əksinə, etmədiyi işlər üçün peşmandır. Məsələn, deyir ki, daha çox işlər görə bilərdi. Nemət 17 noyabrdan, 31 dekabrdan danışanda, fərəhlənir. Hər il həmin tarix gəlib çatanda deyir ki, mənim həyatımda mənalı yaşadığım günlər bunlardır, digərləri adi, sıradan günlərdir. Deyir ki, həyatının mənası ancaq mübarizədə olduğu günlərdir. Mübarizə onun həyatıdır". Bununla belə, ailə dörd ildir ki, 17 noyabrı ürəkaçıqlığı ilə qeyd edə bilmir. Səbəb qəhrəmanın həbsdə olmasıdır.

**Xanımı N.Pənahlının həbsxanada durumunun yaxşı olmadığını da dilə gətirir:** "Nemət artıq dörd ildir ki, həbsdədir. O, şəkər xəstəsidir, balaca, təkadamlıq kamerada qalır, hərəkət etmək olmur. Şəkər xəstəsi gərək hərəkət etsin, o, heç idman edə bilmir, otağa çarpayı güclə yerləşir. Gündə bir dəfə havaya çıxır, o da dörd divar, üstü də dəmir çərçivə. Hərəkətsiz və havasız mühit şəkər xəstəsi üçün birbaşa ölümdür. Heç müalicə də olunmur, gündə bir dərman atır, vəssalam. 17 saylı cəzaçəkmə müəssisəsində olanda heç o dərmanı da vermirdilər, güclə alırdı. Qobustan həbsxanasında dərmanını verirlər".

### "Oğlum soruşdu ki, sən doğrudanmı camaatı qırğına vermisən?"

**Həcər xanım deyir ki, həmin tarixlə bağlı hazırda daha çox yanlış məlumatlar səslənsə də, tarixdə hər kəsin öz yerini alacağına əmindir:** "Nemət hələ həyatdadır, həqiqətləri bilir. Amma 8-9 il əvvəl adını çəkmək istəmirdilər. Bu gün isə hətta ondan xoşu gəlməyənlər də adını dana bilmirlər. Bir neçə il əvvəl məktəbdə 17 noyabrla bağlı necə danışmışdılarsa, oğlum gəlib atasına demişdi ki, "sən doğrudanmı o vaxt camaatı qırğına vermisən? Məktəbdə belə danışılır". Bu, Nemətə çox pis təsir etmişdi. Bu cür söhbətlər hətta orta məktəblərdə gedirdi, təbliğat bu formada idi. Məktəbdə tamam başqa adamların meydan hərəkatı ilə bağlı adı çəkilirdi ki, mübarizəni bunlar edib. Nemət isə dedi ki, tarix



cırıq paltar deyil ki, oradan-buradan yamayasan. Tarix nədirsə odur. İllər keçəcək, bir dövr gələcək və tarixdə yaşananlar doğru söylənəcək. O, oğlumuzu da belə başa saldı, dedi ki, meydan hərəkatı zamanı etdikləri tarixə düşmək üçün deyil: "Dedi o zaman bunları ona görə etmirdim ki, mənə heykəl qoysunlar, ancaq tarixdə hər şey yerini alacaq, geci-tezi var". Nemət övladlarına izah edirdi ki, bir dövr gələcək ki, xalqın həmin azadlıq uğrunda mübarizəsində həqiqətlər yazılmaya bilməyəcək. İndi Nemət həbsdədir, mən özüm də o fərqi hiss edirəm. O zaman həqiqəti demək istəməyənlər də indi deməyə bilmir, məsələn, telekanallara çıxırlar və Nemətin hərəkatdakı rolundan danışırlar. Bilirəm ki, konkret olaraq Neməti sevmirlər, ancaq onun etdiklərini deməyə də bilmirlər, dana bilmirlər. Çünki azadlıq hərəkatı deyəndə birinci Nemət yada düşür, onu danmaq mümkün deyil. Əminəm ki, vaxt gələcək, tarix kitablarında bu şərəfli tarix və Nemət barədə məlumatlar olacaq, onun haqqında tarixi kitablar yazılacaq, tarixə həkk olunacaq. Nemət tarixə möhürünü vurmuş insandır, onu tarixdən silmək mümkün deyil. Bəlkə də gözləyirik ki, qəhrəmanlar dünyadan köçsün, sonra ona heykəl qoyaq, heykəlin də qarşısına gül".

### "O zaman kimlər xəyanət etmişdi..."

**Meydan hadisələri zamanı məktəbli olduğunu deyən H.Pənahlının sözlərinə görə, o zaman başa düşməsə də, sonradan həyat yoldaşının dilindən meydanda baş verən xəyanətləri də çox eşidib:** "İndi deyirlər ki, Nemət xəyanət edib-filan... Bunlar yalandır. Əslində kimlər xəyanət etdi, bunu Nemət gözəl bilir. Meydana yığışan xalq ancaq tribunada danışılanlardan xəbərdar idi, daha pərdə arxasında nələr vardı, bilmirdilər. Nemət isə bunlardan xəbərdar idi. Nemət türməyə salınanda konkret onun haqqında kimlər donos yazmışdısa, adları, yazdıqları onun qabağına qoyulmuşdu. Bu adam konkret bilirdi ki, kim satqındır, rus "KQB"si kimləri təlimatlandırıb meydana göndərib. Nemət elə bir adamdır ki, həyatı boyu xəyanət etməz. O, millətini inanın ki, uşaqlarından da, valideynlərindən də çox sevir... hər şeydən, hər kəsdən. Allahdan sonra onun üçün müqəddəs millətidir. Bəlkə onun çəkdiklərini kim çəksəydi, başqa cür düşünə bilərdi. Getdi, türməyə düşdü, orada elə şeylər gördü ki... O sözü mən də deyirdim, qohumlar da. Atası da dəfələrlə dedi ki, gördün milləti? Bu gün niyə yoxdur millət türmənin qarşısında? Səninsə gəncliyin, ömrün getdi. Mən Nemətin dilindən millət barədə bir kəlmə acı söz eşitmədim. Ona ən çox təsir edən odur ki, azadlığın bəhrəsini daha yaxşı formada görməli idik, olmadı. Nemət üçün "mən" yoxdur, o, millətinin yaxşı yaşamasını istəyirdi və mübarizəsi bunun üçün idi. O meydanın birinci növbədə müqəddəsliyi o idi ki, orada xalqın birliyi var idi. Bir əllə, bir işarə ilə oturub durmağı var idi xalqın. Yəni Nemət hakimiyyətə, ruslara göstərirdi ki, bu xalq bir işarə ilə bir yerə yığılıb, oturub durmağı bacaran xalqdır. Orada tək-tük insanlar var idi ki, millətinə sadiq idi".

### Nemət Pənahlı meydan hərəkatı barədə kitab da yazıb

**Bununla belə, Həcər xanım Nemət Pənahlının kimləri xəyanətkar hesab etdiyini açıqlamır:** "Ad çəkməyəcəm, bunları Nemət bilər, kitabında da yazıb". **Kitab isə maddi çətinliklər ucbatından indiyədək çap olunmayıb:** "Nemət həmin adamlara kim olduqlarını müxtəlif tədbirlərdə, diskussiyalar-



da da sübut edib. Nemət həmişə arxivlərin açılmasını istəyib, açılsa, orada sənədlərdə hər şey məlum olacaqdı. O vaxt xəyanət edən adamlar bu gün çıxıb efirə xalqı bayram münasibətilə təbrik edirlər. Birində cəsarət yoxdur desin ki, "ay xalq, mən o vaxt meydana Neməti vurmaq üçün gəlmişdim. Ancaq bu gün hərəkat qalib gəlib və mən çıxmışam deyirəm ki, ay xalq, təbrik edirəm". O hərəkatda barmaqla sayılacaq qədər satılmayan insanlar olub. Kimin meydanda kim olduğu Nemətin "Əbədiyyət yolçusu" kitabında yazılıb. Kitabı qismət olsa, çap etdirəcək. Baxmayaraq ki, Nemətin hər rayonda bir villasının olması barədə məlumatlar yayılır, onun həmişə maddi sıxıntısı olub. Kitab da bu səbəbdən çap edilməyib".

**Xanım həmçinin qeyd edir ki, bu dörd ildə Neməti hərəkat yoldaşlarından kimsə soruşmayıb, ailəsi ilə maraqlanmayıb. Həcər Pənahlı deyir ki, Nemət Pənahlının altı övladı onun kimi böyüyürlər-mərd və vətənpərvər:** "Onun ruhunda böyüyürlər. Bizim evdə bayraq Quran qədər müqəddəsdir. Nemət uşaqlara bayrağın müqəddəsliyindən o qədər danışıb ki... Böyük oğlum hərbçi olmaq istəyirdi, ancaq Nemətə görə mümkün olmadı. O, həmişə deyir ki, "vətən üçün ölmədinsə, daha nə oldu? Başqa cür yaşamaq mənasızdır". Bu cür baryerlər uşağa psixoloji təsir edir, o, bunlardan təsirlənir. O, artıq gəncdir, başa düşür ki, Azərbaycan tarixində ən şərəfli gün onun atasının adı ilə bağlıdır, ancaq atası günahı olmadığı halda türmədədir. Bunun üçün də onun qarşısında atasına görə daim baryerlər var. Özünün istədiklərini həyata ona görə keçirdə bilmir ki, həmişə atasının da qarşısında baryerlər olub. Uşaqlara baxıram, eyni Nemətin baxışı, təfəkkürü..."



### Təzyiqlərsə həmişə var...

**H.Pənahlı həyat yoldaşının hələ daha iki il həbs müddətinin qaldığını da təəssüflə bildirir. O deyir ki, uzun müddət N.Pənahlıya psixoloji təsir və təzyiq göstəriblər ki, əfv ərizəsi yazsın, ancaq o bunu etməyib:** "17-ci "zon"da psixoloji təsir edirdilər, yanına bir nəfəri salmışdılar və o, bütün günü Nemətə təsir göstərirdi, deyirdi ki, "əfv istəməsən, ömrün burada çürüyəcək, bitəcək, sənə qarşı plan hazırlanır və sair". Hətta bir dəfə Nemətin üstünə qaynar su da atmışdı. Nemət deyirdi ki, məni təxribata çəkirlər. İndi Qobustan həbsxanasında rəis dəyişilib və vəziyyət də əvvəlkinə nisbətən dəyişib. Nemət həmişə deyirdi ki, Allahdan əfv diləyir, ancaq onun həbsinə səbəb olanlara ki, bəlkə Allah onları əfv edə".

**Ailə olaraq rastlaşdıqları çətinliklərdən danışan Həcər xanım aidiyyəti orqanların bu problemlərə biganəliyinə də diqqət çəkir:** "Dayısı uşaqlardan birinə velosiped almışdı, onu blokdan oğurladılar. Ətrafda bir neçə kamera olduğu halda, hələ də oğrunu tapmayıblar. Nemətin isə etmədiyi hərəkət kameraya düşmüşdü. Bundan başqa, Nardaranda torpaq sahəmizi gəlib hasarlayıblar, torpağa başqası iddia edir. Baxmayaraq ki, əlimdə bütün sənədlər var və torpaq mənə məxsusdur. Şamaxıda isə maşınımızı satıb torpaq sahəsi almışdıq, onun bir hissəsini bələdiyyə başqasına satıb. Əlimdə bütün sənədlər var və qaydasındadır. Bələdiyyə sədri isə vəziyyəti izah edə bilmir. Bundan başqa, maşınımızı dörd ildir ki, oğurlayıblar. Onu kreditə almışdıq. Maşını bir neçə dəfə özüm şəhərdə görmüşəm, polis isə guya tapa bilmir. Sonunda məhkəməyə müraciət edib avtomobilin mənə məxsus olduğunu sübut etdik, eyni zamanda oğurlayan adam barədə də polisə məlumatlar təqdim etdik ki, bəlkə tapalar. İndi də deyirlər ki, adam axtarışdadır, tapa bilmirik. Nə maşın, nə də oğurlayan tapılmır. Amma Xoşqədəm Hidayətqızı dünyanın o biri başından adam tapıb gətirir. Bütün bunlar bir yana, məktəbdə uşaqlara qarşı təzyiqlər olub. Bir müəllim hətta bütün sinfin qarşısında uşağa deyib ki, atan yaxşı olub ki, türmədədir, o vaxt etdiklərinin nəticəsidir. Bütün bunlar uşağa sözsüz ki, təsir edir. Həmin müəllim uşağa çox təzyiq göstərib, mən isə xəbərsiz olmuşam. Uşaq həmin müəllim dərs dediyi müddətdə evdə bu barədə heç nə demədi, müəllimin təzyiqlərinə dözdü. Müəllimin hərəkətinin səbəbi o idi ki, həyat yoldaşı o vaxt Nemətlə əks cəbhədə idi. Bəs burada uşağın nə günahı vardı?".

**N.Pənahlının on yaşlı oğlu Oğuz da söhbətə qoşulur və 17 noyabrla bağlı danışır. O deyir ki, həmin gün həm Milli Dirçəliş günüdür, həm də atasının ad günü:** "Bu günlə bağlı atamla görüşəndə soruşacam ki, mənə geniş danışsın. O vaxt danışdıqlarının hamısı yadımda qalmayıb".

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 284 (5993) 20 noyabr 2014

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# "Sərkisyan bir də hərbi vertolyotla Azərbaycana uçsa, dərhal məhv edilməlidir"

## Qüdrət Həsənquliyev: "Düşmən bizi neft kəmərləri ilə bağlı hədələyir, mən də Ermənistan AES-ni xatırladıram"

**Noyabrın 12-də Ağdam səmasında düşmənin hərbi vertolyotunun Azərbaycan ordusu tərəfindən məhv edilməsindən sonra Qarabağ cəbhəsindəki gərginlik artıb. İndiki halda ermənilərin hədə bəyanatlarına Azərbaycan artıqlaması ilə cavab verir və növbəti zərbənin daha sarsıdıcı olduğunu bəyan edir. Bəs bundan sonrakı vəziyyət nə vəd edir? Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin üzvü, BAXCP sədri Qüdrət Həsənquliyevlə söhbət etdik.**

**- Qüdrət bəy, düşmən vertolyotunun vurulmasından sonra rəsmi Bakının növbəti addımlarının nə ola biləcəyi müzakirə mövzusudur. İndiki situasiyada hansı yol Azərbaycan üçün ən optimal sayıla bilər?**

- Azərbaycan problemin sülh yolu ilə həllini istəyir. Mən inanmıram ki, ağlı başında olan insan dağıntı, fəlakət, insan həyatının itirilməsinə gətirən müharibə istəsin. Amma bəzən xalqlar elə bir duruma salınır ki, artıq onun müharibə etməkdən başqa yolu qalmır. Bir ölkənin əhalisini öz ev-eşiyindən didərgin salıblar və acınacaqlı şəraitdə yaşamağa məhkum ediblər. Belə olan halda isə münaqişənin sülh yolu ilə həlli üçün işğalçıya heç bir təzyiq edilmir. Kadrlardan da gördük ki, bizim hərbçimiz əvvəl vertolyotu vurmağa tərəddüd edir və ikincini də vura bilərdi, amma vurmur. Yəni bir növ Ermənistana xəbərdarlıqdır ki, torpaqları azad elə! Lakin düşmən o qədər həyasızdır ki, nəinki torpağı azad etmək barədə düşünür, hətta bizi hədələyir ki, əgər belə şey təkrar olunsa, çox sərt cavab veriləcək və bizi qisasla hədələyirlər. Beynəlxalq birlik bu hadisədən sonra yenə də Ermənistandan tələb etmədi ki, işğalçılıq siyasətinə qon qoyulmalı, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Yəni Minsk Qrupunun həmsədrləri də nümayiş etdirir ki, bu münaqişənin ədalətli həllində maraqlı deyil.

**- Bəs Ermənistanın hədələri bəyan etdikləri kimi, Azərbaycana sarsıdıcı zərbə vurulmasına gətirib çıxara bilərmi?**

- Mən düşünmürəm ki, onların bu imkanları var. Sözsüz ki, Rusiya onların hərbi-siyasi müttəfiqi kimi düşmən ölkəyə yardım edərsə - Rusiyanın hərbi potensialı Azərbaycanın hərbi potensialından dəfələrlə böyükdür - o halda Ermənistan Azərbaycana ciddi zərbə vura bilər. Amma indiki mərhələdə, Rusiyanın özünə qarşı sanksiyaların tətbiq olunduğu dövrdə, Ukraynada faktiki surətdə müharibə gedir və Rusiya burda tərəfdir, özünün iştirakından imtina etsə də. Məncə, Rusiya hazırda istəməz ki, yeni bir münaqişə ocağı yaransın. Rusiyada da fərqindədirlər ki, Azərbaycan son illər ərzində böyük hərbi potensial yarada bilib. Yəni bütün nöqsanlarına baxmayaraq, Ermənistandan çox güclü ordu qura bilib. Ona görə də düşünmürəm ki, Rusiya Ermənistanı növbəti dəfə müharibəyə başlamağa təhrik eləsin. Əksinə, fikrimcə, Azərbaycan Rusiya ilə danışıqları intensivləşdirməyə çalışmalıdır. Rusiyanı hansısa formada bu münaqişənin həllinə razı salmağa çalışmalıyıq. Əgər Rusiya ilə belə bir anlaşma olarsa, biz qan tökmədən, yenidən müharibə etmədən öz ərazimiz üzərində suveren hüquqlarımızı bərpa edə bilərik.

**- Siz bundan əvvəl demişdiniz ki, Azərbaycan hətta Gömrük İttifaqına da daxil ola bilər, bir şərtlə ki, Rusiya torpaqlarımızı azad etsin. Necə bilirsiniz, özünün indiki halında Rusiyanın belə bir istəyi varmı?**

- Rusiyanın qorxduğu ondan ibarətdir ki, əgər birdən bunlar Azərbaycanla yaxınlaşarlarsa, o halda Ermənistanı itirmiş olarlar və bu zaman ABŞ Türkiyəyə təzyiq edəcək və Ermənistanla sərhədlərin açılmasına nail olacaq. Beləliklə də Avropa Birliyi, ABŞ Ermənistanı bir növ Rusiyadan ayıracaq. Onsuz da Ermənistanın Rusiya ilə sərhədləri yoxdur və Moskvanın ora müdaxilə imkanları çətin olacaq. Amma mən düşünürəm ki, bu, çox da ciddi arqument deyil. Əlbəttə, ABŞ və Avropa Birliyi Türkiyəni məcbur edə bilər ki, "sərhədləri aç!" Əgər belə bir sərt təzyiq olsa, Türkiyə tərəddüd etmədən sərhədləri açacaq. Amma o halda Ermənistanın cəsarət edib Rusiyadan uzaqlaşacağı, Avropa Birliyi və Amerikaya meyllənəcəyi az inandırıcı görünür. Çünki onların iqtisadiyyatının əsas sahələri faktiki surətdə Rusiya tərəfindən özəlləşdirilib, alınıb. Üstəlik, Rusiyanın bu ölkədə çox güclü hərbi bazası var, hansı ki, 49 illiyə qalmaq hüququ qazanıb. Ermənistanın bu müqaviləni vaxtından əvvəl birtərəfli qaydada ləğv edəcəyi inandırıcı görünmür. Rusiya istəyərsə, biz bu problemi qısa müddətdə həll edə bilərik. Ermənistan onsuz da Avrasiya İttifaqının üzvüdür. Azərbaycan da bu qurumun üzvü ola bilər. Bu, Azərbaycan üçün çox uğurlu bir variant olar, yetər ki, Rusiya öz tərəfindən Qarabağla bağlı addımlar atsın. Amma sözün doğrusu, mənim şübhələrim var. Rusiyanın indiki iqtidarının müdrikliyi çatarmı ki, bu addımı atsın?

**- Amma maraqlısı budur ki, vertolyot olayına Moskvadan kəskin reaksiya olmadı. Hətta ermənilər vertolyotun Rusiya tərəfindən vurulduğu barədə absurd iddia da səsləndirdilər...**

- Mən düşünürəm ki, ümidlər var. Putinlə bizim prezidentin şəxsi münasibətlərindəki yaxınlıq, o cümlədən Rusiya hökumətinə daxil olan, üstəlik, Putinə təsir etmək imkanında olan bəzi nazirlərin Azərbaycanla yaxın münasibətlərdə olması və Azərbaycanın artan iqtisadi gücü və regiondakı rolu bunu gerçəkləşdirə bilər. Hazırda Rusiya Azərbaycan üzərindən İranla dəmir yolunun çəkilməsində çox maraqlıdır Asiyadan yüklərin Rusiyadan keçməklə Avropaya daşınmasına nail olmaq üçün. Bunu da Azərbaycansız etmək mümkün deyil. Bu baxımdan Azərbaycan Rusiya ilə danışıb anlaşa bilər və biz Rusiyanın müəyyən maraqlarını nəzərə ala bilərik. Xatırlayırsınızsa, Azərbaycan MDB-yə daxil olanda içi mən qarşıq, bir çoxlarımız bunu dövlət suverenliyinin ciddi şəkildə məhdudlaşdırılması, bəziləriniz hətta itirilməsi kimi təqdim edirdik. Hətta 1994-99-cu illərdə Azərbaycan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının da üzvü oldu, sonra müqavilə müddətini uzatmadı. Biz 5 il ərzində təşkilat üzvü olsaq da, bu, münaqişənin həllinə müsbət təsir göstərmədi. Ona görə də indi bəziləri köhnə təcrübədən çıxış edib deyirlər ki, biz Avrasiya İttifaqına üzv olandan sonra problemin həllində yardımçı olmasını istəyəcəyik. Yox, əgər Rusiya ciddi addımlar atmayacaqsa... Bu, qarşılıqlı müqavilələrlə tənzimlənməlidir. Yəni Rusiya bəyan etməlidir ki, problem Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır. Belə olduğu halda Azərbaycan Avrasiya İttifaqının üzvü ola bilər. Bu, Rusiya üçün də, Azərbaycan üçün də faydalı olar. Amma Rusiya bundan artığını istəyəcəksə, tamamilə Azərbaycanın öz suveren hüquqlarından imtinasını istəyəcəksə, buna getmək olmaz. Məsələn, mən mümkün sayıram ki, Qəbələ RLS kimi hətta Rusiyanın burda hərbi bazası da olsun, əgər bu, Moskva üçün önəmli psixoloji məsələdirsə. Yox, sabah Rusiya deyəcəksə ki, sərhədinizi mən qoruyacağam, artıq burda dövlətin suverenliyindən söhbət gedə bilməz.

**- Sizcə, Rusiya nə istəyə bilər?**

- Biz dəqiq deyə bilmərik. Bilmirik ki, bağlı qapılar arxasında nələr müzakirə olunur, Azərbaycanın cavabları nədən ibarətdir. Ona görə mən mütəmadi şəkildə mətbuatda çıxış edirəm ki, Azərbaycan iqtidarı xalqı, siyasətçiləri, ekspertləri məlumatlandırmalıdır, deməlidir ki, Rusiyanın bizdən istədiyi nədir. Yaxud biz hara qədər güzəştə gedə bilərik.

**- Xüsusilə də düşmən vertolyotunun vurulmasından sonra əsəblərin gərildiyi, təxribat gözləntilərinin olduğu bu situasiyanın müzakirəsi üçün təhlükəsizlik və müdafiə komitəsinin iştirakı ilə hökumət səviyyəsində qapalı da olsa, Qarabağ müzakirələrinin aparılmasını zəruri sayırsınızmı?**

- Əlbəttə zəruri sayıram. Bizim Müdafiə Nazirliyinin son bəyanatı oldu ki, "əgər Ermənistan bizim neft kəmərlərinə hücum edərsə, biz öldürücü zərbə vura bilərik". Bizim üçün neft kəmərləri strateji cəhətdən nə qədər həyati əhəmiyyət kəsb edirsə, Ermənistanda da Atom Elektrik Stansiyası o qədər əhəmiyyətlidir. Ermənilər düşünməlidir ki, onların da ərazisində strateji obyektlər var və onların dağıdılması Ermənistan üçün hansı nəticələr verə bilər. Faktiki surətdə Ermənistanı həmin AES təmin edir, ermənilər də bu barədə düşünməlidir. Bizim rəsmilər açıq demir, amma fərqi nədir, mən söyləyirəm.

**- Yəni düşmənin zərbəsinin qarşısında Azərbaycan Ermənistan AES-i vura bilər?**

- Əlbəttə. Necə ki, düşmən neft kəmərləri ilə bağlı hədələyir. Mən də Ermənistan AES-ini xatırladıram. Əlbəttə, söhbət nüvə reaktorunu bombalamaqda, radiasiyanın yayılmasına bais olmaqdan getmir. Nüvə reaktorlarından kənardakı sistemləri, enerji təmin edən qurğuları sıradan çıxarmaqla Ermənistanı bütünlüklə zülmətə qərq etmək olar. Azərbaycanın bu imkanları var. Bizim çoxlu sayda hərbi vertolyotlarımız və təyyarələrimiz var. Müasir qırıcıların Ermənistana uçması, düşmən obyektlərini vurmaq üçün 10-15 dəqiqə tələb olunur. Ermənistanın Hava Hücumundan Müdafiə sistemi Rusiya tərəfindən qurulsa da, bütün təyyarələri, raketləri tutmaq imkanında olması mümkün deyil.

**- Ermənistanın işğal olunmuş ərazilərdə genişmiqyaslı hərbi təlimləri oldu. Necə bilirsiniz, növbəti dəfə düşmən ölkə bu təxribatını təkrar edərsə, Azərbaycanın mövqeyi necə olmalıdır? O halda konkret hədəflərin bombalanması qərarını vermək olarmı?**

- Yuxarıdan dediyim kimi, düşmənin ikinci vertolyotunun vurulmaması, sadəcə, Ermənistana bir siqnal idi. Azərbaycan tərəfi bəyan etdi ki, növbəti təxribatlar olacaqsa, daha sərt cavab veriləcək. Bundan sonra Ermənistan işğal olunmuş ərazilərimizdə təlim keçsə, ya da onların vertolyot və qırıcıları Azərbaycan üzərindən uçsa və Azərbaycan buna reaksiya verməsə, bu, bizim orduya, dövlətə xalqın inamını xeyli sarsıdar, həm bundan sonra Ermənistan və dünya birliyi bizi ciddi qəbul etməz. Ermənistan nə qədər sərt bəyanat versə də, artıq düşmən ölkə reallığı hiss etdi.

**- Bəs Sərkisyanın Azərbaycana qanunsuz səfərlərinə qadağa qoyulmasının vaxtı çatıbmı?**

- Mən çox təəssüf edirəm ki, o vaxt Azərbaycana çox böyük təzyiqlər oldu və Azərbaycan işğal olunmuş ərazilərin hüququ statusu ilə bağlı qanunu qəbul etmədi. Hansı ki, eyni qanun Gürcüstanda qəbul olunub. Bu qanun təcili qəbul olunmalıdır və işğal altındakı torpaqlar üzərindəki hava məkanı uçuşlara qadağan olunmalıdır. Qadağan olunmuş zonaya daxil olan bütün obyektlər vurulmalıdır. Əgər bu, sərnişin təyyarəsidirsə, sözsüz ki, o zaman bunun vurulması yox, yerə endirilməsi istiqamətində addımlar atılmalıdır. Əgər Sərkisyan bir də hərbi vertolyotla, özü də hərbi geyimdə Azərbaycana uçarsa, onun uçduğu vertolyot dərhal məhv edilməlidir. Mülkü aviasiya ilə uçduğu halda bizim qırıcılar onun yerə məcburi enişini təmin etməlidir. Sonuncu gəlişinə gəldikdə, Ermənistanda açıq panika əhval-ruhiyyəsi yaranmışdı. O, həmin psixoloji durumu dəyişmək üçün Qarabağa gəldi.

**- Rəsmi Bakı vertolyotda məhv edilən ermənilərin cəsədlərinin Xankəndində saxlanılan Kəlbəcər girovları ilə dəyişdirilməsi tələbini qoymalıdırmı?**

- Birmənalı şəkildə. O cəsədləri elə-belə vermək olmaz. Yalnız və yalnız girovlarımız qaytarılandan sonra düşmən hərbçilərinin də cəsədlərinin götürülməsinə imkan vermək olar. Mən başqa variantı sadəcə təsəvvür etmirəm və düşünmürəm ki, ayrı qərar vermək olar.



**"Yalnız girovlarımız qaytarılandan sonra düşmən hərbçilərinin cəsədlərinin götürülməsinə imkan vermək olar..."**

YENİ MÜSAVAT
N 284 (5993) 20 noyabr 2014



# Diktatorlar niyə sevilir?

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Uşaqlıq, yeniyetməlik illəri Sovet imperiyasının rənglərinə bürünən kimsə iddia edə bilərmi ki, Lenin haqda şeirləri şövqlə, həvəslə ucadan əzbər deməyib. Ya da Brejnevin adı çəkiləndə insanların əl çalmasını ikrahla qarşılayıb? Kimsə qəhrəmanlıq kimi bunu etmədiyini dilə gətirsə, ən azından dodaqucu gülümsəyəcəksiniz. Biz kommunist ideologiyasının eyforiyası içində böyüyüb, boya-başa çatmışıq...**

Yadınızdadırmı ayda bir kilo ətə, yarım kilo yağa möhtac qalan bir toplum Brejnevin "atalıq qayğısından" necə riqqətə gəlirdi! İndi biz keçmişə yox, tarix bizə gülür. Nə qədər qəribə də olsa, nəyi acı-acı xatırlayırıqsa, bir az fərqli formada, hətta eynilə təkrarlanır...

İndi məktəbə gedən uşağınızın kitablarını götürün, vərəqləyin - sizi heyrət bürüyəcək. Zahiri atributlar dəyişib, mahiyyət isə eynilə qalıb...

Lap elə bu yaxınlarda Leninin Ukraynanın paytaxtı Kiyevdəki əzəmətli heykəli devriləndə Rusiyanın hakim dairələrinin buna necə reaksiya verdiyini də xatırlayın... Axı devrilmiş bir sistemin atributu olan abidə nədən belə əziz idi...

Bakıda şəhərin baş meydanında Leninin heykəlinin necə götürüldüyünün özüm şahidi olmuşam. Onda "Aydınlıq" qəzetinin əməkdaşı idim. Necə sevinc və qürur hissi yaşadığım hələ də yadımdan çıxmayıb. Məhz bu olaydan sonra o meydan Azadlıq oldu və bir toplum kimi bunu gerçək azadlığa qovuşmağımızın rəmzi saydıq...

Amma heykəllərsiz də yaşaya bilmədik. Kitablarda da eyni məzmunlu şerlər əskik olmadı və sonra hər şey pis keçmişin davamı oldu...

Ukrayna xalqına qarşı yönələn aqressivlik ən dözülməz həddə çatanda, bütün meyarları tapdayanda, nə qədər qəribə də olsa, bütün bunların baiskarı olan Rusiya prezidentinin reytinqi ən pik həddə qərarlaşır. İnsanlar dünənəcən dost, qardaş dedikləri bir xalqın yaşadığı faciələr hesabına xoşbəxt olacaqlarına inanırlar.

Elə bu olaylara qədər də məhz Rusiyadakı siyasi hakimiyyətin ən qəddar diktatorları, ən amansız avtoritar rejimləri qətiyyətlə müdafiə etməsi saysız-hesabsız sualları doğurardu. Axı diktatura rejiminin ən qanlı, ən fəlakətli burulğanından keçən, repressiyaların, minlərlə insanın qətlə yetirilməsinin şahidi olan bir ölkə nədən pis keçmişə belə bağlıdır...

Bu sualları təkcə siyasi liderlərə ünvanlamaq da doğru deyil. Ən acı hisslər doğuran da odur ki, insanlar daha xoşbəxt həyat qurmaq yolunda bir balaca çətinliklə üzləşəndə pis keçmişin xiffətini çəkirlər...

Heykəllər isə heç nəyin dəyişmədiyinin təsdiqinə dönür. İstisnasız olaraq, total korrupsiyanın hökmranlıq etdiyi heç bir ölkə şəxsiyyətə pərəstiş mifi yaratmadan yaşaya bilmir. Az qala dahilik mərəzi ilə korrupsiya qaynayıb-qovuşub, onları biri-birindən ayırmaq da mümkün deyil. Yalnız haramın hökmranlıq etmədiyi ölkələrdə miflərə ehtiyac duyulmur...

Şəxsi iddiaları, ailələrinə məxsus şıltaqlıqlar bütün əndazələri aşan Tunisdə Ben Əlini, Liviyada Müəmmar Qəddafini, Misirdə Hüsnü Mübarəki insanlar yana-yana, həsrətlə anırlar. Daha yaxşı, daha üstün, daha ədalətli bir dövlət qurmaq nümunələri var. Bu yolu seçməkdənsə, təzadlı keçmişə qayıtmaq həsrəti düşüncələrə hakim kəsilir...

Ruslar da, biz də korrupsiyanın cilovlandığı cəmiyyət qurmaq, idarəçilik sistemi yaratmağın mümkünlüyünə inanırıq, bir o qədər total talan, oğurluq qarşısında gücsüz olduğumuzu keçmişə bağlı olan nostalgiya ilə etiraf edirik...

Diqqət yetirin, avtoritar rejim statik durumdan fərqlənən hansısa bir addım atanda bunu necə sevinclə qarşılayırıq. Hakimiyyət dairələrinin hamının gördüyü, şahidi olduğu neqativləri aradan qaldıracağına ümid edirik. Amma heç nə dəyişmir. Sora da görürük ki, rejimin əsas qayğısı elə bu vəziyyəti olduğu kimi qorumaqdır. Çünki istənilən yenilik avtoritar idarəçilikdə, diktatorlarda narahatlıq doğurur. Bütün ümidlər tükənəndən sonra xalqlar, toplumlar bax beləcə öz diktatorlarını "sevir". Sonra isə bu "sevgi" heykəllərə dönür.

Diktatorlar var gücləri ilə hökmranlıq etdikləri ölkələri tarixi təkamüldən tədric etməyə çalışırlar. Yalnız onlar dünyadan köçəndən, ya da devriləndən sonra toplumlar geridə qaldıqlarını dərk edirlər.

# Türkiyə hökuməti 2015-ci il erməni iddialarına qarşı ciddi hazırlaşır

**Ermənilər 2015-ci ildə qondarma "erməni soyqırımı" kampaniyasına qarşı hazırlıqlara başlayıblar. Saxta soyqırım iddialarının 100 illiyində Türkiyəyə qarşı bir sıra addımlar atıla bilər. Bunların sırasında Türkiyəyə qarşı təzminat iddiası, eləcə də daha bir neçə dünya ölkəsində "soyqırım"ın tanınması da var.**

Eyni zamanda görünən odur ki, Türkiyə hökuməti də erməni iddialarına qarşı fəaliyyətə başlayıb. Ötən ay baş nazir Davudoğlunun erməni əsilli Türkiyə vətəndaşı Etyen Mahcupyanı özünə baş müşavir təyin etməsi, bundan başqa Türkiyə hökumətinin də dəstəyi ilə "adil hafıza" (ədalətli yaddaş) adlı şəbəkənin yaradılması onu göstərir ki, Ankara 2015-ci il erməni kampaniyasına qarşı "əliboş" çıxmaq fikrində deyil.

Yeri gəlmişkən, bu il aprel ayında Ərdoğanın ermənilərə başsağlığı mesajı və Ermənistan prezidentinin Ankaraya dəvət edilməsi bu mövzuda ardıcıl bir siyasətin olduğunu göstərir. Ankaranın erməni iddialarına qarşı hansı addımları ata biləcəyi sualı ilə müraciət etdiyimiz **politoloq, Ankara Universitetinin doktorantı Orxan Qafarlı** deyir ki, hazırda Türkiyə hökuməti və intellektual dairələrində sözdə erməni iddiaları mövzusu geniş müzakirə olunur. O.Qafarlı deyir ki, keçən ay baş nazir Əhməd Davudoğlunun Etyen Mahcupyanı özünə baş müşavir təyin etməsi əslində Ankaranın bu məsələdə ciddi addımlar atacağından xəbər verir. Ekspert deyir ki, bu mövzuda Türkiyə ictimaiyyətində birmənalı mövqe yoxdur: "Türkiyədə liberal dairələr, türk xalqının öz tarixi ilə üzləşmək lazım olduğunu müdafiə edir. Etyan Mahcupyan Türkiyənin erməni cəmiyyəti ilə barışması üçün bir sıra tezislər irəli sürür. Bunlardan birincisi, tarixi prosesləri ədalətli mühakimə edərək erməni xalqının yaşadığı qətliamın türk xalqı tərəfindən qəbul edilməsini təklif edir. Hələlik Türkiyə rəhbərliyinin Etyan Mahcupyanın bu tezisinə nə qədər isti yanaşdığı sual altındadır. Lakin görünən odur ki, AKP iqtidarı 2015-ci ildə qismən də olsa bu tezisləri qəbul etməyə hazırlaşır. Çünki 2014-cü ildə Ərdoğanın başsağlığı mesajları da belə bir siyasətin olduğundan xəbər verirdi. Digər tərəfdən, Əhməd Davudoğlunun 2015-ci illə bağlı "Adil Yaddaş" layihəsi də eyni xəttin davamı olaraq görünür. Davudoğlunun "Adil Yaddaş" layihəsi çərçivəsində bu gün Türkiyədə QHT fəaliyyəti də formalaşır. Türkiyədə Erməni ictimaiyyəti və diasporu arasında bu mövzuda geniş müzakirələr aparılır. Bəzi məlumatlara görə, 2014-ci ildə baş nazir Ərdoğanın başsağlığı mesajı məhz bu "Adil Yaddaş" projesinin bir parçasıdır. "Yeni Türkiyə" layihəsinin də əsas məqsədi keçmişlə hesablaşaraq Türkiyə içərisində və xaricində olan ermənilərlə barışmaq məqsədi güdür".

## Orxan Qafarlı: "Türkiyə keçmişlə hesablaşaraq ermənilərlə barışmaq istəyir"



Orxan Qafarlı

**O.Qafarlı deyir ki, "Sürix protokolları"ndan və ya "Futbol diplomatiyasının" uğursuz nəticələnməsindən sonra AKP iqtidarı Dağlıq Qarabağ, Ermənistan-Türkiyə sərhədlərinin açılması və sözdə "erməni soyqırımı" məsələsini hamısını birdən həll etmək niyyətindən vaz keçib. Ekspertin fikrincə, indi Ankara bu üç məsələni ayrı-ayrılıqda həll etməyi düşünür:** "2008-2009-cu illərdə Azərbaycanla Türkiyə arasında münasibətlərdə yaşanan gərginlik və Sürix protokollarının uğursuzluğu əsas problemin də məhz bunları birlikdə həll etmək cəhdləri olduğunu göstərdi. Türkiyə hökumətinin 1915-ci il hadisələri ilə bağlı ayrı strategiyası bu şəkildə formalaşıb. Mümkün qədər Azərbaycana aid olan Dağlıq Qarabağ problemini ayrı şəkildə həll etməyə çalışırlar".

**O.Qafarlının fikrincə, bu prosesdə ən ciddi məqam 2015-ci ildə Türkiyə hökuməti tərəfindən belə bir siyasətin baş verməsinə Bakının münasibəti olacaq:** "Azərbaycan erməni iddialarına qarşı hər zaman müdafiə xarakterli siyasət yürüdüb. Azərbaycan siyasəti daha çox erməni iddialarında cavab xarakterli olub. Bu da Azərbaycanla Türkiyə arasında erməni məsələsində strategiya fərqinin olduğunu göstərir".

❑ Kənan RÖVŞƏNOĞLU

**Doğru söhbətdir. İndi mən durub gözəl poema yazan, amma qonorarı verilməyən Firdovsinin, təqaüdü kəsilən Füzulinin, dərisi soyulan Nəsiminin, repressiyaya məruz qalan və çoxlu qəm yeyən digər şairlərin adlarını yazaraq siyahı təqdim edə bilərəm. Amma buna lüzum yoxdur.**

Samir SARI



# "Şair olan qəm də yeyir"

## Şair Səməd Vurğun hələ 60 il bundan əvvəl deyib ki, nemətsə də gözəl şeir, şair olan da qəm yeyir...

Zatən, şairlərin Yessentukidə, Peredelkinoda, Yaltada, Karlovı-Varıda "doktorski" kolbasa yeyən vaxtları, türkün sözü, məzidə qalıb, indi onlar əksəriyyət etibarı ilə qəm, kədər, bir sözlə, əllərinə nə düşdü, yeyirlər.

Amma son vaxtlarda parlayan iki şair var ki, onların problemi başqa cürdür.

Şairlərdən biri tanınmış müğənni-bəstəçi Elza Seyidcahandır. Xanım poeziya aləminə yeni qədəm basıb və açığı, ədəbiyyat düşərgəsini əməlli-başlı silkələyib. Düzdür, bəzi yoldaşlar, qardaşlar hesab edirlər ki, Elza xanımın şeirlərində, Nekrasov deməşkən, poeziya gecələməyib, guya ki, o şeirlərdə poeziyanın "p"si, şeirin "ş"si yoxdur, amma bunlar subyektiv fikirlərdir.

Yəqin ki, xanım özü başqa fikirdədir, onu bu misraları yazmağa vadar edən səbəblər var, yoxsa ağıllı-başlı adama nə düşüb ki, o cür şeirlər yazsın və hələ bunu da sosial şəbəkələrdə paylaşsın.

İndinin şeirləri də belədir, arkadaşlar. Getdi əruz dövrü. Əruz zamanın korroziyasına məruz qaldı. Gəraylı, müxəmməs, qoşma dövrü də bitib. İndi heç kəs özünə əziyyət verib dodaqdəyməz yazmaz. Həm də nə mənası var axı. Qoy şeir oxuyanda dodaqlar bir-birinə dəysin, amma şeirin də mənası olsun. Əslində heç indilərdə qafiyə, vəzn, heca hərləyən də yoxdur, hamı guya ki, mənalı poetik misralar hayındadır. Hərçənd axtaranda dərin məna da tapa bilmirsən.

Bax, belə bir ortamda Seyidcahanın şeir yazması qəribə deyil, təbiidir. İmkan verin, yazsın, içini töksün, duyğularını dilə gətirsin, hisslərini camaata duyursun. Yoxsa hərə bir şey yazır, etiraz edir, qoymurlar hörmətli müğənni talantını cilalasın. Kim bilir, bəlkə o bir gün öz yazdığı şeirlərə gözəl musiqi bəstələyəcək - Sezen Aksu kimi... Yəqin ki, Sezen xanım da təzə başlayanda onun kimi el üzünə qoyulmayası şeirlər yazıb, amma zamanla püxtələşib və belə misralar qələmə alıb: "Şimdi bana kayb olan yıllarımı versələr", "Sən də mənim hatalarımdan birisin, ... sən ən gözəl duyğuların katilisin" -filan.

Şeir yazmağa başlayan ikinci şəxs də bəstəçidir. Onun populyar mahnılarını bilirsiniz, amma Hüseyn Abdullayev bugünlərdə sosial şəbəkələrdə və onların vəsiləsiylə mediada bir möhtəşəm şeir paylaşıb.

Düzü, həmin şeiri özüm dinləməmişəm, amma deyirlər, siyasi səciyyəli şeir olub, yəni misraların içində poeziya gecələsə də, gecələməsə də, onun müəllifi istəyib ki, nəzm əsəri üsyankar xarakterli olsun.

Yeri gəlmişkən, güman ki, Nəsimi "Ey bülbüli-qüdsi, nə giriftari qəfəssən, sındır qəfəsi, təzə gülüstan tələb eylə" misralarını yazanda bülbülü qanunsuz hərəkətlərə, ictimai əmlaka (qəfəsə) zərər yetirməyə təhrik etdiyini bilmədiyi üçün başına o işlər gəlib. Yeni şeirşünasların dediyinə görə, gərək şeirdə çağırış olmasın. Olanda adamın özünün əmlakını gəlib uçururlar, ya da elə edirlər ki, özü uçur.

İndi budur, xəbər yayılıb ki, hazırda Almaniyada mühacirətdə olan Hüseyn Abdullayevin şəhərin mərkəzindəki ofisini uçurublar. Fəhlələr isə deyirlər ki, bina qəfildən uçub. Özü. Dik durduğu yerdə.

Əslində inşaat sektorunda belə fenomenal hadisələr olur. Bina qocalır, köhnəlir, zəifləyir, o hala çatır ki, onun damına hansısa quş (lap deyək ki, bülbüli-qüdsi) qonan kimi bina uçur. Amma bu o demək deyil ki, binanı quş uçurdu. Yox, bina özü uçmağa bənd idi, ona görə uçdu. Amma bir də var, Əlincə qalası kimi möhkəm bir binanı ekskavatorun çalovuşunun ağzına verib uçurasan.

Ehtimal olunur ki, həmin ofis, yəni "Əmrahbank"ın yerləşdiyi bina məhz bir şeirin güdazına gedib.

Sonra da deyirlər, indiki zamanda şeir oxuyan yoxdur. Yanlış! Hətta "indi güclü şeir yazan yoxdur" da deyirlər. Bu da yanlış. Təcrübə bir daha göstərdi ki, gözəl şeir nemətdir, bir şeirlə ev qurmaq mümkün deyilsə də, bir şeirlə ev yıxmaq olar.

**Noyabrın 17-dən 18-nə keçən gecə 01.15 radələrində Bakının Nərimanov rayonunda yol polisi əməkdaşı xidməti borcunu yerinə yetirərkən ağır xəsarət alıb. İnsident Xətai prospekti, 40 saylı evin yanında baş verib. İstintaq tərəfindən Namiq Xanəliyeva məxsus, "Toyota Prado"nun müəyyən edilməyən sürücüsü yol hərəkət qaydalarını pozub, buna görə dövlət yol polis əməkdaşı, 1979-cu il təvəllüdlü Hüseynov Əbuzər Cəbrayıl oğlu tərəfindən saxlanılıb.**

# Yolun anasını "ağladanlar"



# "Avtoş"lar barədə bilmədiyimiz gerçəklər

## Onlar alkoqolun satılmamasına etiraz olaraq ortaya çıxıblar və indi...

Polis sənədləri yoxlamaq üçün əlini açıq pəncərədən içəri salarkən sürücü qəfil pəncərənin şüşəsini qaldırıb və asayiş keşikçisinin əlini sıxıb. Qaydanı pozan qaza basıb. Bu vəziyyətdə polisi bir neçə metr sürükləyib. Hüseynov əlini güclə çıxarıb, sürücü isə hadisə yerindən uzaqlaşıb. İnspektor ağır xəsarət alıb, dirsəyi sınıb və DİN-in hospitalına çatdırılıb...

Bu, Azərbaycan mediasında "avtoşlar"la bağlı yer alan çoxsaylı xəbərlərdən biridir. Amma etiraf etmək lazımdır ki, hələ beləsi olmamışdı. Avtoxuliqanların gecə macəraları, yarışları, əməlləri zaman-zaman medianın gündəminə gəlir. Yol polisinə bu cür xəsarət isə ilk dəfə idi.

**Avtoşlar maşınlarını xüsusi olaraq yığdırır**

**"Yeni Müsavat" Bakı yollarının "qatilləri" ilə bağlı maraqlı bir gəzişmə etdi. Hətta onlardan birini adının çəkilməməsi şərti ilə danışdıra bildi. Şərti adı Eldəniz olan avtoşun 21 yaşı var. 15 yaşından etibarən maşın sürür:** "Maşın sürməyi 13 yaşımda atamdan öyrənmişəm. Onun "Mercedes"ində öyrəndim. Sonra gecələr maşınını tez-tez oğurlayıb sürürdüm. Bir-iki dəfə ora-bura sürtdüm, atam duyuq düşdü, gecələr açarı gizlətdi. 15 yaşım olanda atamla əmim mənə "06" aldılar. Məktəb evimizə yaxın idi, ora maşınla gedib-gəlirdim. Paralel sinifdəki uşaqlardan bir neçəsində də maşın vardı, başladıq gecələr ötüşməyə. İnternetdəki avtoş videolarına baxıb, "tryukları" öyrəndim".

Müsahibimiz deyir ki, "avtoş"un maşını digər maşınlardan yerlə-göy qədər fərqlənir. Ümumiyyətlə, "avtoş"lar öz maşınlarını xüsusi olaraq yığdırırlar: maşının "burnu"nu yuxarı qaldırırlar, arxa yaylar isə iki barmaq kəsilir. Disklər, pərdə və xüsusi siqnal da "avtoş"un "avtoş" olduğunu sübut edən faktlardandır.

Eldənizin sözlərinə görə, bir maşını "avtoş maşınına" çevirmək üçün 1500-2000 manat lazımdır. Onun estetikasını isə ustalar yaxşı bilirlər. Və daha bir incəlik. "Avtoş"lar çalışırlar ki, onların maşınları ağ, göy, qara rəngdə olsun. Bu, onların "yazılmamış qanunlar"ı sırasındadır.

Və hamının bildiyi o gerçək. Avtoxuliqanlar bir qayda olaraq VAZ-2107 markalı maşın seçirlər. Buna səbəb həmin maşının azçəkili olmasıdır. Belə ki, xarici maşınlar daha ağır çəkilidir və onlarla rahat manevr etmək mümkün deyil. Yaxşı "avtoş" eyni zamanda maşını "xurd-xəşil" olacağı təqdirdə onun taleyini də düşünənlərdəndir. Eldənizin sözlərinə görə, "avtoş"lar sıradan çıxan maşın hissələrini bərpa etmək baxımından sovet maşınlarını tərcih edir. Çünki onların hissələri xarici maşınlarla müqayisədə ucuzdur.

**Yaxşı "avtoş" meyxana dinləyər, ay brat...**

**"Avtoş"lardan danışıb, onların stilindən yan keçmək günah olar. Onlar daha çox qara rəngli geyimlərə, eynək taxmağa üstünlük verir. Pəncərələrini yay-qış ‍demədən açıq qoymaq, yüksək səslə musiqi dinləmək də bu stili "bəzəyən" detallardandır. Və musiqi demişkən, "avtoş"lar daha çox meyxanaya və Üzeyir Mehdizadəyə üstünlük verirlər. "Ponyatka" isə "avtoş"ların ən vacib silahıdır. Eldənizin dediyinə görə, yaxşı "avtoş" heç zaman qadın sürücülərə problem yaratmır:** "Qadınlara həmişə güzəşt eləmək lazımdır. Çünki onlar da hardasa yaxşı bir oğlanın həyat yoldaşıdır. Bir də yaşlı sürücüləri qorxutmaq olmaz. Bizim əslində heç kimə ziyan vermək fikrimiz yoxdur. Sürətli maşını ancaq boş yollarda sürürük, enerjimizi çıxarırıq. Adam öldürən deyilik ki..."

Söhbət zamanı öyrəndik ki, "avtoş"ların ən sevimli məkanları Heydər Əliyev, Azadlıq prospektləri, Nobel, Bakıxanov, Füzuli küçələri, Dağüstü parkdır. Daha bir incəlik. "Avtoş"ların leksikonunda "qırmaq" sözü var ki, onun mənası xeyli dərindir. Belə ki, "avtoş"lar adətən ötmə zamanı öz rəqiblərini çaşdırmağı və özlərinin yaxşı tanıdıqları əraziyə aparmağı sevirlər. Bu zaman rəqibini çaşdırmaq və azdırmaq ehtimalı da var ki, uğur onlarda olur.

**Bizim məşhur "avtoş"lar**

Keçək Azərbaycandakı məşhur "avtoş"lara. 2013-cü ilin martında Bakı şəhərinin Suraxanı rayonunda, Zığ yolu şossesində ağır yol-nəqliyyat hadisəsi baş verdi. Hava limanı istiqamətində hərəkətdə olan "Mercedes Galendewagen" markalı minik maşını idarəetmədən çıxaraq Azərbaycanın mahir tar ifaçısı, xalq artisti Ağasəlim Abdullayev və ailə üzvlərinin də içində olduğu "VAZ 2106" markalı minik maşınına çırpıldı. Qəza nəticəsində "VAZ 2106" da olan sərnişinlər, xalq artistinin həyat yoldaşı Brilliant Abdullayeva hadisə yerində, azyaşlı nəvəsi Ağasəlim Abdullayev xəstəxanaya aparılarkən yolda dünyasını dəyişdilər. Xalq artisti Ağasəlim Abdullayev, oğlu Vüqar Abdullayev və gəlini Səadət Abdullayeva isə müxtəlif dərəcəli bədən xəsarətləri aldılar.

2014-cü ilin aprel ayında Bakının Zığ şossesində *(aeroport yolu)* iki avtomobilin həddən artıq yüksək sürətlə yarışa çıxdığını əks etdirən video yayıldı. Araşdırma nəticəsində məlum oldu ki, avtomobillərdən birinin sahibi Yevlax gömrüyü rəisinin oğlu, DİN-də işləyən Tural Həsənovdur. Gömrük məmurunun oğlu Tural Həsənov 20 sutka azadlıqdan məhrum edildi və polis sıralarından qovuldu.

İkinci sürücü Nicat Məmmədov isə Bərdə Rayon İcra Hakimiyyəti başçısının müavini İlham Məmmədovun oğlu idi. Hadisədən sonra onun da atası postundan uzaqlaşdırıldı.

**Amerikada spirtli içkinin satışına qadağa qoyuldu, "avtoş"luq yarandı**

İnternetdəki gəzişmələrimiz zamanı aydın oldu ki, dünyada bu sahənin adı "street racing" - küçə ötüşmələri adlanır.

Sözügedən məşğuliyyət 1930-cu ildə Amerikada yaranıb. Özü də maraqlı səbəbdən. ABŞ-da alkoqola qoyulan qadağaya etiraz olaraq küçələrdə "avtoş"ların yarışı təşkil olunub. Amma zaman keçdikcə bu ötüşmələr qeyri-qanuni küçə idmanına çevrilib. Bir qayda olaraq, bu ötüşmələr ictimai yollarda keçirilir. Bəzi hallarda isə planlaşdırılmış aksiyalar kimi də təşkil olunur.

"Avtoş"lar müəyyən kateqoriyaya bölünürlər.

Birinci kateqoriyaya "street-racer"lər - küçələrdə şütüyənlər - aiddir. Onlar üçün başlıca şərt sürət deyil. Burada əsas məsələ avtomobili maşınların arası ilə ("sağ-sol") məharətlə şütütməkdir. Onlar 180-360 dərəcə bucaq altında dönmək, səkilərə dəymədən "parkovkalamaq" vərdişinə yiyələnirlər. Bura həmçinin "drif-finq" - sərt döngələri kəsmək də daxildir.

İkinci kateqoriyaya "speedenqlər" - sürətsevərlər daxildir. Yəni onlar mümkün qədər maşın az olan şosse tapıb, orada qazı axıra qədər sıxıb maksimal sürət yığırlar.

Üçüncü kateqoriyaya isə "draggerslər" aiddir. Onların əsas məqsədi 400 metrlik məsafədə sürəti 0-dan 170-180 dərəcə kilometrə çatdırmaqdır...

**Qanunlar, "avtoş"lara cəzalar - 400 manatdan 800 manata qədər...**

Yaxşı, bəs qanunlar bu haqda nə deyir? Azərbaycan Respublikasının qanunvericiliyində avtoxuliqanlıqla bağlı cəzalar nəzərdə tutulub: Avtoxuliqanlıq, yəni nəqliyyat vasitəsinin sürücüsü tərəfindən ictimai qaydanı və əhalinin dincliyini nümayişkaranə şəkildə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, yol hərəkəti qaydalarının müxtəlif üsullarla davamlı olaraq, pozulması ilə müşayiət olunan qərəzli hərəkətlərə görə - nəqliyyat vasitələrinin idarə etmək hüququ bir ilədək müddətə məhdudlaşdırılmaqla 400 manatdan 600 manatdək cərimə edilir və ya nəqliyyat vasitələrinin idarə etmə hüququ bir ilədək müddətə məhdudlaşdırılmaqla işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla on günədək inzibati həbs tətbiq olunur. Eyni hərəkətlərin il ərzində inzibati tənbeh almış şəxs tərəfindən təkrar törədilməsinə görə nəqliyyat vasitələrini idarə etmək hüququ bir ildən iki ilədək müddətə məhdudlaşdırılmaqla 600 manatdan 800 manatadək cərimə edilir və ya nəqliyyat vasitələrinin idarəetmə hüququ bir ildən iki ilədək müddətə məhdudlaşdırılmaqla işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş günədək inzibati həbs tətbiq olunur.

❑ **Sevinc TELMANQIZI**

# İŞİD-çiyə qız verməyən ailə qətlə yetirilib

## İraq İnsan Haqları Təşkilatının məlumatına görə, İŞİD komandiri Camal Səddama 14 yaşlı qızlarını ərə verməkdən imtina edən iraqlı ailənin 5 üzvü öldürülüb, qız isə qaçırılıb



**İraqda qızlarını İŞİD komandirinə verməkdən imtina edən ailənin bütün üzvləri qətlə yetirilib. Türkiyənin "On4haber" saytının məlumatına görə bu barədə İraq İnsan Haqları Təşkilatı məlumat yayıb. Təşkilatın məlumatında bildirilir ki, bazar ertəsi günü İŞİD yaraqlıları 5 nəfərdən ibarət iraqlı ailəsini qətlə yetirib.**

Ailənin qətlə yetirilməsinin səbəbi isə 14 yaşlı qızlarını İŞİD komandirlərindən birinə ərə vermək istəməməsi olub. Təşkilatın hesabatında qeyd olunur ki, 14 yaşlı qızın valideynləri qızlarını İŞİD komandiri Camal Səddama ərə verməkdən imtina etdikdən sonra atan və ana daxil olmaqla, ailənin 5 üzvü qətlə yetirilib. 14 yaşlı qız isə İŞİD yaraqlıları tərəfindən naməlum istiqamətə aparılıb.

Saytın məlumatında bildirilir ki, İŞİD Kərkük əyalətinin şimalında keçmiş Kənd Təsərrüfatı Nazirliyinin binasında qadın xəstəxanası yaradıb. Bunun səbəbi isə son zamanlar yayğınlaşan "cihad nikahı" göstərilir.

Qeyd edək ki, Camal Səddamın adı son günlərdə daha çox hallanmağa başlayıb. Daha əvvəl başqa qruplaşmada olan və sonradan İŞİD-ə qoşulan bu şəxsin narkotik alverçisi olduğu deyilir, eyni zamanda adı İŞİD lideri əl-Bağdadinin yerinə əsas namizədlərdən biri kimi hallanır.

❑ **müsavat.com**

# Müğənni Rəqsanədən rəqiblərinə şəkil hədəsi

## Müzəffər Baxışov: "Əgər şəkilləri şantaj məqsədilə yayıb pul tələb edirlərsə, bu, artıq cinayət əməlidir..."



**Bir neçə gün öncə müğənni Rəqsanə İsmayılova "10-lar" verilişində onun oğurlanan şəkillərini yaymaq istəyənləri hədələyib. O bildirib ki, onun açıq-saçıq şəkilləri 2 il əvvəl elə yaxın adamı tərəfindən oğurlanıb. İndi isə həmin şəkilləri satmaq üçün çalışırlar.**

Müğənni şəkillərini yaymaq istəyən adamları məhkəməyə verəcəyi ilə hədələyib: "Şəkil mənim işim, ya da layihələrimə xətər gətirməyəcək. Allaha şükür ki, çəkinəcəyim, gizli heç nəyim yoxdur. Sadəcə, o şəkillər mənim şəxsi fotolarımdır. Götürmüsən, bir neçə adama vermisən. Həmin adamlar da jurnalistlərə zəng edirlər ki, Rəqsanənin şəkli var. 4-7 minə satışa çıxarmısınız. O şəkillər kimin əlində tutulsa, cinayət məsuliyyətinə cəlb olunacaq".

Xatırladaq ki, bir neçə il əvvəl müğənni Röya da illər öncə çəkdirdiyi şəkilləri yayan jurnalistləri, saytları məhkəməyə verməklə hədələmişdi. Maraqlıdır ki, onların bu hədə-qorxularının hüquqi əsası varmı?

**Hüquqşünas Müzəffər Baxış əgər şəkillər hədə-qorxu məqsədilə yayılırsa, bunun hüquqi əhəmiyyət kəsb etdiyini bildirdi:** "Əgər şəkillər həqiqəti əks etdirirsə, onun razılığı əsasında çəkilibsə və bu şəkillərin yayılmasında heç bir məqsəd yoxdursa, burada heç bir cinayət halı ola bilməz. Yox, onun razılığı olmadan, gizli şəkildə çəkilibsə, o yayılmamalıdır. Bu, konstitusiyanın 32-ci maddəsinin tələblərinin pozuntusudur. Ona görə müəyyən olunmalıdır ki, bu şəkilləri yayan şəxs hansı məqsədlə yayır. Bəlkə onu şantaj etmək məqsədilə yayıb pul tələb edirlər. Bu, artıq Cinayət Məcəlləsinin 182-ci maddəsində hədə-qorxu ilə tələb etmə cinayətinin əlamətlərini yaradır. Əgər heç bir məqsəd güdmədən gizli olaraq şəkillər çəkilibsə, bu, onun şəxsi həyatının toxunulmazlıq hüququnun pozulmasıdır və Cinayət Məcəlləsinin 157-ci maddəsində cinayət məsuliyyətinə cəlb olunan bir əməldir. Əgər müğənni özü əvvəllər bu şəkilləri yayıbsa, indi də bunu hansısa jurnalistlər götürüb yayarsa, burada heç bir cinayət məsuliyyətindən söhbət gedə bilməz".

❑ **Günel MANAFLI**



# Nazənin Təranə Qumralı məhkəməyə verdi

**"Onun haqqında heç nə danışmaq istəmirəm, sözümüzü məhkəmədə deyəcəyik". Bu sözləri müğənni Nazənin həmkarı Təranə Qumralla bağlı "Yeni Müsavat"a danışarkən deyib. O bildirdi ki, qarşı tərəf onun haqqında mətbuatda və TV efirlərində şəxsiyyətini, mənəviyyatını açaldan hərəkətlərə yol verdiyi üçün bu cür addim atmağa məcbur olub: "Məhkəmə iclası dekabrın 1-nə təyin edilib. Tərənənin etdiklərinə başqa cür deyil, yalnız məhkəmə yolu ilə cavab verəcəm. Başqa heç nə deyə bilmərəm. Vəkilim bu barədə məhkəmə olanadək susmağımı məsləhət görüb və hər hansı bir açıqlama verməyimə qarşıdır".**

Müğənni şikayətinin Nərimanov Rayon Məhkəməsinin hakimi Kəmalə Əmirxanovun icraatına verildiyini deyib.

Qeyd edək ki, bir müddət əvvəl iki müğənni arasında böyük qalmaqal yaşanmışdı. ANS TV-nin canlı efirində Tərənə Qumral əri Musa Musayevlə olan ailə davasında Nazənini günahlandıraraq həmkarını tənqid və təhqir etmişdi. Bunun qarşılığında Nazənin telefon əlaqəsi yaradaraq Tərənə Qumralı məhkəmə ilə hədələmişdi.



# Ağcabədidə 54 nəfərə qarşı seksual zorakılıq edən şəxs tutulub

**İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri, hüquq müdafiəçisi Elçin Behbudov və müavini Bəhmən İmanov Zərdab, Ağcabədi, Beyləqan, Horadiz, İmişli, Saatlı, Sabirabad rayon polis şöbələrinin müvəqqəti saxlanma yerində monitorinq keçiriblər.**

E. Behbudovun APA-ya verdiyi məlumata görə, monitorinq zamanı ciddi nöqsanla qarşılaşmayıblar:

"Monitorinq zamanı qeyri-insani rəftar, işgəncə, saxlanma şəraiti ilə bağlı bizə müraciət edən olmadı. Bütün polis şöbələrində saxlanma yerləri televizor və şəhər telefonları ilə təmin olunub. Füzulidə olarkən icra başçısı Alı Alıyev də bizi qəbul etdi. Şəhərdə aparılan abadlıq, quruculuq işlərindən, insan hüquq və azadlıqlarından söhbət etdik. Orada olan bir neçə hərbi hissəyə baş çəkdik. Hərbi hissələrdə şərait yüksək səviyyədədir. Mən müdafiə naziri Zakir Həsənovla görüşəndə bildirmişdim ki, bəzən hərbçilər adi bir məsələyə görə həbs olunurlar. Bu cür xətalar yaxşı olar ki, başqa cəza növü ilə cəzalandırılsın. O da mənə söz vermişdi ki, bunun qarşısı alınacaq. Bu gün keçirilən monitorinq zamanı bu məsələ ilə də maraqlandıq. Məlum oldu ki, hərbçilərin həbslə cəzalandırılması, hər yüngül cəzaya görə həbsə göndərilməsi kimi hallar artıq baş vermir".

**E.Behbudov Ağcabədi Polis Şöbəsində olarkən bir nəfər təqsirləndirilən şəxslə görüşdüklərini də bildirib:** "1968-ci il təvəllüdlü Gülmalıyev Əli Gülmalı oğlu ilə görüşdük. Həmin şəxs Cinayət Məcəlləsinin 150.1-ci (seksual xarakterli zorakılıq hərəkətlər etmə) maddəsinə əsasən təqsirləndirilir. O, 54 nəfəri zorlamaqda günahlandırılır. Onlardan səkkizi azyaşlı oğlan uşaqları, qalanları isə gənclərdir. Özünü bir neçə epizod üzrə təqsirli bilir".

# Azərbaycan ən viruslu ölkələr üçlüyündə...

**Azərbaycanda istifadəçilərin 43,50 faizi internet vasitəsilə virusa yoluxma riski ilə üzləşib. "Trend"in məlumatına görə, bu barədə "Kasperski laboratoriyası" şirkətinin saytında dərc edilən 2014-cü ilin üçüncü rübünün yekunları üzrə "İnformasiya təhlükələrinin inkişafı" icmalında deyilir. İcmala görə, cari ilin II rübü ilə müqayisədə bu göstərici 6,2 faiz artıb.**

İcmala əsasən, Azərbaycan internet vasitəsilə virusa yoluxma riskinə daha çox məruz qalan 20 ölkə arasında üçüncü yeri tutur. TOP 10-na 46,68 - 30,05 faizlə daxil olan ölkələr - Rusiya, Qazaxıstan, Azərbaycan,Ermənistan, Ukrayna, İran, Vyetnam, Belarus, Moldova və Əlcəzairdir.

Ən böyük yoluxma riskinə məruz qalmış ölkələrin iyirmiliyinə həmçinin Tacikistan, Qırğızıstan, Monqolustan, Qətər,Özbəkistan, Gürcüstan, Türkiyə, BƏƏ, İndoneziya və Almaniya daxildir. İnternet istifadəçilərinin riskə daha az meyilli olduqları ən təhlükəsiz ölkələr sırasına daxildir: Sinqapur (10,5 faiz), İsveç (12,4 faiz), Danimarka (13.2 faiz), Yaponiya (13,3 faiz), CAR (16,0 faiz), Finlandiya (16,1 faiz) və Niderland (16,6 faiz).

Dünyanın müxtəlif ölkələrində istifadəçilərin kompüterlərinin internet vasitəsilə məruz qaldığı virusa yoluxma riskinin dərəcəsini qiymətləndirmək üçün şirkət bir rüb ərzində hər bir ölkədə istifadəçinin veb-antivirusunun neçə dəfə işə düşdüyünü hesablayıb.

2014-cü ilin III rübündə "Kasperski laboratoriyası" dünyanın müxtəlif ölkələrinə yerləşdirilmiş internet resurslardan həyata keçirilən 367 mindən çox hücumu dəf edib.

Göstərilən dövr ərzində antivirus həlləri istifadəçilərin kompüterində təqribən 1,3 milyard virus hücumu aşkarlayıb. İstifadəçilərin kompüter və mobil qurğularında bloka alınmış zərərli hücumların sayı 26,6 milyonu ötüb.

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

**Elan**

**Əkbərov Orxan Mirzə oğluna (Şəxsiyyət vəsiqəsinin seriyası AZE N-14609827) məxsus Nizami rayonu Tofiq Abbasov 26, mənzil 14-ün kupçası itdiyi üçün etibarsız sayılır.**

**Elan**

**Azadlıq prospekti, ABŞ səfirliyi və Nəsimi Rayon Polis İdarəsinin yanında, 12 mərtəbəli binanın 4-cü mərtəbəsində, 90kv.m.-lik 3 otaqlı mənzil satılır. Sahibindən.**
**Telefon: (050) 3885035**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*
*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*
- İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- Sözləri əzbərləmədən deyil onları istifadə edərək öyrənmək!
- Danışarkən sürətli qrammatika bilgisi əldə etmək!
- Əla tələffüz və güvənlə danışmaq
- Real ingiliscə söhbətlər

BONUS English EXPLOSION
dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

YENİ MÜSAVAT
N 284 (5993) 20 noyabr 2014







# Parkinqlərdə yığılan pullar kimin cibinə gedir?

## Natiq Cəfərli: “Heç bir əsaslandırma yoxdur ki, 1 saatlıq parkinqin qiyməti niyə 1 manatdır?”

**Ötən ilin aprel ayından başlayaraq Bakıda tıxacların qarşısını almaq və avtomobillərin pərakəndə şəkildə park edilməsini önləmək məqsədilə parkinq avtomatları quraşdırıldı. Bu aparatlar quraşdırılarkən bir saatlıq park etmənin qiymətinin 30 qəpik olacağı deyilsə də, qısa müddət ərzində qiymət qaldırıldı. Hazırda bir saatlıq parkinqin qiyməti 1 manat, 2 saatlıq 2 manat, 3 saatlıq 3 manat, 4 saatlıq parkinqin qiyməti isə 4 manatdır. Şəhərdə eyni yerdə 4 saatdan artıq avtomobil saxlamaq isə qadağandır. Sürücülər bu avtomatlar quraşdırılandan sonra parkinq qiymətlərinin bahalaşmasından narazıdırlar.**

Bəs bu qiymətlər necə müəyyən olunur?

Bunu hansı dövlət qurumu tənzimləyir və yığılan vəsaitlər haraya köçürülür? Xarici təcrübədə parkinq avtomatlarının quraşdırılmasının Azərbaycandakı durumdan fərqi nədir?

“Yeni Müsavat”a açıqlamasında bu sualları cavablandıran **Nəqliyyat Təhlükəsizliyi Araşdırmaları və Tədqiqatlar Mərkəzinin rəhbəri İlqar Hüseynli** bildirdi ki, parkinq avtomatlarının quraşdırılması çox vacib bir addım olsa da, bunun tənzimlənməsi lazımi səviyyədə həyata keçirilmir: “Parkinq avtomatlarının quraşdırılması insanların avtomobillərini park etmək imkanlarını artırmaqla yanaşı, bu sahədə olan narahatlıqların da qismən aradan qaldırılmasına xidmət etmiş oldu. Bu, istehlakçıların xeyrinə olan bir addım oldu. İnsanlar çox zaman avtomobillərini qadağan olunmuş işarələr altında saxlayırdılar, buna görə cərimə ödəməli olurdular, bu sahədə kifayət qədər problem var idi. Təbii ki, parkinq avtomatlarının quraşdırılmasını da tam peşəkar saymaq olmaz. Bəziləri elə yerlərdə quraşdırılıb ki, onlara həmin yerdə ehtiyac yoxdur. Təbii ki, ölkə büdcəsinə daha çox vəsait daxil olması üçün parkinq avtomatlarının sayının lazım olandan artıq quraşdırıldığı da müşahidə olunur. Hətta elə yerlərdə quraşdırılıb ki, həmin yerlərdə tıxacların yaranmasına və nəqliyyatın hərəkətinin məhdudlaşdırılmasına səbəb olur”.

**Nəqliyyat eksperti onu da qeyd etdi ki, dünən də bu məsələ Bakı Şəhər Yol polis İdarəsinin əməkdaşları tərəfindən müzakirə olunub və 80 parkinq avtomatının ehtiyac olmayan yerlərdə quraşdırıldığı müəyyən edilib:** “Artıq həmin avtomatların sökülməsi üçün tədbirlər görülür. Amma söhbət vəsaitin hara yönəlməsindən gedirsə, məncə, bu vəsait Bakı Şəhər İcra Hakimiyyətinin müvafiq strukturu tərəfindən aparılır. Bu proses şəffaf olmalıdır”.

**İlqar Hüseynlinin fikrincə, bu prosesdə ən ciddi məqam odur ki, bu parkinq avtomatlarına nəzarət edən şəxslər bəzən özləri “xaltura” ilə məşğul olurlar:** “Orada dayanan maşınlardan biri gedəndən sonra onların çeklərini yığıb yeni gələn sürücülərlə sövdələşməyə girirlər, standart məbləğdən daha aşağı qiymətə həmin çeki satırlar və özləri də bu prosesə nəzarət edirlər. Bu da həmin vəsaitlərin büdcədən yayınmasına gətirib çıxarır.

Sual doğurur ki, bu prosesə necə nəzarət olunmalıdır ki, nəzarətçinin özü bu cür yollara əl atmasın. Məncə, bu şəxslərin orada dayanmasına birmənalı olaraq icazə verilməməlidir. Təbii ki, parkinq avtomatlarının bugünkü ödəniş qiymətləri Azərbaycan vətəndaşlarının büdcəsinə uyğun deyil. Qiymətlər həddindən artıq bahadır. Əgər bu qiymətlər azaldılsa, avtomobili 1 saatlıq park etməyin qiyməti 50 qəpikdən müəyyən olunsa, o zaman sürücülərin bu sövdələşmələrə getməsinə də ehtiyac qalmaz və bütün vəsait büdcəyə yönələr. Hazırkı qiymətlərlə hesablasaq, əgər bir şəxs gün ərzində şəhərin müxtəlif yerlərində 3-4 dəfə avtomobilini park etmək məcburiyyətində qalırsa, bu həmin şəxs üçün gündəlik 7-8 manat vəsaitin xərclənməsi deməkdir, bunu bir ay üçün hesablasaq, təxminən 200-230 manat edir".

**İqtisadçı ekspert Natiq Cəfərli də bildirdi ki, parkinq avtomatları Bakı Şəhər İcra Hakimiyyətinin birbaşa nəzarətində olduğu üçün yığılan pullar da bu qurumun büdcəsinə daxil olur:** “Bakı Şəhər İcra Hakimiyyəti onu ASC və ya MMC kimi qeydiyyatdan keçirməlidir, ancaq bununla bağlı da hər hansı məlumat yoxdur. Bakı Şəhər İcra Hakimiyyəti bu yığılan pullardan vergi də ödəməli və yığımların həcmi ilə bağlı məlumat da verməlidir. Ancaq təəssüf ki, bu haqda dəqiq bir məlumat almaq mümkün deyil”.

**Ekspert qeyd etdi ki, dünya təcrübəsində bu çox fərqli şəkildə tənzimlənir:** “Bir çox ölkələrdə parkinq axşam saat 23:00-dan səhər saat 08:00-a kimi pulsuzdur. Bunun da öz məntiqi var, iş vaxtı avtomobilləri park etməklə gediş-gəlişə çətinlik yaradılmasının qarşısı alınır. Bir çox şəhərlərdə bayram günləri pulsuzdur. Bəzi yerlərdə abunə sistemi var, bu işlə məşğul olan şirkətlə ucuz və endirimli qiymətlə aylıq abunə olursan və kart vasitəsilə ödəyirsən. Bu qoyulan qiymətlərin necə əsaslandırılması haqqında hər hansı iqtisadi araşdırma yoxdur ki, icra hakimiyyəti təqdim etsin və əsaslandırsın ki, nə üçün parkinqin saatı 1 manatdır. Azərbaycanda sadəcə bu sahələrə nəzarət edən şəxslər bunu özlərindən müəyyənləşdirir. Ancaq Azərbaycanda əhalinin gəlir səviyyəsini, yaşayış minimumunu nəzərə alaraq deyə bilərik ki, qiymətlər həddindən artıq yüksəkdir.

İlkin olaraq bu aparatlar quraşdırılanda deyilirdi ki, şəhərin müxtəlif istiqamətlərində qiymətlər fərqli olacaq, mərkəzdən kənarlara doğru getdikcə park qiymətləri ucuzlaşacaq. Dünya təcrübəsində də bu belədir".

❑ **Nərgiz LİFTİYEVA**

# Zığda vərəm epidemiyası ilə bağlı təhlükə

## Qəsəbə sakinləri dözülməz şəraitdə yaşayır

**Suraxanı rayonu, Zığ qəsəbəsinin sakinləri acınacaqlı durumda yaşamalarından şikayət edirlər. Sakinlər musavat.com-a müraciət edərək bildiriblər ki, qəsəbənin yolları, kommunal durumu və marşrut sistemi bərbaddır. Bundan əlavə, qəsəbədə hər an kütləvi şəkildə vərəm xəstəliyi yayıla bilər.**

Məsələni daha dəqiq öyrənmək üçün Zığ qəsəbəsinə yollandıq. Öyrəndik ki, qəsəbəyə metronun "Əhmədli" stansiyasının yaxınlığından 44 nömrəli marşrut avtobusu gedir. 1 saat marşrut gözləsək də, istəyimizə çata bilmədik...

Çünki 1 saat ərzində marşrut avtobusu cəmisi 2 dəfə dayanacağa yaxınlaşdı. Və hər dəfəsində dayanmadı. Çünki avtobusda həddindən artıq çox sərnişin vardı. Bununla da elə buradaca sakinlərin marşrut problemlərini anlamış olduq.

Məcbur taksidən istifadə edərək qəsəbəyə yollandıq. Qəsəbədə bizi ilk olaraq çala-çuxurlu, gölməçəli yollar qarşıladı. Qəsəbənin bələdiyyə binasının önündə taksidən endik. Bələdiyyə binasına gedərək, sakinlərin problemlərinin nə zaman həll ediləcəyini öyrənmək istədik, amma bu fikrimizdən vaz keçdik.




Çünki bələdiyyə binasının önündə kanalizasiyadan axan suların sayəsində göl yaranmışdı. Bu yerdə bir atalar sözü tam yerinə düşər: “Əli yağlı olsa, ilk öz başına çəkər”.

Xülasə... Yolumuza davam etdik. Öyrəndik ki, qəsəbə iki hissəyə bölünüb. Sol tərəfdə yerli sakinlər, sağ tərəfdə isə əsasən Laçın və Cəbrayıldan olan qaçqınlar məskunlaşıb. Əsas şikayətçilər də qaçqınlardır.

**Sakinlərin sözlərinə görə, onların ən böyük problemi qəsəbədə olan vərəm dispanseridir.**

“Harada görülüb ki, camaatın evinin yanında vərəm dispanseri olsun? Dispanserdə ağır xəstələr var. Düşünün ki, eyni marketdən alış-veriş edirik. Eyni marşrutla yol gedirik. Belə olmaz, axı... Biz hər an kütləvi şəkildə vərəmə yoluxa bilərik. Mənim 65 yaşım var. 1-ci qrup gözdən əliləm. Qaçqınam. Yaşayış tərzim də göz qabağındadır. Taxtadan bir daxma tikib, onun içində yaşayırıq. Ayda 207 manat pensiya alıram. O pul nəinki dolanmağıma, heç gözümün dərmanlarına çatmır. Neçə dəfə müraciət etmişəm. Hələ bir cavab verən yoxdur. Gözüm görmədiyi üçün ağacla yeriyirəm”. Bu sözləri şikayətçilərdən biri olan Məzahir Mehdiyev deyir.

**Digər şikayətçi Məhərrəm Babaşov deyir ki, qəsəbənin kommunal problemləri hər kəsi bezdirib:** “Zığ qəsəbəsi sahibsiz qalıb. Hər yerə müraciət etmişik. Baxan yoxdur. Yay aylarında suyumuz, ümumiyyətlə, gəlmirdi. Bütün ağaclarımız qurudu. İndi də su problemi yaşayırıq. Son 4-5 gün ərzində su gəlməyə başlayıb. Pulla su gətirdirik. Hər dəfə də 20, 30, 40 manat civarında pul ödəyirik. Biz milyoner deyilik, axı... Milyoner olsaydıq, onlar kimi evimizə xüsusi su çəkdirərdik. Qaz ya gəlmir, ya da həddindən artıq zəif gəlir. Bəzən qaz verilir, evdə xanımlarımız yemək bişirirlər. Birdən qazı kəsirlər. Sonra yenə qaz gəlməyə davam edir. Həmin anlarda evdə heç kim olmasa, ya fikir verməsək, yanğın, partlayış və dolayısı yolla ölüm halları ola bilər. Qaz idarəsinə dəfələrlə şikayət etmişik, heç bir faydası yoxdur. Deyirlər ki, bu evlər söküləcək. Ona görə də belə problemlər var. Lap elə nə vaxtsa sökülsün. Amma faktiki olaraq, burada insanlar yaşayır, ya yox? Biz ölməliyik?”

**Sakinlər deyirlər ki, marşrut avtobusları gec-gec gəlirlər. Və ona görə də avtobuslarda dəhşətli sıxlıq yaranır:** “Buraya əsasən 44 nömrəli marşrut avtobusu işləyir. O da 25-30 dəqiqə intervalla hərəkət edir. Çünki məsafə uzundur, avtobusların sayı isə azdır. Avtobusların sayını artırsalar, belə problemlərlə qarşılaşmarıq”.







**Sakinlərlə danışdığımız zaman onu da öyrəndik ki, bizi ilk qarşılayan və 1-ci qrup gözdən əlil olan 65 yaşlı Məzahir kişinin gözəl səsi varmış. Əvvəllər bir müddət xanəndəlik də edən Məzahir kişi gözlərinin işığı çəkildikdən sonra bu sənətə davam etməyib:** “Gözlərim işıqsız qaldıqdan sonra divarlar, bir də nəvələrimin mənim üçün çəkdikləri ip mənim göz əvəzimdir. Dəyənəyimi onlara vura-vura gəzirəm. Mən Laçın qaçqınıyam. Torpağımdan uzaqda qalmaq mənim üçün ağırdır. Həm də bu yaşda... Üstəlik, gözlərimin görməməyi, kiməsə möhtac olmağım mənim üçün asan deyil”.

**Məzahir kişidən xahiş etdik ki, bizim üçün bir balaca ifa etsin. O da xahişimizi yerə salmadı və kiçik bir muğam ifa etdi. İfa edərkən dediyi sözlərdə isə çox mənalar tapmaq olardı. Bir cümləsi isə belə idi: “Qocalıb, cavanlara möhtac olan canım...”**

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 284 (5993) 20 noyabr 2014*




## İt bir günlük şəhər meri oldu

Frida ləqəbli it bu günlük San Fransisko şəhərinin meri olub. Bu, şəhərdəki heyvan sığınacağını bir günlük dəstək məqsədilə edilib. Fridanın sahibi 5 min dollar ödəyərək xüsusi təşkil olunmuş bu auksionun qalibi olub. İtin "iş günü" şəhər boyu ekskursiya olaraq nəzərdə tutulub. Öhdəliyini yerinə yetirəndən sonra meriyada ona xüsusi "hədiyyə paketi" təqdim olunacaq. Həmin paketdə oyuncaq, yemək və bəzi it aksessuarları var. "Biz Friadanın - heyvanlar üçün sığınacağın tənha anasının bir günlük də olsa belə məsuliyyətli vəzifəni icra etməsindən məmnunluq hissi keçiririk". Bunu isə şəhərin Heyvanlara Qulluq İdarəsinin departament müdiri deyib.

Xatırladaq ki, ötən ilin noyabrında analoji aksiya uşaq xərçənginə qarşı mübarizəyə həsr olunmuşdu. Həmin vaxt da San Fransiskoya bir günlük 5 yaşlı Maylz Skott merlik etmişdi.

# Bu balina insan kimi danışır

Amerikalı alimlər insan səsini imitasiya edən və öz diapazonundan bir neçə oktava aşağı səs çıxara bilən balina tapıblar. Ağ balina San Diyeqo şəhərində yaşayır. Haberturk saytı xəbər verir ki, NOC adlı balina insan səsi çıxaran ilk dəniz məməlisi adını qazanıb. Danışan balinanı suyun altında olan dalğıclardan biri müəyyən edib. O, suyun üzərinə çıxmaq əmri eşidib. Üzə çıxanda isə təəccüblənib. Çünki ordakı insanlardan heç biri ona belə əmr vermədiyini bildib. Müşahidələrdən sonra müəyyən edilib ki, səsləri NOC çıxarıb. Mütəxəssislərin nəzəriyyəsinə görə, bu xüsusiyyəti o, dalğıcların keçirdiyi sualtı əlaqə testləri zamanı qazanıb. Ağ balinanın çıxardığı səslər səs siqnalından daha çox, insan danışığına bənzəyir. Su məməlisi səsləri çıxarmaq üçün burunlarından istifadə edirlər. Xüsusi üsulla burundaxili təzyiqi dəyişir ki, bu da insan səsinə oxşayan səslərin çıxmasına səbəb olur.



# İsus Xristosa oxşadığı üçün həbs olundu




Üzü, saç düzümü və geyimi ilə İsus Xristosu xatırladan kişi ABŞ-ın Filadelfiya ştatında həbs olunub. Maykl Qrant adlı kişini xuliqanlıq və dələduzluqda ittiham ediblər. O da hüquqlarının qorunması üün məhkəməyə müraciət edib. Saqqallı və uzun saçlı amerikalı ağ uzun xələtdə olub və yoldan keçib-gedənlərə onunla şəkil çəkdirməyi təklif edib. Bu zaman polis onu yaxalayaraq, dələduzluqla məşğul olmaqda ittiham edib. Qrant isə polislərin onu məlum ərazidən uzaqlaşdırması ilə bağlı tələbini qeyri-qanuni adlandrıb və bundan sonra həbs edilib. Gənc adam tvitterdə yazıb ki, dələduzluqda ittiham olunması qanunsuzluqdur. Çünki onunla şəkil çəkdirmək istəyənlərdən pul tələb etmirmiş, sadəcə belə təklifi səsləndirirmiş. O, ictimai yeri tərk etməklə bağlı tələbi rədd etməsini də qanunsuzluq hesab etmədiyini deyib.



## Qadın sürücülər daha söyüşcüldür

İngiltərədə müştərilərinə sığorta və maliyyə xidməti təklif edən "Direkt Line" adlı şirkət maraqlı bir araşdırma həyata keçirib. 2013 sürücü arasında keçirdiyi rəy sorğusunun nəticəsinə görə, qadın sürücülər avtomobil idarə edərkən kişilərdən daha çox söyüş söyürlər. Qadınların 48 faizi sükan arxasında söyüş söydüyünü səmimi şəkildə qəbul edib. Kişilərin isə cəmi 40 faizi belə bir etiraf edib. Rəy sorğusunun nəticələrinə görə, başqa bir sürücü tərəfindən yolları kəsilən qadınların üçdə biri, kişilərin isə dörddə biri söyüşdən silah kimi istifadə edir. Qadın sürücüləri təbdən çıxaran əsas səbəb isə kişi sürücülərin onlara yolda sataşmasıdır.

# Telefonla ən çox danışan xalq amerikanlar çıxdı: ayda 365 dəqiqə



İqtisadi İnkişaf və İşbirliyi Təşkilatı 2013-cü ildə dünya ölkələrinin mobil telefondan istifadə faizlərini açıqladı. 2011-ci il rəqəmlərinin baza olaraq istifadə edildiyi nəticələrə görə, amerikalılar mobil telefonla dünyanın bütün xalqlarından daha çox danışırlar. Türklər də siyahının üst sıralarında yer alırlar. Beləliklə, ayrı-ayrı ölkələrin aylıq danışıq nəticələri:

ABŞ: 365 dəqiqə
Kanada: 345 dəqiqə
Türkiyə: 188 dəqiqə
Norveç: 184 dəqiqə




**QOÇ** - Yaxşı olar ki, vaxtınızı bütünlüklə münasibətlərin tənzimlənməsinə həsr edəsiniz. Çünki hesablamalar fəaliyyətdə passivliyin hökm sürəcəyini göstərir. Dini dəyərlərə hörmət edin.

**BUĞA** - Hiss olunur ki, ətrafınızda olanların əksəriyyəti fikirlərinizə qarşıdır. Lakin bunu əsəbi şəkildə qəbul etməməlisiniz. Sübut edin ki, haqqınızda deyilənlər doğru deyil.

**ƏKİZLƏR** - Göstəricilər düşərli bir gün yaşayacağınızı bəyan edir. Xislətinizdən asılı olaraq ətrafda hər şey gözəl olacaq. Amma vaxt tapıb müqəddəs ziyarətgahlarımıza da baş çəkməyə çalışın.

**XƏRÇƏNG** - Hansısa xoşgəlməzlik haqqında düşünməyə dəyməz. Çünki ulduzların düzümü günün əksər saatlarını xoş ovqatda keçirəcəyinizi bildirir. Təzə xəbərlər və büdcədə artım da gözlənilir.

**ŞİR** - Həddindən ziyadə məhsuldar gündür. Nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Yeni təkliflərə razılıq verin. Əks təqdirdə, müttəfiqlərinizi itirəcəksiniz.

**QIZ** - Yeni simalarla rastlaşma ehtimalınız böyükdür. Ola bilsin ki, qarşılaşdığınız adamların bir çoxu mövcud problemlərinizin həllində əsaslı rol oynasın. Odur ki, buna hazır olun.

**TƏRƏZİ** - Ailə-sevgi münasibətlərində bütün proseslər ürəyinizcə olacaq. Bu səbəbdən də qarşı tərəfin rəylərinə hörmətlə yanaşmalısınız. Yeni sövdələşmələrdə təşəbbüskarlığı ələ alın.

**ƏQRƏB** - Səhər saat 10:23-də mənfi enerjili Ay bürcünüzdə olacaq. Buna baxmayaraq, ayın ən dəyərli gününü yaşayacaqsınız. Atdığınız addımlar ətrafda sizə qarşı rəğbət yaradacaq.

**OXATAN** - O qədər də səmərəli təqvim deyil. Bir tərəfdən cəhdlərinizin boşa çıxması, digər tərəfdənsə səhhətinizlə bağlı problemlərin baş qaldırması əsəblərinizə mənfi təsir göstərə bilər.

**OĞLAQ** - Qərarlarınızda qətiyyətli olmasanız, qarşınıza çıxan mühüm şanslarınızı itirəcəksiniz. Risk etməkdən qorxmayın. Hər şeydən əlinizi üzəndə heç olmasa sevgi amilindən bəhrələnin.

**SUTÖKƏN** - Bəxtinizdə müəyyən qədər mübahisəli bir tarix durur. Odur ki, istər evdə, istərsə də iş yerində çılğınlıqdan uzaq olmalısınız. Konflikt yaratmaqdansa, barışdırıcı mövqe seçin.

**BALIQLAR** - Təxminən saat 13-ə qədər ümumi əhvalınızda gərginlik müşahidə olunsa da, sonrakı müddəti normal şəkildə başa vura biləcəksiniz. Bütün iş və görüşlərinizdə Allahı yaddan çıxarmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Van Qoq intihar etməyib, öldürülüb...



Ədliyyə tibb mütəxəssisi Vinsent Di Maio 1890-cı ildə Fransada ölən hollandiyalı rəssam Vinsent Van Qoqun qətlə yetirilməsinin mümkünlüyünü bildirib. Bu iddia ucbatından rəssamın bir tarlada özünü güllələməsi ehtimalı araşdırılıb. Güllə yarasının araşdırılması üzrə mütəxəssis bildirib ki, araşdırma ortaya maraqlı nəticələr çıxarıb: "Ekspertiza nəticəsində məlum oldu ki, rəssam özünü yox, başqa birini öldürmək istədiyi zaman dünyasını dəyişib. İzlər göstərir ki, çox yaxından atəş açılmayıb. Bundan başqa, sahib olduğu silahla özünü sol sinəsindən vurması da o qədər inandırıcı deyil. Ən azı, bu, mümkün ola bilməzdi".

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.400